RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 54 (9221) 11 MART 2023-cü il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# İlham Əliyevin yeni təşəbbüslərinə qlobal dəstək

Paytaxtımız növbəti dəfə Qlobal Bakı Forumuna yüksək səviyyədə evsahibliyi edir. Martın 9-da Prezident İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə işə başlayan X forumun mövzusu "Dünya bu gün: Çağırışlar və ümidlər"dir.

Ümumiyyətlə, son illərdə Nizami Gəncəvi Beynəlxalq Mərkəzi qlobal problemlərin həlli yollarını araşdıran və bu barədə dünya ictimaiyyətini məlumatlandıran mühüm beynəlxalq mərkəzə çevrilib. Məhz bunun nəticəsidir ki, mərkəzin təşkil etdiyi tədbirlərə maraq ildən-ilə artmaqdadır. Bunu hər il keçirilən Qlobal Bakı Forumuna qatılan tanınmış dünya siyasətçilərinin, elm adamlarının, beynəlxalq təşkilatların rəhbərlərinin artan sayı bir daha təsdiqləyir. Elə budəfəki "Dünya bu gün: Çağırışlar və ümidlər" mövzusuna həsr olunan foruma qatılan nümayəndələrə də diqqət yetirsək, buna bir daha şahid olarıq: 4 prezident, 2 baş nazir, 6 spiker və nazir, BMT-nin 5 qurumunun rəhbərlikləri, 25 sabiq prezident, 21 sabiq baş nazir, 23 ölkənin xarici işlər nazirlərinin müavinləri olmaqla, ümumilikdə 61 ölkədən 360-dək nümayəndə. Bu, əlbəttə ki, ilk növbədə həm Azərbaycana, həm də mərkəzin fəaliyyətinə verilən yüksək dəyərin göstəricisidir.

→ 7

## Heydər Əliyev İli - 2023

# Müasir Azərbaycanın qurucu lideri

### Sumqayıt Şəhər İcra Hakimiyyətinin və "Azərbaycan" qəzetinin birgə konfransı

Prezident İlham Əliyevin sərəncamı ilə 2023-cü il Azərbaycanda "Heydər Əliyev İli" elan olunub. Bununla əlaqədar olaraq respublikamızın hər yerində Ulu Öndərin xatirəsinə həsr olunmuş müxtəlif mövzulu tədbirlər keçirilir.



Belə tədbirlərdən biri "Azərbaycan" qəzeti ilə Sumqayıt Şəhər İcra Hakimiyyətinin birgə keçirdiyi "Müasir Azərbaycanın memarı və qurucusu" mövzusunda konfrans oldu.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin büstünün önünə gül dəstələri qoyuldu, xatirəsi ehtiramla yad edildi. Şəhər ictimaiyyətinin nümayəndələrinin iştirakı ilə Sumqayıt Dövlət Dram Teatrının Konfrans salonunda keçirilən tədbir Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin xatirəsinin birdəqiqəlik sükutla yad edilməsi ilə başladı.

*Konfransı giriş sözü ilə açan **Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir FƏRƏCOV** bildirdi ki, 2023-cü il mühüm siyasi və əlamətdar hadisələrin ildönümü və yubileylər ilidir. Xüsusilə vurğulanmalıdır ki, bu il xalqımızın Ümummilli Lideri, müasir, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, əbədiyaşar şəxsiyyət Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur. Bununla əlaqədar olaraq Prezident İlham Əliyevin 29 sentyabr 2022-ci ildə imzaladığı sərəncamla Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi hər birimizin ürəyindən xəbər verdi, cəmiyyətdə böyük razılıqla qarşılandı:*

- "Heydər Əliyev İli" ilə əlaqədar Sumqayıt şəhərində də silsilə tədbirlər keçirilir. Sumqayıt Şəhər İcra Hakimiyyəti olaraq biz "Heydər Əliyev İli"nə həsr olunmuş növbəti tədbirimizi Milli Məclisin orqanı, dövlətimizin rəsmi nəşri olan "Azərbaycan" qəzeti ilə birlikdə keçiririk. "Azərbaycan" qəzeti həmişə Sumqayıtın ictimai həyatını, şəhərimizdəki inkişaf proseslərini yüksək səviyyədə işıqlandırıbdır. Bu baxımdan "Heydər Əliyev İli" çərçivəsində konfransın "Azərbaycan" qəzeti ilə birgə keçirilməsi qəzetlə şəhərimiz arasındakı münasibətlərin ruhuna tam uyğundur.

→ 4-5

## Azərbaycan ilə İsrail arasında ikitərəfli əlaqələr uğurla inkişaf edir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 10-da İsrail Dövlətinin kəşfiyyat naziri Gila Gamlieli qəbul edib.

→ 2

## Azərbaycan Qərblə Şərq arasında mədəni körpü qurulması işinə töhfə verir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 10-da Nobel sülh mükafatı laureatı Kailaş Satyartini qəbul edib.

→ 2

## X Qlobal Bakı Forumu dünya mediasının diqqət mərkəzində



Məqalələrdə Bakının onuncu dəfə təşkil etdiyi bu mötəbər tədbirə qatılan nüfuzlu siyasətçilərin, dövlət və hökumət başçılarının, sabiq prezidentlərin, beynəlxalq təşkilatların rəhbərlərinin dünya gündəminin ilk sıralarında yer alan mühüm məsələlər barədə müzakirələr apardıqları, müasir çağırışlarla bağlı həll yollarını araşdırdıqları qeyd olunub.

→ 8

## Bolqarıstan Prezidenti Rumen Radev Azərbaycana işgüzar səfərə gəlib



Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev X Qlobal Bakı Forumunda iştirak etmək üçün martın 10-da Azərbaycan Respublikasına işgüzar səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda Bolqarıstan Prezidentini Azərbaycanın kənd təsərrüfatı naziri İnam Kərimov və digər rəsmi şəxslər qarşılayıblar.

# Azərbaycan qlobal dialoq məkanına çevrilib

Bakı Qlobal Forumunun iştirakçılarının təmsilçilik səviyyəsi və intellektual potensialı aparıcı beynəlxalq konfranslara uyğundur. Əlbəttə ki, bu, həmsədrlərin, bütün idarə heyətinin düşünülmüş və səmərəli fəaliyyətinin təzahürüdür. Burada 61 ölkədən 360 nəfər iştirakçı var. Onların sırasında 50-dən artıq hazırkı və sabiq prezident və baş nazir var. Beləliklə, təxmin edə bilərik ki, müzakirələrin səviyyəsi kifayət qədər yüksək olacaq. Əlbəttə, ən dəyərlisi beynəlxalq münasibətlərlə bağlı yeni yanaşmalara dair tövsiyələrdir.

→ 7

## İrəvan təşvişdədir: Paşinyan Ermənistanı yeni müharibəyə aparır

Nikol Paşinyan hakimiyyəti günbəgün öz mövqelərini və sosial dayaqlarını itirməyə başlayıb. Bildirilib ki, antirusiya siyasəti hakimiyyətin mövqelərini düşünüləndən daha sürətlə sıradan çıxaracaq. Məlumata görə, Rusiya Paşinyana ciddi sürprizlər etməyi planlaşdırır. Nəşr yazır ki, bu sürprizin hansı format və növdə olacağını öyrənə bilməyiblər, çünki proses hələ müzakirə mərhələsindədir və buna ciddi hazırlıq işləri davam edir.

Nikol Paşinyan antirusiya mövqeli şəxsdir. Məsələ ondadır ki, bu şəxsin bütün fəaliyyəti müddətində antirus mövqeyi əsas xətt kimi keçib. O dəfələrlə ölkənin Rusiyadan həddən ziyadə asılılığını qabardıb. Pik nöqtə isə onun rəhbərlik etdiyi blokun Ermənistanın Avrasiya İqtisadi İttifaqından və Gömrük İttifaqından çıxması barədə hazırladığı qanun layihəsi olmuşdu. Elə bunu nəzərə alan qüvvələr onu hakimiyyətə gətirmişdilər. İndi isə antirusiya mövqeyi sərgiləməsi fonunda Rusiyameyilli qüvvələr onu hakimiyyətdən uzaqlaşdırmaq üçün bütün vasitələrə əl atırlar.

→ 9

## *Laçın-Xankəndi yolu:* Ekoaksiya 90 gündür davam edir

Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarının dayandırılması, "Qızılbulaq" və "Dəmirli" yataqlarında monitorinqin keçirilməsinə icazə verilməsini tələb edən azərbaycanlı könüllü gənclər və ekoloqlar tərəfindən Laçın-Xankəndi yolunun Şuşa ərazisindən keçən hissəsində təşkil olunan etiraz aksiyası 90 gündür davam edir.



→ 10

## *DTX:* "Metroda terror aktı törədiləcəyi barədə yanlış məlumat yayan şəxs müəyyən olunaraq saxlanılıb"

Sosial şəbəkələrdə Bakı Metropolitenində terror aktının törədiləcəyi ilə bağlı yayılmış və vətəndaşlar arasında ciddi narahatlığa səbəb olmuş səs yazısı barədə dərhal Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən zəruri istintaq-əməliyyat tədbirləri həyata keçirilib.

Dövlət Təhlükəsizliyi Xidmətinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, faktla bağlı başlanılmış cinayət işi üzrə aparılan ibtidai araşdırma zamanı müvafiq səs yazısının Azərbaycan Respublikasının vətəndaşı, 2001-ci il təvəllüdlü Butayev Fərid Fərhad oğluna məxsus olduğu və sözügedən materialın həmin şəxs tərəfindən vatsap tətbiqi vasitəsilə paylaşıldığı müəyyən edilib.

Fərid Butayev saxlanılaraq Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 216-cı (terrorçuluq barədə bilə-bilə yalan məlumatvermə) maddəsi ilə təqsirləndirilən şəxs qismində məsuliyyətə cəlb edilib.

Əhali arasında vahimə yaratmaq məqsədi güdən analoji əməllərin qanunla müəyyən olunmuş qaydada ciddi hüquqi məsuliyyət yaratdığı barədə bir daha xəbərdarlıq edilir.

# Azərbaycan ilə İsrail arasında ikitərəfli əlaqələr uğurla inkişaf edir



*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, görüşdə X Qlobal Bakı Forumunun əhəmiyyətinə toxunularaq, bu tədbirin yüksək səviyyədə təşkil olunduğu və burada dünyanın nüfuzlu siyasətçilərinin, xeyli sayda ölkə və beynəlxalq təşkilatların nümayəndələrinin iştirak etdiyi, aktual məsələlərin müzakirəsi üçün forumun yaxşı imkan yaratdığı vurğulandı.

Azərbaycan ilə İsrail arasında ikitərəfli əlaqələrin müxtəlif istiqamətlərdə uğurla inkişaf etdiyi bildirilərək ölkəmizin İsraildə səfirliyinin açılmasının önəmi, eyni zamanda bu ilin fevralında Prezident İlham Əliyevin Münhendə İsrail Dövlətinin müdafiə naziri Yoav Qallant ilə görüşü qeyd edildi.

Söhbət zamanı əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

# Azərbaycan Qərblə Şərq arasında mədəni körpü qurulması işinə töhfə verir

*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, Kailaş Satyarti X Qlobal Bakı Forumunun əhəmiyyətindən danışdı, özünün dediyi kimi, bu cür tarixi bir tədbirin yüksək səviyyədə təşkilinə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi ilə sıx əməkdaşlıq etməkdən məmnunluğunu ifadə etdi. Qonaq qeyd etdi ki, dünyada hazırkı zamanda bu tədbir çox böyük önəm daşıyır. O dedi: "Hazırda dünyada mədəniyyətlər arasında parçalanmanın baş verdiyi və bu sahədə ciddi təhdidlərin mövcud olduğu bir dövrdə Sizin rəhbərliyinizlə bu önəmli forum çox lazımlı bir vaxtda təşkil edilib".

Xoş sözlərə görə minnətdarlığını bildirən dövlətimizin başçısı Nobel sülh mükafatı laureatı Kailaş Satyartinin bu forumda iştirakını və Nizami Gəncəvi Beynəlxalq Mərkəzi ilə fəal əməkdaşlığını yüksək qiymətləndirdi.



Prezident İlham Əliyev ölkəmizin Qərblə Şərq arasında mədəni körpü qurulması işinə töhfə verdiyini vurğulayaraq, Azərbaycanın mütəmadi olaraq mühüm beynəlxalq tədbirlərə evsahibliyi etdiyini bildirdi və gələn il BMT ilə birgə Mədəniyyətlərarası Dialoq Forumunun da keçiriləcəyini diqqətə çatdırdı.

Dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycan multikultural dövlətdir, ölkəmizdə tarixən müxtəlif mədəniyyətlərin və dini konfessiyaların nümayəndələri dinc yanaşı yaşayıblar. Bununla da Azərbaycan müxtəlif sivilizasiyaların bir araya gəlməsində mühüm rol oynayır.

X Qlobal Bakı Forumunun önəminə toxunan Azərbaycan Prezidenti çox sayda ölkədən tanınmış siyasi və ictimai xadimlərin, digər nümayəndələrin burada iştirakını tədbirin nüfuzunun göstəricisi kimi dəyərləndirdi.

Görüşdə Azərbaycanın zəngin tarixi və mədəni irsi barədə danışıldı.

## Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası Əmək Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 4, maddə 213; 2001, № 3, maddə 143, № 6, maddə 362, № 11, maddələr 672, 679, № 12, maddə 731; 2002, № 1, maddə 2, № 5, maddə 241, № 6, maddə 328; 2003, № 1, maddələr 9, 23; 2004, № 1, maddə 10, № 2, maddə 57, № 3, maddə 133, № 6, maddə 413, № 7, maddə 505, № 9, maddə 672, № 12, maddə 981; 2005, № 3, maddə 151, № 4, maddə 278, № 7, maddə 560, № 10, maddə 874, № 11, maddə 1001, № 12, maddə 1094; 2006, № 3, maddələr 220, 222, № 5, maddə 385, № 11, maddə 923, № 12, maddələr 1004, 1025, 1030; 2007, № 5, maddələr 401, 437, № 6, maddə 560, № 8, maddə 756, № 11, maddələr 1049, 1053; 2008, № 3, maddə 156, № 7, maddələr 600, 602, № 10, maddə 887, № 11, maddə 960; 2009, № 2, maddə 48, № 5, maddə 294, № 6, maddə 399, № 12, maddələr 949, 969; 2010, № 2, maddələr 70, 75, № 4, maddə 275; 2011, № 1, maddə 11, № 2, maddələr 70, 71, № 6, maddə 464, № 7, maddə 598; 2012, № 11, maddə 1054; 2013, № 2, maddələr 89, 101, № 11, maddə 1268; 2014, № 2, maddə 92, № 10, maddə 1162, № 11, maddə 1339, № 12, maddə 1527; 2015, № 2, maddə 97, № 3, maddə 250, № 6, maddə 680; 2016, № 2 (I kitab), maddələr 190, 201, № 5, maddə 847, № 11, maddə 1767; 2017, № 6, maddələr 1031, 1048, № 12 (I kitab), maddələr 2187, 2189; 2018, № 1, maddə 13, № 6, maddə 1155, № 7 (I kitab), maddələr 1380, 1408, № 12 (I kitab), maddə 2532; 2019, № 1, maddə 35, № 4, maddə 570, № 5, maddələr 796, 804, № 7, maddə 1182, № 8, maddə 1380; 2020, № 1, maddə 1, № 5, maddə 522, № 7, maddə 832, № 11, maddələr 1322, 1332, 1335, № 12 (I kitab), maddə 1424; 2021, № 1, maddə 2, № 5, maddə 427, № 6 (I kitab), maddələr 539, 541, № 7, maddələr 698, 711, № 8, maddə 894, № 11, maddə 1203; 2022, № 6, maddə 582, № 11, maddələr 1239, 1240; Azərbaycan Respublikasının 2022-ci il 29 noyabr tarixli 659-VIQD nömrəli, 9 dekabr tarixli 684-VIQD nömrəli və 27 dekabr tarixli 776-VIQD nömrəli qanunları) 220-ci maddəsinə aşağıdakı məzmunda 6-cı hissə əlavə edilsin:

"6. Əməyin mühafizəsi tədbirlərinin maliyyələşdirilməsi ilə bağlı işçilər heç bir xərc çəkmirlər.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 fevral 2023-cü il*

## "Qiymətli metallar və qiymətli daşlar haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar bəzi tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 19 mart tarixli 555 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Qiymətli metallar və qiymətli daşlar haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar bəzi tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 19 mart tarixli 555 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 3, maddə 234; 2009, № 5, maddə 319; 2010, № 2, maddə 80; 2014, № 2, maddə 112) 1.2-ci bəndində "Energetika Nazirliyi" sözləri "İqtisadiyyat Nazirliyi" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 mart 2023-cü il*

## Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 12 sentyabr tarixli 292 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların dövriyyəsinə xüsusi icazəverən mərkəzi icra hakimiyyəti orqanlarının Siyahısı"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 12 sentyabr tarixli 292 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005,№ 9, maddə 798, № 10, maddə 918; 2006, № 5, maddə 408; 2007, № 3, maddə 232, № 8, maddə 765; 2008, № 1, maddə 7, № 8, maddə 719; 2009, № 3, maddə 163; 2013, № 6, maddə 654; 2014, № 2, maddə 112, № 9, maddə 1027, № 10, maddə 1220; 2015, № 7, maddə 829; 2016, № 1, maddə 45, № 6, maddə 1039, № 8, maddə 1375; 2017, № 3, maddə 353, № 8, maddə 1521, № 11, maddə 1996; 2018, № 3, maddə 436, № 9, maddə 1840;2019, № 7, maddə 1224; 2022, № 5, maddə 471,№ 8, maddə 838) ilə təsdiq edilmiş "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların dövriyyəsinə xüsusi icazə verən mərkəzi icra hakimiyyəti orqanlarının Siyahısı"nın 5-ci hissəsinin "Mülki dövriyyəsi məhdudlaşdırılmış əşyalar" sütununda "Qiymətli daşların hasilatı, qızılın və digər qiymətli metalların, neftin" sözləri "Neftin" sözü ilə əvəz olunsun və aşağıdakı məzmunda 5-1-ci hissə əlavə edilsin:

| | | |
|---|---|---|
| 5-1. | Qiymətli daşların hasilatı, qızılın və digər qiymətli metalların hasilatı və emalı vasitələri | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi |

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 mart 2023-cü il*

## "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259, № 3, maddə 460, № 4, maddə 670, № 6, maddələr 1025, 1063, № 7, maddə 1272, № 9, maddə 1468, № 10, maddələr 1614, 1638; 2017, № 2, maddələr 176, 202, № 3, maddə 351, № 4, maddələr 530, 537, № 6, maddə 1101, № 7, maddələr 1314, 1346, № 8, maddə 1521, № 9, maddə 1637, № 10, maddələr 1788, 1798, № 11, maddələr 2003, 2027, № 12 (I kitab), maddələr 2290, 2320; 2018, № 1, maddə 36, № 2, maddələr 198, 201, № 3, maddələr 418, 428, 443, 445, № 5, maddələr 914, 918, 926, 955, № 6, maddələr 1225, 1234, № 7 (I kitab), maddələr 1465, 1477, 1494, 1504, № 8, maddələr 1678, 1697, № 9, maddə 1840, № 11, maddələr 2244, 2256, 2273, 2289, № 12 (I kitab), maddələr 2541, 2566, 2573, 2610; 2019, № 1, maddələr 52, 68, № 3, maddə 426, № 4, maddələr 602, 630, № 5, maddələr 825, 846, 852, № 6, maddələr 1035, 1046, № 8, maddələr 1395, 1401, № 11, maddə 1700; 2020, № 3, maddələr 238, 240, 241, № 5, maddələr 540, 564, № 6, maddələr 691, 709, № 7, maddələr 863, 880, 884, № 8, maddələr 1027, 1032, № 9, maddə 1155, № 11, maddə 1359, № 12 (I kitab), maddə 1484; 2021, № 1, maddə 36, № 4, maddə 317, № 5, maddə 444, № 6 (I kitab), maddələr 565, 575, № 7, maddələr 724, 728, 741, № 10, maddə 1101, № 12, maddələr 1407, 1423; 2022, № 1, maddə 28, № 2, maddə 111, № 4, maddələr 313, 323, № 5, maddə 473, № 8, maddələr 837, 861, 897; Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 1952 nömrəli, 2023-cü il 12 yanvar tarixli 1964 nömrəli, 14 yanvar tarixli 1978 nömrəli, 31 yanvar tarixli 2009 nömrəli, 1 fevral tarixli 2012 və 2018 nömrəli, 4 fevral tarixli 2023 nömrəli fərmanları) 5.54-cü bəndində "Energetika Nazirliyi" sözləri "İqtisadiyyat Nazirliyi" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 mart 2023-cü il*

## Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Kiçik və orta biznes evlərində mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən xidmətlərin siyahısı"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1238, № 10, maddə 1991, № 11, maddə 2287; 2019, № 3, maddə 411, № 4, maddə 619, № 5, maddələr 839, 855, № 6, maddə 1027, № 12, maddə 1921; 2020, № 1, maddə 5, № 2, maddə 100, № 8, maddə 1039, № 11, maddə 1357; 2021, № 1, maddə 30, № 6 (I kitab), maddələr 579, 593, № 8, maddə 908, № 12, maddələr 1369, 1416; 2022, № 4, maddələr 305, 306, № 5, maddələr 443, 448, № 10, maddə 1136; Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 dekabr tarixli 1928 nömrəli və 2023-cü il 26 yanvar tarixli 2001 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Kiçik və orta biznes evlərində mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən xidmətlərin siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 4-cü hissənin "Göstərdiyi xidmətlər" sütununun 2-ci bəndinə aşağıdakı məzmunda yeddinci və səkkizinci abzaslar əlavə edilsin:

"- "İxrac nəzarəti haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən ixrac nəzarətinə düşən malların (işlərin, xidmətlərin, əqli fəaliyyət nəticələrinin) ixracı, təkrar ixracı, idxalı, təkrar idxalı və tranziti üçün icazə

- "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların dövriyyəsinə icazə".

2. 7-ci hissənin "Göstərdiyi xidmətlər" sütununa aşağıdakı məzmunda 6 - 17-ci bəndlər əlavə edilsin:

"6. "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların dövriyyəsinə icazə verilməsi

7. ixrac məqsədli neft-qaz fəaliyyətinə xüsusi iqtisadi rejimin tətbiqi haqqında şəhadətnamə verilməsi

8. elektrik enerjisinin ötürülməsinə icazə verilməsi

9. elektrik enerjisinin paylanmasına icazə verilməsi

10. elektrik enerjisinin ixrac və idxal edilməsinə icazə verilməsi

11. qazın istehsalına və təbii qazın emalına icazə verilməsi

12. qazın nəqli üçün icazə verilməsi

13. qazın paylanmasına icazə verilməsi

14. yeraltı qaz anbarlarının işlənməsi, tikilməsi və istismarına icazə verilməsi

15. neft və qaz yataqlarının kəşfiyyatına icazə verilməsi

16. neft və qaz yataqlarının işlənməsi və hasilatına icazə verilməsi

17. neft və neft məhsullarının boru kəmərləri vasitəsilə nəqlinə icazə verilməsi".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 mart 2023-cü il*

# Prezidentin göstərişi ilə bölgələrdə vətəndaşların qəbulu keçirilir

Prezident İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, ədliyyə naziri Fikrət Məmmədov martın 10-da Oğuz rayonunda ədliyyə fəaliyyəti ilə bağlı Oğuz, Qəbələ, Ağdaş və digər rayonlardan olan vətəndaşlarla görüşüb.

Görüşdə hər bir vətəndaşın müraciəti diqqətlə dinlənilib, qaldırılan məsələlərlə bağlı nazirliyin məsul işçilərinə aidiyyəti tapşırıqlar verilib. Vətən müharibəsi iştirakçılarına və şəhid ailələrinə xüsusi həssaslıqla yanaşılaraq qayğıları ilə maraqlanılıb.

Bölgə sakinləri onlara göstərilən diqqət və qayğıya, yerlərdə mütəmadi qəbulların təşkilinə görə dövlət başçısına minnətdarlıqlarını ifadə ediblər.

* * *

Gənclər və idman naziri Fərid Qayıbov martın 9-da Biləsuvar, Cəlilabad və Cəbrayıl rayonlarından olan vətəndaşlarla görüşüb. Biləsuvar Gənclər Evində keçirilən görüşdə nazir vətəndaşları diqqətlə dinləyib, onların müraciətlərinin həlli üçün müvafiq tapşırıqlar verib.

* * *

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin bölgələrdə vətəndaşların qəbulu cədvəlinə əsasən, martın 10-da Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova Salyan rayonundakı Heydər Əliyev Mərkəzində Salyan, Neftçala, Ağcabədi və Biləsuvar rayonlarından olan vətəndaşları qəbul edib. Dövlət komitəsindən bildirilib ki, qəbulda vətəndaşların ərizə, müraciət və təkliflərinə baxılıb. Vətəndaşlar əlilliyi olan şəxslərin mənzil və məişət probleminin həllinə köməklik göstərilməsi, işlə təmin olunma, şəhid ailələrində qadınların ictimai fəallığa cəlb olunması, sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası, ailələr boşandıqdan sonra uşaqlarla ünsiyyətin bərpası və digər məsələlərlə bağlı müraciət ediblər.

Vətəndaşların Dövlət komitəsinin səlahiyyət dairəsinə aid müraciətləri komitənin müvafiq struktur bölmələrinin məsul şəxslərinin iştirakı ilə dinlənilib, müvafiq tədbirlərin görülməsi ilə bağlı tapşırıqlar verilib.

* * *

Dövlət Gömrük Komitəsindən (DGK) bildirilib ki, martın 10-da DGK-nin sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırov Neftçala şəhərindəki Heydər Əliyev Mərkəzində Neftçala və Salyan rayonlarından olan vətəndaşlarla görüşüb. Komitənin müvafiq strukturlarının rəhbərlərinin iştirakı ilə keçirilən qəbulda Neftçala və Salyan rayon sakinlərinin müraciətləri dinlənilib. Vətəndaşların müraciətləri əsasən işə qəbul, idxal-ixrac əməliyyatları və digər gömrük məsələləri ilə bağlı olub.

Qəbul zamanı hər bir vətəndaşın müraciəti diqqətlə dinlənilib və qaldırılan məsələlərin bir qismi yerindəcə həllini tapıb, araşdırılması tələb olunan bəzi müraciətlərlə bağlı müvafiq tədbirlər görülməsi üçün aidiyyəti strukturların rəhbərlərinə tapşırıqlar verilib.

***AZƏRTAC***

# Azərbaycan İnvestisiya Holdinqinin Müşahidə Şurasının iclası keçirilib

Martın 10-da Azərbaycan İnvestisiya Holdinqinin (AİH) Müşahidə Şurasının iclası keçirilib.



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan Respublikasının Baş naziri, Azərbaycan İnvestisiya Holdinqinin Müşahidə Şurasının sədri Əli Əsədovun sədrliyi ilə keçirilən iclasın gündəliyində holdinqin idarəetməsinə verilmiş portfel şirkətlərinin 2022-ci ildəki fəaliyyətinin yekunlarına dair hesabatı, o cümlədən maliyyə nəticələri, portfel şirkətləri üçün əsas səmərəlilik göstəricilərinin müəyyənləşdirilməsi və büdcələmə prosesinin planlaşdırılması qaydaları, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC, "AzerGold" QSC, "Bakı Metropoliteni" QSC, "BakuBus" MMC və "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin korporativ idarəetmə standartları və digər cari məsələlər ətraflı müzakirə edilib. Azərbaycan İnvestisiya Holdinqinin İdarə Heyətinin sədri Mətin Eynullayevin və baş icraçı direktoru Ruslan Əlixanovun məruzələri dinlənilib. İclasın yekununda müzakirə olunan məsələlər barədə qərarlar qəbul edilib və Holdinqin İdarə Heyətinə müvafiq tapşırıqlar verilib.

# Milli Məclisin Sədri Sahibə Qafarova Bəhreyn Krallığına işgüzar səfərə gedib

Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti martın 10-da Bəhreyn Krallığının paytaxtı Manama şəhərinə işgüzar səfərə gedib.





Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Manama Beynəlxalq Hava Limanında nümayəndə heyətini Bəhreyn Krallığı Şura Məclisinin Sədri Əli bin Saleh Əl-Saleh, Nümayəndələr Palatasının Sədri Əhməd bin Salman Əl-Musalam, Azərbaycanın Bəhreyndəki səfiri Şahin Abdullayev və digər rəsmi şəxslər qarşılayıblar.

Səfər çərçivəsində Milli Məclisin Sədri Sahibə Qafarova Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin (QHPŞ) İkinci Konfransında və Parlamentlərarası İttifaqın 146-cı Assambleyasında iştirak edəcək, iştirakçı ölkələrin nümayəndə heyətlərinin rəhbərləri, digər rəsmi şəxslərlə görüşlər keçirəcək. Həmçinin Azərbaycan parlamenti spikerinin Parlamentlərarası İttifaqın 146-cı Assambleyasında çıxışı gözlənilir.

*"Azərbaycan"*

# Ölkəmiz iqlim dəyişmələrinin təsirinin azaldılması sahəsində beynəlxalq həmrəyliyə qoşulur

Martın 10-da İqlim Dəyişmələri üzrə Dövlət Komissiyasının növbəti iclası keçirilib.



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda Ekologiya və Təbii Sərvətlər, Kənd Təsərrüfatı, İqtisadiyyat, Xarici İşlər, Maliyyə, Energetika, Elm və Təhsil, Rəqəmsal İnkişaf və Nəqliyyat nazirlikləri, Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti, "Meliorasiya və Su Təsərrüfatı" ASC, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin və Dövlət Statistika Komitəsinin nümayəndələri iştirak ediblər.

Azərbaycan Respublikası Baş nazirinin müavini, Dövlət Komissiyasının sədri Əli Əhmədov Azərbaycanın 1995-ci ildə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasını ratifikasiya etdikdən sonra qlobal iqlim dəyişmələrinin təsirlərinin azaldılması üzrə beynəlxalq səylərə qoşulduğunu və 2016-cı ildən Paris Sazişinə uyğun beynəlxalq təşəbbüslərə özünün töhfəsi olaraq baza ili ilə müqayisədə 2030-cu ilədək istilik effekti yaradan qazların emissiyalarının səviyyəsində 35 faiz azalmanı hədəf kimi götürdüyünü qeyd edib. O, xüsusi olaraq vurğulayıb ki, iqlim dəyişmələri ilə bağlı problemin aktuallığının əhəmiyyətini nəzərə alaraq, ölkəmiz iqlim dəyişmələrinin təsirinin azaldılması sahəsində beynəlxalq həmrəyliyə qoşulur, istilik effekti yaradan qazların emissiyasının azaldılması hədəflərinə çatmaq üçün bir sıra layihələri reallaşdırır.

Kənd təsərrüfatı naziri İnam Kərimov iqlim dəyişmələrinin kənd təsərrüfatına təsiri və bunun nəticəsində yarana biləcək problemlər barədə məlumat verib.

Tədbirdə Dövlət Komissiyasının sədr müavini, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev iqlim dəyişmələrinin yaratdığı risklər və iqlim dəyişmələrinin təsirinə daha çox həssas olan sahələrin bu prosesə uyğunlaşması (adaptasiyası) istiqamətində görülməsi zəruri tədbirlər ətrafında çıxış edib.

Dövlət Komissiyasının Katibliyinin rəhbəri, ekologiya və təbii sərvətlər nazirinin müavini Rauf Hacıyev Katibliyin və İşçi Qrupun fəaliyyəti, ekologiya və təbii sərvətlər nazirinin müavini Umayra Tağıyeva isə "Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələr" (NDC) sənədinin yenilənməsi və işğaldan azad edilmiş ərazilərdə 2050-ci ilə qədər "netto sıfır emissiya" zonası hədəflərinə çatmaqla bağlı zəruri tədbirlər barədə məlumat veriblər.

Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəhman Hümmətov, iqtisadiyyat nazirinin müavini Sahib Ələkbərov, energetika nazirinin müavini Samir Vəliyev, Dövlət Statistika Komitəsinin sədr müavinin Yusif Yusifov müvafiq sektorlar üzrə görülmüş işlər və nəzərdə tutulan növbəti addımlar barədə fikirlərini bildiriblər.

Müzakirələrin nəticəsinə əsasən, Dövlət Komissiyasının sədri Əli Əhmədov "Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələr" (NDC) sənədinin yenilənməsi, "Aşağı emissiyalı inkişaf strategiyası"nın hazırlanması və işğaldan azad olunmuş ərazilərdə 2050-ci ilə qədər "netto sıfır emissiya" zonasının yaradılması ilə əlaqədar müvafiq tapşırıqlar verib, bu sahədə məlumatlandırmanın artırılması üçün təşviqat və təbliğat işlərinin genişləndirilməsinin zəruriliyini komissiya üzvlərinin diqqətinə çatdırıb.

# Zəngilanda Enerji təminatı məsələləri üzrə İşçi Qrupunun növbəti iclası olub

Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı yaradılmış Əlaqələndirmə Qərargahının İdarələrarası Mərkəzinin nəzdində fəaliyyət göstərən Enerji təminatı məsələləri İşçi Qrupunun Zəngilan rayonunun Ağalı kəndində iclası keçirilib.



AZƏRTAC xəbər verir ki, iclası açan Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev işçi qrupunun üzvlərini və qonaqları salamlayıb. Enerji təhlükəsizliyinin vacibliyindən danışan Prezidentin xüsusi nümayəndəsi həmçinin işğaldan azad edilmiş Cəbrayıl və Zəngilan rayonlarının bərpaolunan enerji potensialından və burada həyata keçirilməsi planlaşdırılan layihələrin əhəmiyyətindən danışıb.

Sonra Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının şöbə müdirinin müavini, İdarələrarası Mərkəzin Katibliyinin rəhbəri Nüsrət Süleymanov Əlaqələndirmə Qərargahının fəaliyyəti barədə məlumat verib. Qeyd edib ki, Azərbaycan Respublikası Prezidentinin tapşırıqlarına əsasən, işğaldan azad edilmiş ərazilərdə bərpa və yenidənqurma işləri Əlaqələndirmə Qərargahı çərçivəsində aidiyyəti qurumlararası fəal əlaqələndirmə təmin olunmaqla sürətlə davam edir. İndiyədək həyata keçirilən işlərə yerində baxış və praktiki məsələlərin müzakirəsi məqsədilə İdarələrarası Mərkəzin bəzi işçi qruplarının ərazilərə səfərləri təşkil edilib və müvafiq iclasları keçirilib. N.Süleymanov bu təcrübənin davam etdirilməsinin praktik baxımdan əhəmiyyətindən danışıb.

İşçi qrupun rəhbəri, energetika nazirinin müavini Elnur Soltanov çıxışında "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" və "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində energetika sahəsinə dair müəyyənləşdirilmiş tapşırıqların icrası haqqında danışıb. Enerji infrastrukturunun qurulması və regionun bərpaolunan enerji də daxil olmaqla enerji potensialından səmərəli istifadə çərçivəsində elektrik, təbii qaz və istilik təchizatının qurulması istiqamətində həyata keçirilən tədbirlər haqqında məlumat verilib.

"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində 2022-2026-cı illərdə "yaşıl enerji" zonasının yaradılması üzrə Tədbirlər Planı"nın icrasına dair təqdimat nümayiş etdirilib. Bildirilib ki, bu ərazilərdə bərpaolunan enerji mənbələrindən istifadəyə əsaslanan "yaşıl texnologiyalar"ın tətbiqinə başlanılıb və konsepsiya ilə nəzərdə tutulmuş tapşırıqlar binaların və digər obyektlərin layihələndirilməsi mərhələsində nəzərə alınır.

İşğaldan azad olunmuş ərazilərdə ötən dövr ərzində yarımstansiyaların tikintisi, elektrik xətlərinin çəkilişi, dayaqların və transformatorların quraşdırılması istiqamətində görülən işlər, reallaşdırılmaqda olan layihələrin icra qrafiki və planlaşdırılan işlər barədə məlumat verilib. Bu ərazilərin, xüsusilə də Laçın rayonunun birinci mərhələdə qazlaşdırılması planlaşdırılan Zabux və Sus kəndlərinə təbii qaz təchizatına dair təqdimat dinlənilib.

Sonra işçi qrupun əvvəlki iclaslarında müəyyənləşdirilmiş qərarların icrası ilə bağlı yerinə yetirilən tədbirlər nəzərdən keçirilib, iclasda müzakirə edilən məsələlərin həlli istiqamətində yeni qərarlar qəbul edilib.

Daha sonra işçi qrupun üzvləri Zəngilan rayonunun Ağalı kəndi ərazisində inşa edilmiş "ağıllı kənd"in enerji infrastrukturu, o cümlədən kiçik su-elektrik stansiyası - "Arximed" qurğusuna baxış keçirib, perspektiv planlarla tanış olublar.

# ABŞ Dövlət Departamentinin müşaviri erməni sakinlərin reinteqrasiyası məsələsində Azərbaycanın baxışları barədə məlumatlandırılıb

Martın 10-da Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə ABŞ Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş müşaviri Lui Bono arasında görüş keçirilib.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüş zamanı Azərbaycan-Ermənistan sülh sazişi üzrə danışıqlar prosesinin hazırkı vəziyyəti, Münhen Təhlükəsizlik Konfransı zamanı liderlər arasında keçirilmiş görüşdən irəli gələn məsələlər, Naxçıvana maneəsiz keçidi təmin edəcək kommunikasiyanın təmin edilməsi və delimitasiya prosesi üzrə cari vəziyyət və perspektivlər müzakirə olunub. Nazir Ceyhun Bayramov üçtərəfli Bəyanat çərçivəsində Ermənistanın öhdəliklərini yerinə yetirmədiyini, qüvvələrini Azərbaycan ərazilərindən tam çıxarmadığını, mütəmadi hərbi təxribatlarını davam etdirdiyini diqqətə çatdırıb. Nazir eyni zamanda erməni sakinlərin reinteqrasiyası məsələsi üzrə ölkəmizin baxışları barədə qarşı tərəfə məlumat verib.

Tərəflər həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# MDB PA-nın Elm və təhsil üzrə daimi komissiyasının iclasında

Martın 10-da Müstəqil Dövlətlər Birliyi Parlament Assambleyasının (MDB PA) Elm və təhsil üzrə daimi komissiyasının videokonfrans formatında iclası keçirilib.




Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclasda MDB PA-ya üzv ölkələrin parlamentariləri iştirak ediblər. Azərbaycanı tədbirdə Milli Məclisin deputatı, komissiyanın üzvü Kamilə Əliyeva təmsil edib.

Tədbirdə gündəlikdə duran və yeni redaksiyada təqdim edilən "Elmi, elmi-texniki və innovativ fəaliyyətin dəstəklənməsinin hədəf fondları haqqında", "Elmi və elmi-texniki fəaliyyət haqqında", "İnternetin tənzimlənməsinin əsasları haqqında" model qanun layihələri, həmçinin "Texnoloji çağırışlar - gələcəyin mühəndisləri" beynəlxalq təhsil layihəsi barədə müzakirələr aparılıb.

Toplantıda MDB ölkələrinin məktəbliləri üçün humanitar və sosial elmlər üzrə beynəlxalq olimpiadanın keçirilməsi haqqında əsasnamə layihəsinin müzakirəsi zamanı deputat Kamilə Əliyeva çıxış edərək qeyd və təkliflərini bildirib.

İclasda elm və təhsil sahəsində model qanun yaradıcılığı, süni intellektdən istifadənin tənzimlənməsi, MDB ölkələrində olimpiada və maarifləndirici layihələrin həyata keçirilməsi məsələlərinə baxılıb, komissiyanın 2022-ci ildəki fəaliyyəti müzakirə edilib, həmçinin komissiyanın növbəti iclasının tarixi və ilkin gündəliyi müəyyənləşdirilib.

*"Azərbaycan"*



Heydər Əliyev İli 2023

# Müasir Azərbaycanın

## Sumqayıt Şəhər İcra Hakimiyyətinin və "Azərbaycan" qəzetinin birgə konfransı

*Əvvəli 1-ci səh.*

Müasir Azərbaycan tarixinin 34 ildən artıq bir dövrü Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyevin Azərbaycana həm birinci, həm də ikinci rəhbərliyi mərhələsi tariximizə yüksəliş və quruculuq dövrü kimi daxil olmuşdur. Respublikamızın hansı şəhərinə, hansı rayonuna baş çəksək, Ulu Öndərin dövlət və xalq qarşısındakı müstəsna xidmətlərinə şahidlik edərik.

Bu gün nəinki Azərbaycanın, bütün Qafqazın sənaye mərkəzi kimi tarixi şöhrətini bərpa edən Sumqayıtın da yüksəlişində Ümummilli Lider Heydər Əliyevin böyük xidmətləri vardır. Hazırda öz intibahının yeni mərhələsini yaşayan şəhərimizin sovet hakimiyyəti dövründə inkişafı və nəinki keçmiş SSRİ-də, bütün dünyada tanınması məhz Heydər Əliyevin sayəsində mümkün olmuşdur. Sumqayıtın 74 illik tarixinin hər bir mərhələsini təhlil etsək görərik ki, sovet illərində məhz Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi dövrdə şəhərimizin möhtəşəm tarixi yazılıb.

O illərdə Sumqayıtın inkişafının şahidləri olanlar yaxşı xatırlayırlar ki, 1969-cu ildə Ulu Öndər Heydər Əliyev respublikamıza rəhbərliyə başlayanda Sumqayıtda əsasən metallurgiya və kimya müəssisələri fəaliyyət göstərirdi. Lakin Heydər Əliyev bilirdi ki, Sumqayıtın potensialı daha böyükdür. Təsadüfi deyil ki, Heydər Əliyevin təşəbbüsləri və xüsusi nəzarəti nəticəsində şəhərimizin ənənəvi sənaye sahələri ilə yanaşı, yüngül sənaye müəssisələri, habelə sənayenin digər sahələri inkişaf etdirildi. Buna misal olaraq əhalinin məişət kimyası mallarına tələbatını maksimum ödəmək məqsədilə 1970-ci illərin əvvəllərində yaradılan Sumqayıt Məişət Kimyası Zavodunu göstərə bilərik. Heydər Əliyevin sayəsində bu zavod Zaqafqaziyada ilk olaraq Sumqayıtda yaradıldı. Yaxud Superfosfat zavodunda yüksək texnologiya əsasında inşa edilən dənəvər superfosfat gübrəsi istehsalatının işə salınmasını xatırlada bilərik. 1970-73-cü illərdə Üzvi sintez zavodunda bir-birinin ardınca qliserin, benzol, izobutilen və poliizobutilen, həmçinin xlor və diafraqma üsulu ilə kaustik soda istehsalı sexlərinin fəaliyyətə başlaması, 1974-cü ildə Sintetik Kauçuk Zavodunda yüksək markalı kauçuk istehsal edən sexin yenidən qurulması ilə onun istehsal gücünün xeyli artırılması, Kompressorlar zavodunun, Üst trikotaj və Xovlu İplik fabriklərinin, Süd və Yeyinti məhsulları kombinatlarının yaradılması məhz Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə Sumqayıtda sənaye sahələrinin inkişafı ilə bağlı əldə olunmuş nailiyyətlərdir.

Sumqayıtın neft-kimya kompleksi üçün Almaniya və Çexoslovakiya istehsalı olan və ən yeni texnologiyalar əsasında yaradılmış EP-300 qurğusunun - layihə gücü etilenə görə 300 min, propilenə görə isə 138 min ton olan nadir kompleksin alınması da Heydər Əliyevin sayəsində mümkün olmuşdu. Bunun üçün o dövrdə Ulu Öndər SSRİ Nazirlər Soveti sədrinin birinci müavini N.Tixonovu respublikamıza dəvət etmişdi. Bundan sonra ittifaq rəhbərliyi Heydər Əliyevin təklifini nəzərə alaraq, EP-300 texnoloji kompleksinin alınmasına qərar vermişdi. Bu, Heydər Əliyev dühasının, onun müdrik iqtisadi siyasətinin böyük qələbəsi idi.





Bütün bunların nəticəsi kmi 1970-80-ci illərdə Sumqayıt öz iqtisadi potensialına görə keçmiş SSRİ məkanında və onun hüdudlarından kənarda tanınan bir məkan idi. Şəhərimizin məhsulları ittifaqın 700-dən çox şəhərinə və xarici dövlətlərə ixrac olunurdu.

Bir fakta xüsusilə diqqəti yönəltmək istəyirəm. Azərbaycana rəhbərliyi dövründə Heydər Əliyev düz 16 dəfə Sumqayıta səfər edib ki, bu da onun şəhərimizə olan yüksək qayğısının göstəricisidir. 1974-cü ildə Sumqayıtın 25 illik yubiley tədbirində çıxış edən Heydər Əliyev kimyaçıların heç də asan olmayan, gərgin, fədakar əməyini, əldə olunmuş nailiyyətlərini yüksək qiymətləndirməklə yanaşı, kimya sənayesinin prioritet inkişaf istiqamətləri barədə fikirlərini söyləyərək, qarşıda duran vəzifələrlə bağlı kimyaçılara gələcək üçün fəaliyyət proqramı ola biləcək dəyərli tövsiyələrini də vermişdi.

O dövrdə sənayenin inkişafı ilə yanaşı, Sumqayıt bir şəhər kimi də böyümüş, mikrorayonların sayı artmışdı. Hər il şəhərimizdə orta hesabla 80 min kv.m. mənzil sahəsi tikilib istifadəyə verilirdi. Şəhərimizin bir çox məşhur ünvanlarının təməli məhz o illərdə qoyulmuş və inşa edilmişdir.

Bir sözlə, Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci mərhələsi Sumqayıtın da yüksəlişinin qızıl dövrüdür. Təəssüf ki, sonrakı illərdə Azərbaycana rəhbərlik edənlərin, habelə müstəqilliyimizin ilk illərində hakimiyyətdə olan qüvvələrin səbatsızlığı nəticəsində Sumqayıtda yaradılmış böyük iqtisadi potensial da sıradan çıxarılmışdı və bu, Ulu Öndəri ciddi narahat edirdi. Ümummilli Liderin Sumqayıtla bağlı mövqeyi bundan ibarət idi ki, şəhər öz tarixi ənənələrini, sənaye mərkəzi kimi keçmiş şöhrətini bərpa etsin və ölkəmizin ən gözəl ünvanlarından birinə çevrilsin.

Qürur hissi ilə qeyd etməliyik ki, möhtərəm Prezident İlham Əliyevin inkişaf siyasətinin nəticəsi olaraq Sumqayıt sənaye mərkəzi kimi tarixi ənənələrini özünə qaytarır və bu proses indinin özündə də sürətlə davam edir. Ötən 19 ildə Sumqayıt daim Prezident İlham Əliyevin qayğısını hiss etmişdir. Bunu cənab Prezidentin şəhərimizə indiyədək 31 dəfə səfər etməsi də təsdiqləyir. Bu səfərlərin hər biri ali qayğının təcəssümü olmaqla Sumqayıtın inkişafına təkan vermiş, şəhərin tarixində əlamətdar hadisəyə çevrilmişdir.

Fəxarət hissi ilə qeyd etmək istərdim ki, bu gün Sumqayıt sənaye şəhəri adını özünə qaytarmışdır. Hazırda şəhərdə yüzlərlə kimya və neft-kimya, qara və əlvan metallurgiya, maşınqayırma, elektroenergetika, yeyinti və yüngül sənaye, tikinti materialları istehsalı müəssisələri fəaliyyət göstərir. Prezident İlham Əliyev bununla bağlı demişdir: "Bu müəssisələrin yaradılmasının və təməlinin qoyulmasının çox böyük əhəmiyyəti var, ilk növbədə, Sumqayıt şəhərinin inkişafı üçün. Sumqayıt hazırda nəinki Azərbaycanın, Cənubi Qafqazın ikinci böyük sənaye şəhəridir və müasir sənaye mərkəzidir. Eyni zamanda son illər ərzində Sumqayıtda yaradılmış bütün müəssisələr ən yüksək ekoloji standartlara cavab verir. Sumqayıt üçün bunun xüsusi əhəmiyyəti var. Çünki əvvəllər Sumqayıt ekoloji fəlakət zonası idi. Biz isə Sumqayıtı müasir sənaye mərkəzinə çevirərək, ilk növbədə, insanların sağlamlığını nəzərə almışıq".

Bu inkişafın nəticəsində artıq neçə illərdir ki, Sumqayıt özü-özünü maliyyələşdirir, dövlət büdcəsindən dotasiya almır.

Sumqayıt eyni zamanda Prezident İlham Əliyevin quruculuq siyasətinin möhtəşəm ünvanıdır. Əzəmətli Heydər Əliyev Mərkəzi, Yeni Azərbaycan Partiyasının inzibati binası, Bayraq Muzeyi, Gənclər Mərkəzi, Şahmat Məktəbi, Uşaq İncəsənət Məktəbi, Muğam Mərkəzi, Dənizkənarı bulvar, Olimpiya və Paralimpiya İdman kompleksləri, "ASAN xidmət" mərkəzləri Sumqayıtın yeni ünvanları kimi Prezident İlham Əliyevin inkişaf və quruculuq siyasətinin nümunələridir. Bunlardan əlavə "Kimyaçı" Mədəniyyət Sarayının, Sumqayıt Dövlət Dram Teatrının, Tarix Muzeyinin, 1 nömrəli Uşaq-gənclər idman məktəbinin, 3 nömrəli Uşaq-gənclər şahmat-dama idman məktəbinin binaları da əsaslı təmir olunmuşdur.

Sumqayıtdakı quruculuğun digər nümunələri şəhər təsərrüfatı ilə bağlıdır. Son illər ərzində şəhərdəki yaşayış binalarının böyük əksəriyyətinə dam örtüyü vurulmuş, onların liftləri tamamilə yenilənmiş, abad məhəllələr yaradılmışdır. Həmçinin Sumqayıtda sərnişindaşımada müasir idarəetməyə əsaslanan nəqliyyat infrastrukturu yaradılmış, avtomobil yolları yenidən qurulmuşdur. Çıxışlarda bu barədə ətraflı söz açılacaq.

*Azərbaycan xalqının böyük ehtiram və minnətdarlıq hissi ilə Ulu Öndər Heydər Əliyevin xatirəsini əziz tutduğunu, daim onu hörmətlə andığını deyən **"Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Bəxtiyar SADIQOVUN** sözlərinə görə, 2023-cü ilin "Heydər Əliyev İli" elan olunması da bunun bariz nümunəsidir. Bəxtiyar Sadıqov qeyd etdi ki, Heydər Əliyev kimi şəxsiyyətlər dünyaya az-az gəlir. Buna əmin olmaq üçün onun həyat yoluna ötəri nəzər salmaq belə kifayətdir:*

- Sadə, zəhmətkeş ailədən çıxmış Heydər Əliyev öz bacarığı və biliyi hesabına yüksələrək Azərbaycanın, sonra isə SSRİ kimi superdövlətin nüfuzlu rəhbərlərindən biri oldu. Ulu Öndərin yüksək liderlik keyfiyyətlərini isə o dövrdə Mixail Qorbaçov kimi əli Azərbaycan xalqının qanına batmış adamlar həzm edə bilmirdilər. Lakin Heydər Əliyev böyük şəxsiyyət idi və vəzifələrindən istefa verdikdən sonra hər şeyə yenidən başladı. Vaxtilə çörəyə çatdıraraq vəzifəyə gətirdikləri ona öz əli ilə tikib-qurduğu Bakıda yaşamağa imkan vermədilər. Doğma Naxçıvana üz tutdu. Qədirbilən xalq öz sevimli və sınanmış oğlunu ağuşuna aldı, taleyini yenidən ona etibar etdi. Heydər Əliyev ən çətin günlərdə xalqla birlikdə olaraq bu qədim diyarı böhranlı günlərdə, ağır blokada şəraitində yaşatdı, düşmən təcavüzündən qorudu. Ağıldankəm, qətiyyətsiz və səriştəsiz başçıların ucbatından Azərbaycan bir dövlət kimi məhvolma, parçalanma həddinə çatdırıldıqda isə xalqın çağırışına biganə qalmayaraq yenidən ölkə rəhbərliyinə qayıtdı, gərgin zəhməti, müdrik və uzaqgörən siyasəti, cəsarətli və qeyri-adi addımları nəticəsində ölkəni fəlakət və məhvolmadan xilas etdi, müstəqilliyimizi əbədiliyə çevirdi.

Heydər Əliyev sözün həqiqi mənasında universal zəka sahibi idi. Onun incəliyinə qədər bilmədiyi məsələ, dərinliyinə qədər nüfuz etmədiyi sahə, öhdəsindən gəlmədiyi problem yox idi. Cənab Heydər Əliyev eyni vaxtda bir neçə istiqamətdə fəaliyyət göstərməyi, gündəlik cari işləri ölkə qarşısında duran böyük vəzifələrlə əlaqələndirməyi, ən ümidsiz vəziyyətlərdən belə düzgün çıxış yolu tapmağı, son dərəcə səmərəli və məhsuldar işləməyi bacarırdı. Bu gün Azərbaycanın elə bir kənd və qəsəbəsi yoxdur ki, orada Heydər Əliyevin yadigarı qalmasın. Çünki qurub-yaratmaq cənab Heydər Əliyevin başlıca məşğuliyyəti, həyatının mənası idi.

Hələ 1969-cu ildə Heydər Əliyev birinci dəfə Azərbaycana rəhbər seçiləndə ölkə bərbad vəziyyətdə idi. Uzun illər boyu bütün sahələrə sirayət etmiş geriliklər xalqın güzəranına da mənfi təsir göstərmişdi. Qarşıya qoyulan vəzifələrin öhdəsindən gələ bilməyən respublika gözdən düşdüyündən mərkəzdən və ittifaq büdcəsindən faydalana bilmirdi. Bitib-tükənməz enerjisi, qeyri-adi təşkilatçılıq bacarığı və rəhbərlik məharəti ilə fəaliyyətə başlayan Heydər Əliyev qısa müddətdə Azərbaycanı tikinti və quruculuq meydanına çevirdi, iqtisadi yüksəliş yoluna çıxardı. Şəxsi nüfuzu və inadkarlığı sayəsində ittifaq büdcəsindən respublikamıza xeyli vəsait yönəldilməsinə nail oldu. Yorulmaq və dincəlmək bilmədən çalışan, ölkəni kəndbəkənd, şəhərbəşəhər gəzərək yeni obyektlərin bünövrəsini qoyan, fabrik, zavod, istehsal müəssisələri tikdirən, yollar çəkdirib körpülər, yeni qəsəbələr və yaşayış massivləri saldıran Heydər Əliyev Azərbaycanın simasını büsbütün dəyişdi. Bu dəyişiklik və yeniləşmə təkcə respublika həyatını və iqtisadiyyatı deyil, xalqın yaşayışını, elmi, mədəni səviyyəsini də əhatə edirdi. Yetmişinci illər ərzində Azərbaycan kəndi alçaq və palçıq komalardan qurtularaq yeni sima kəsb etdi. Ağ mişar daşından tikilmiş ikimərtəbəli evlər hamı üçün əlçatan oldu.

O cümlədən Bakı başda olmaqla, bütün şəhərlər yeni inkişaf dövrünə qədəm qoydu, hər biri böyüdü, yeni mikrorayonlar, yeni ünvanlar salındı. Sumqayıt da diqqətdən kənarda qalmadı. 1969-cu ildə Heydər Əliyev respublikanın birinci şəxsi təyin olunduqdan sonra bu qədim şəhərin "ömrünün" ikinci dövrü başlandı. Bu gün Sumqayıtın bir çox ünvanlarının yaradılması məhz Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndərin sayəsində Sumqayıtda yeni sənaye müəssisələri yaradıldı, şəhərin şöhrəti bütün keçmiş ittifaqa yayıldı.

Xalqımızın böyük oğlu Azərbaycanın nə vaxtsa müstəqil dövlət kimi yaşayacağını irəlicədən görürdü. Bu niyyəti gerçəkləşdirməkdən ötrü respublikada yeni ali məktəblər açdırır, institutlardakı ixtisasların və tələbə qəbulunun sayını ilbəil artırırdı. Hərbçi zabit kadrlarının hazırlığını gücləndirmək üçün C.Naxçıvanski adına Liseyin yaradılmasına və Bakıda fəaliyyət göstərən Ümumittifaq ali hərbi məktəblərinə azərbaycanlıların qəbulunun artırılmasına nail oldu. Yoxsul və imkansız ailələrdən çıxmış minlərlə gənc Heydər Əliyevin yaratdığı imkanlar hesabına ali təhsil alaraq həyatda özünə müvafiq mövqe tuta bildi.

Ulu Öndər Heydər Əliyev SSRİ-nin rəhbərlərindən biri kimi Moskvada fəaliyyət göstərəndə də Azərbaycanı yenidən tikib qurmuşdu. Həm də bu quruculuq təkcə maddi sahəni əhatə etmirdi. Azərbaycan elmi, mədəniyyəti, incəsənəti, ədəbiyyatı sürətlə inkişaf edir, xalqın mənəviyyatı yüksəlir, dünya miqyasında tanınan bir çox sənətkarlar yetişir, mükafatlandırılırdı.

Azərbaycanın müstəqilliyi və dövlətçiliyi təhlükə qarşısında qalanda xalqın çağırışına biganə qala bilmədi. Yenidən ölkə rəhbərliyinə qayıdaraq həyatının qalan hissəsini də xalqına həsr etdi. Qəlbi hər zaman Azərbaycanla döyünən Heydər Əliyev öz tarixi missiyasının davamı olaraq Azərbaycanın müstəqilliyinin sarsılmaz bünövrəsini yaratdı, dövlətçiliyimizin möhtəşəm sütunlarını ucaltdı. Ulu Öndər Azərbaycanı qorudu, mərhələ-mərhələ yüksəltdi, dünya birliyinin nüfuzlu üzvünə çevirdi. Müstəqilliyimizi qəbul etmək istəməyən anti-azərbaycançı şəbəkələrin planlarının qarşısının alınması, ölkəmizin xaos, qanunsuzluq və anarxiya bataqlığından çıxarılması, möhkəm və dönməz sabitliyin bərqərar edilməsi, "Əsrin müqaviləsi"nin imzalanması, milli neft strategiyasının hazırlanması, möhkəm və dönməz sabitliyin bərqərar edilməsi, ordu quruculuğu, yeni Konstitusiyanın hazırlanaraq referendum yolu ilə qəbul edilməsi, bazar iqtisadiyyatı münasibətlərinə keçid, özəlləşdirmə proqramlarının reallaşması tariximizə məhz Heydər Əliyev dühasının möhtəşəm nəticələri kimi həkk olunub.

Azərbaycanın müstəqilliyini və gələcək inkişafını, xalqın rifahını və ölkənin təhlükəsizliyini təmin edən siyasi kurs hazırlandı, özünün ən layiqli siyasi davamçısını yetişdirdi və bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə tarixinin ən qüdrətli dövrünü yaşayır. Azərbaycanın Heydər Əliyevin müəyyən etdiyi inkişaf yolu ilə gələcəyə doğru inamla addımlaması və Ulu Öndərin siyasi kursunun, ideyalarının davamlı olması ötən 19 ildə ölkəmizin tarixini ən möhtəşəm hadisələrlə zənginləşdirib. Bu illər ərzində Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz boru kəmərlərinin inşası uğurla başa çatdırılıb və erməni təəssübkeşlərinin yaratdığı problemlər qətiyyətlə dəf edilərək Azərbaycanın karbohidrogen ehtiyatları dünya bazarlarına çıxarılıb. Lakin İlham Əliyev dövlətimiz üçün əldə olunan uğurlarla kifayətlənməyən liderdir. Təsadüfi deyil ki, məhz dövlət başçısının qətiyyəti və müdrikliyi ilə sonrakı dövrdə Azərbaycan yeni enerji layihələrini də uğurla reallaşdırdı və artıq Xəzərdə hasil olunan təbii qaz Avropa bazarlarına ixrac olunur. Bu məsələdə ən əsas məqamlardan biri də odur ki, Avropa dövlətlərinin rəhbərləri Prezident İlham Əliyevə böyük hörmətlə yanaşır, göstərdiyi köməyə görə daim minnətdarlıqlarını bildirirlər. Çünki Avropanın təbii qaza tələbatının artdığı indiki dönəmdə məhz İlham Əliyevin qətiyyəti və uzaqgörənliyi sayəsində enerji böhranı ilə üzləşmirlər.

Bu illər ərzində qazandığımız ən mühüm uğurlarımızdan biri də bütün şəhər və rayonlarımızın inkişaf yoluna çıxarılmasıdır. Sənaye şəhəri kimi şöhrətini bərpa edən, respublikamızdakı quruculuğun ən gözəl ünvanlarından olan Sumqayıtın nümunəsində bunu, xüsusilə, yaxından görmək mümkündür.

Prezident İlham Əliyevin dövlətimiz və xalqımız qarşısında ən böyük tarixi missiyası isə 2020-ci ildə torpaqlarımızın işğaldan azad edilməsi oldu. Torpaqlarımızın azadlığına nail olmaqla Prezident İlham Əliyev həm də ata vəsiyyətini şərəflə yerinə yetirdi.

İndi növbədə Böyük qayıdış və Qarabağın cənnətə çevrilməsidir! Azad edilmiş torpaqlar bu gün sürətlə yenidən qurulur, onlara yeni həyat verilir və bütün bunlar bir daha dövlətimizin qüdrətinin, Prezident İlham Əliyevin qətiyyətinin təcəssümü kimi tariximizə həkk olunur. Heydər Əliyev siyasi kursunun ən layiqli davamçısı cənab İlham Əliyev bu missiyanın da qısa zamanda yerinə yetirilməsini qətiyyətlə təmin edəcək, müstəqil və qüdrətli Azərbaycanı Heydər Əliyevin arzu etdiyi bütün yüksəkliklərə ucaldacaq.



*Sumqayıtın 74 illik tarixində ilk intibahının Ümummilli Liderimiz Heydər Əliyevin adı ilə bağlı olduğunu deyən **Sumqayıt şəhər Ağsaqqallar Şurasının sədri Təbrik QULİYEV** bildirdi ki, Xəzərin ləpədöyənində, küləklərin cövlan etdiyi qumlu bir sahədə salınmış şəhərin qısa müddət ərzində şöhrətlənməsində, dünya xəritəsində özünə layiqli yer tutmasında bu böyük insanın tarixi xidmətləri vardır:*

- Ötən əsrin 70-ci illərində Azərbaycanın hər yerində olduğu kimi, Sumqayıtda da misli görünməmiş inkişaf başlamışdı. Şəhər başdan-başa nəhəng tikinti meydanını xatırladırdı. Bir tərəfdən yeni sənaye sahələri inkişaf etdirilir, digər tərəfdən yaşayış evləri tikilib istifadəyə verilirdi. Yeni mikrorayonlar salınırdı, məktəblər, uşaq bağçaları, xəstəxanalar inşa olunurdu.

1974-cü il noyabrın 27-də S.Vurğun adına Mədəniyyət Sarayında şəxsən mənim iştirak etdiyim Sumqayıta şəhər statusu verilməsinin 25 illiyi münasibətilə keçirilən tədbirdə Ümummilli Liderin şəhərimizə verdiyi yüksək qiymət hələ də yaddaşımdadır.



# Heydər Əliyev İli 2023

# qurucu lideri

Bu təntənəli mərasimdə nitq söyləyən Ulu Öndər Heydər Əliyev dedi: "Sumqayıtda ən mütərəqqi, ən perspektivli ağır sənaye sahələrinin müəssisələri yaradılmışdır və bunlar elmi-texniki tərəqqini daha da genişləndirmək üçün yaxşı bünövrədir. Sumqayıtın yaranması Azərbaycan iqtisadiyyatında yeni sənaye sahələrinin - qara və əlvan metallurgiyanın, kimya sənayesinin və başqa sənaye sahələrinin yaranıb inkişaf etməsi deməkdir".

Şəhərimizin iqtisadi potensialının əsasını təşkil edən, eləcə də vaxtilə Azərbaycanın milli iqtisadiyyatında özünəməxsus çəkisi olmuş sənaye sahələrinin Sovet İttifaqı dağıldıqdan sonra tam tənəzzül etməməsi, qorunub-saxlanılması da məhz görkəmli dövlət xadimi, Ulu Öndər Heydər Əliyevin birbaşa Sumqayıt şəhərinə qayğısı sayəsində mümkün olmuşdur.

Ulu Öndər Heydər Əliyev Sumqayıtın inkişafı üçün əlindən gələni əsirgəməyib. Xüsusilə, sənaye sahələrinin inkişafına, şəhərin ekoloji vəziyyətinin təmiz saxlanılmasına, kimya sənayesində tikiləcək yeni istehsalat sahələrinin tələbata tam şəkildə cavab verməsinə şəxsən nəzarət edib.

Yaxşı yadımdadır, kənd təsərrüfatında zərərverici həşəratların məhv olunmasında istifadə olunan məhsul istehsal edən "Lindan" deyilən bir sex SAM zavodunun ərazisində tikilməli idi. Bu təklif SSRİ Kimya Nazirliyi tərəfindən irəli sürülmüşdü. Heydər Əliyev bu məhsulun zəhərli olmasını və onun istehsalında çalışan fəhlələrin səhhətinə son dərəcə pis təsir edəcəyini öyrənən kimi onun tikintisinə qadağa qoydu.

Şəhərimizdə "Kimyaçı" mədəniyyət sarayının tikilməsi təşəbbüsü də Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. O, bunun üçün sovet rəhbərliyinin razılığını almışdı. O zaman bu həqiqətən də maliyyə tutumu baxımından böyük layihə idi. Hətta tikintinin dayandırılması barədə Moskva Plan Komitəsi qərar vermişdi. Lakin Heydər Əliyevin şəxsiyyətinə olan hörmətə görə onun tikintisinin davam etməsi üçün vəsait ayrılması təklifi qəbul edildi və tikinti başa çatdırıldı.

Ulu Öndər Heydər Əliyev o illərdə Sumqayıt haqqında demişdi ki, bu şəhərdə yaşayan, işləyən insanlar son dərəcə zəhmətkeş insanlardır. Sumqayıtın inkişafına xüsusi diqqət ayırmaq lazımdır və belə də oldu. Sumqayıt sənaye şəhəri kimi yüksək templə inkişaf etməyə başladı.

Ümummilli Lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi illər ərzində 16 dəfə Sumqayıta gəlib, hər dəfə də Sumqayıtın inkişafı üçün xüsusi göstərişlər verib. Sumqayıtın inkişafındakı xidmətlərinə görə şəhərimizin sakinləri Heydər Əliyevə daim minnətdardırlar.

Bütün sahələrdə Heydər Əliyev kursunu layiqincə davam etdirən Prezident İlham Əliyev də Sumqayıtın inkişafına xüsusi diqqət ayırır. İndiyədək Prezident kimi 31 dəfə Sumqayıta səfər edən cənab İlham Əliyev hər gəlişində şəhərimizin inkişafına yeni töhfə verir.

Ulu Öndər həm də Sumqayıtda Dənizkənarı parkın genişləndirilib və abadlaşdırılaraq bulvara çevrilməsini arzulayırdı. Bir neçə il əvvəl cənab İlham Əliyevin tapşırığı və dəstəyi əsasında Ümummilli Lider Heydər Əliyevin bu arzusu da layiqincə reallaşdırıldı. Dənizkənarı parkda yüksəksəviyyəli bir bulvar salındı.

Son illərdə şəhərimizdə onlarla yeni möhtəşəm inzibati bina tikilib, yollarımız yenidən qurulub, binalar fasadlanıb, liftlər dəyişdirilib, şəhər təsərrüfatı inkişaf edib. Bu uğurların hər birinin müəllifi cənab İlham Əliyevdir. Bütün bunlara görə Ulu Öndər Heydər Əliyevin də ruhu rahatdır. Çünki Sumqayıt onun arzuladığı kimi inkişaf edir.

*"Şöhrət" ordenli Əməkdar müəllim* ***Ofelya BABAYEVA*** *bildirdi ki, mavi Xəzərin sahilində yerləşən 74 yaşı olan Sumqayıt əsrlərə bərabər inkişaf yolu keçib. Şəhər adı veriləndə cəmi 16 min nəfər sakini olan Sumqayıt indi yarım milyona yaxın insanın rahat yaşa-*



*dığı, inkişaf etmiş unikal yaşayış məskənidir.*

- Sumqayıt yüksəliş yolu ilə irəliləyən, böyük uğurlara imza atan Azərbaycanın sürətlə inkişaf edən gözəl nümunəsi kimi diqqəti çəkir. Sumqayıtlılar bu il anadan olmasının 100 illiyini qeyd edəcəyimiz Ulu Öndər Heydər Əliyevin, sevimli Prezidentimiz, 44 günlük Vətən müharibəsində zəfərimizin baş müəllifi olan Ali Baş Komandanımız İlham Əliyevin diqqət və qayğısını həmişə hiss etmişlər.

Yeni salınan Dənizkənarı bulvar, Muğam mərkəzi, Şahmat məktəbi, Yeni Azərbaycan Partiyasının inzibati binası, ölkənin ən böyük və möhtəşəm Heydər Əliyev mərkəzi, məktəblər, xəstəxanalar, stadionlar, bütün binaların dəyişdirilmiş yeni liftləri, lift mərkəzi, milyonlarla gül-çiçək, doğma şəhərə sadaladığım və sadalamadığım qayğının parlaq təzahürüdür.

Vətən uğrunda canından keçən igidlərimizin uyuduğu, müqəddəs and yerimiz olan Şəhidlər xiyabanının yenidən qurulması, xiyabanı ilk olaraq Prezident İlham Əliyevin ziyarət etməsi, abidənin önünə əklil qoyması qəlbimizdə kövrək hisslərlə yanaşı, iftixar doğurdu.

Sumqayıtın bugünkü quruculuğunda Heydər Əliyev Fondunun da böyük xidmətləri var. 2004-cü il 10 may tarixdə - Heydər Əliyevin doğum günündə yaradılmış Heydər Əliyev Fondunun məqsədi milli-mənəvi dəyərlərin qorunması və Azərbaycan mədəniyyətinin geniş təbliğ olunması, elm, təhsil, mədəniyyət, səhiyyə və idmanın inkişafına yönəlmiş layihələri dəstəkləmək, ölkənin beynəlxalq nüfuzunun artırılması ilə bağlı tədbirlərin reallaşdırılmasıdır.

Biz bu fəaliyyəti şəhərimizin timsalında aydın görürük. 12-ci mikrorayon ərazisində salınan köçkün şəhərciyi, neçə-neçə məktəbin, xəstəxananın, reabilitasiya mərkəzinin, uşaq inkişaf mərkəzlərinin, bağçaların təmiri dediyimizə sübutdur.

Ötən ay qardaş Türkiyədə baş verən dəhşətli zəlzələnin fəsadlarının aradan qaldırılmasında Heydər Əliyev Fondunun müstəsna xidmətlərini qeyd etməyə bilmərəm.

Bu fəlakətdən sarsılan hər birimizi səfərbər olmağa səsləyən, tapşırıqları və tövsiyələri ilə bizi yardıma səsləyən Prezident İlham Əliyevin, Mehriban Əliyevanın qətiyyətli, dərhal qardaşlarımıza köməyə tələsən Azərbaycan vətəndaşlarının, ölkə rəhbərliyinin kritik anlarda qərar vermə bacarığı bütün dünya mətbuatının manşetinə çevrildi. Qürurla qeyd etməliyik ki, Sumqayıt şəhəri də qardaş Türkiyədə baş verən zəlzələdən zərər görənlərə yardımlarını əsirgəmədi. Onlarla modul tipli evlər, ərzaq, geyim, yataq ləvazimatı, dərman, sarğı materialları "Kimyaçı" mədəniyyət sarayına toplanaraq Türkiyəyə yola salındı. Yardımlar hələ də davam etməkdədir.

Azərbaycanın gözəl bir parçası olan Sumqayıtın parlaq gələcəyi bizi sevindirir. Çünki bu şəhər ölkənin ən gözəl guşələrindən biridir. Dünyanın müxtəlif ölkələrində adı hörmətlə çəkilən bu şəhərlə qürur duyuruq. Biz əzəmətli Azərbaycan qurmuş Heydər Əliyevin ideyalarının, İlham Əliyevin inkişaf siyasətinin təcəssümü olan bir şəhərin sakinləriyik.

*Çıxışına Ulu Öndər Heydər Əliyevin "Bizim bugünkü gəncliyimiz sağlam düşüncəli gənclikdir, xalqını, millətini sevən gənclikdir" sözləri ilə başlayan* ***"ASAN xidmət" mərkəzinin baş mütəxəssisi, gənc fəal Fəridə QAFAROVA*** *bildirdi ki, 2023-cü ilin "Heydər Əliyev İli" elan olunması Ulu Öndərin şəxsiyyətinə, tarixi xidmətlərinə verilən qiymətdir. Bu qərar bir daha*



*dahi şəxsiyyətin fəaliyyətinin ayrı-ayrı istiqamətlərinin dərindən araşdırılmasına, zəngin irsinin əhatəli təbliğinə imkan yaradır:*

- Müasir Azərbaycanın qurucusu, ölkəmizin müstəqilliyi və inkişafı naminə böyük və əvəzedilməz işlər görmüş, bununla bağlı tarixi proseslərə təsir göstərmiş Ulu Öndər Heydər Əliyev hər zaman fəxr edəcəyimiz, qürur hissi ilə xatırlayacağımız dahi şəxsiyyətdir. Heydər Əliyevin əbədiyyətə qovuşmasından illər ötsə də, onun əziz xatirəsi Azərbaycan xalqının qəlbində silinməz iz buraxmışdır.

Ölkəmizin bugünkü uğurları yaxın keçmişə dolğun və obyektiv qiymət vermək imkanı yaradır. Azərbaycanın 20-ci əsr tarixinin böyük hissəsi Heydər Əliyev şəxsiyyəti və onun böyük quruculuq dövrü ilə bağlıdır. Hər bir xalqın taleyində mühüm əhəmiyyət kəsb edən elə məqamlar var ki, həmin günlərdə onun gələcək müqəddəratını müəyyən edən mühüm başlanğıcların əsası qoyulmuşdur.

Azərbaycan tarixində həmin başlanğıcın əsası xalqın təkidi ilə Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı ilə qoyuldu. Xaos və hərc-mərcliyin hökm sürdüyü dövrdə Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə ölkədəki özbaşınalığa son qoyuldu və ölkə tarixində yeni mərhələ başlandı.

Tarixə nəzər salsaq görərik ki, Heydər Əliyev siyasətinin əsas istiqamətlərindən birini məhz gənclər siyasəti təşkil edirdi. Heç kəsə sirr deyil ki, bir millətin yaşaması, inkişafı üçün sağlam gəncliyinin olması vacib şərtdir. Çünki hər bir ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı intellektual səviyyəli, potensial kadrların yetişdirilməsindən, onların aparıcı qüvvəyə çevrilməsindən çox asılıdır. Bu baxımdan ölkəmizdə gənclərlə iş sahəsində görülən tədbirlər Azərbaycan gəncliyinin inkişafına təkan vermiş, onların cəmiyyətdə özlərini təsdiq etməsində mühüm rol oynamışdır. Ulu Öndər daim gənclərə qayğı göstərmiş, onların bir fərd kimi yetişməsinə xüsusi önəm vermişdir. Respublika rəhbərliyinə gəldiyi ilk dövrlərdə Heydər Əliyev gənclərin himayədarı kimi çıxış edərək sağlam düşüncəli yeni nəslin yetişdirilməsi sahəsində misilsiz işlər görmüşdür. Hakimiyyətinin ilk günlərindən başlayaraq gənclər siyasəti ilə bağlı bir çox fərman və sərəncamlar imzalayan Ulu Öndər onların milli və vətənpərvər ruhda tərbiyəsinə həmişə önəm vermişdir.

Ötən əsrin 90-cı illərinin əvvəllərində dünyada, o cümlədən Azərbaycanda baş verən ictimai-siyasi hadisələr dəyişdikcə, gənclər qarşısında duran problemlər və onların həll yolları da dəyişməyə başladı. Bütün bunları gözəl bilən Ümummilli Lider Heydər Əliyev gənc nəslin mütəşəkkil formada yetişdirilməsi üçün 1994-cü ildə Gənclər və İdman Nazirliyini yaratdı.

Gənclər və İdman Nazirliyi yaradıldıqdan sonra dövlət gənclər siyasəti sahəsində mühüm işlər görülməyə başlandı. Nazirliyin yerli strukturları formalaşdı, gənc nəslin mənəvi tərbiyəsi və fiziki inkişafı, hüquqlarının müdafiəsi, onların beynəlxalq qurumlarda iştirakı və gənclər təşkilatlarının fəaliyyətinin əlaqələndirilməsi sahəsində lazımi tədbirlər görüldü, bir sıra dövlət proqramları hazırlandı. Gənclərin forumunun keçirilməsi və 1997-ci ildə 2 fevral tarixinin Gənclər Günü elan olunması gəncliyin inkişafına təkan verən qərarlardan oldu.

Bu gün Azərbaycanda Ulu Öndər Heydər Əliyevin banisi olduğu və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən dövlət gənclər siyasəti özünün keyfiyyətcə yeni mərhələsinə qədəm qoyub. Son illər ölkəmiz beynəlxalq tədbirlərin məkanına, qlobal layihələrin təşəbbüskarına çevrilib. Həyata keçirilən genişmiqyaslı proqramlar ölkəmizin beynəlxalq aləmdə nüfuzunu daha da artırır. Hal-hazırda ölkəmizdə yüzlərlə gənclər təşkilatları fəaliyyət göstərir ki, bu təşkilatlara qoşulan gənclər bilik və bacarıqlarını artıraraq özlərini inkişaf etdirir və respublikamızın inkişafına öz töhfəsini verir.

Sevindirici haldır ki, bu istiqamətdə görülən işlərdə Sumqayıt şəhəri xüsusilə fərqlənir. Şəhərimizdə fəaliyyət göstərən təşkilatlarda birləşən gənclər Prezident İlham Əliyevin yürütdüyü gənclər siyasətinə dəstək nümayiş etdirir. Təbii ki, bunun üçün şəhərimizdə gənclərə yaradılan şəraitin xüsusi rolu var. Son dövrlərdə Sumqayıt şəhərində gənclərin asudə vaxtlarının səmərəli keçirilməsi məqsədilə inşa və əsaslı təmir edilmiş mərkəzlər çoxluq təşkil edir. Sumqayıt şəhərində inşa edilmiş Heydər Əliyev Mərkəzi, Yeni Azərbaycan Partiyasının Sumqayıt şəhər təşkilatının inzibati binası, Şahmat məktəbi, Muğam mərkəzi və digər binalar məhz gənclər siyasətinin inkişafı baxımından olduqca əlverişlidir.

Həm Ümummilli Lider Heydər Əliyevin, həm də Prezident İlham Əliyevin gənclər siyasətinin mərkəzində bir əsas xətt dayanır ki, bu da Azərbaycan gənclərinin Vətənə sədaqət ruhunda tərbiyə edilməsidir. Vətən müharibəsindən sonra gördük ki, vətənpərvər gənclərimizin torpaqlarımızın işğaldan azad olunması üçün göstərdiyi şücaətin kökündə məhz azərbaycançılıq ideologiyası, vətənə, yurda sədaqət, torpağa bağlılıq amilləri dayanır.

*Bu gün Azərbaycanın bütün bölgələri, şəhər və kəndləri, qəsəbələri kimi Sumqayıt da yeni inkişaf dövrünü yaşayır. Dövlətimiz tərəfindən inkişafa və quruculuğa verilən töhfələr Sumqayıtın inkişafında da müstəsna əhəmiyyət daşıyır. Bu barədə danışan* ***Etilen-polietilen zavodunun direktoru Oktay NİFTƏLİYEV*** *dedi ki, Azərbaycanın, eləcə də Cənubi Qafqazın mühüm sənaye mərkəzlərindən biri kimi tanınan Sumqayıtın inkişafı Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır:*

- Şəhərin sosial-iqtisadi, o cümlədən elminin, təhsilinin, mədəniyyətinin inkişafına Ulu Öndər Heydər Əliyev böyük töhfələr vermişdir. Ümummilli Liderin bu sənaye şəhərinə hər səfəri Sumqayıtın tarixində önəmli rol oynamışdır. Məhz Ulu Öndərin 70-ci illərdə ölkəyə rəhbərlik etdiyi dövrlərdə Sumqayıtda bir çox kimya müəs-



sisələrinin əsası qoyulmuşdur. Bunlardan biri də EP-300 müəssisəsidir. Bu qurğunun bazası üzərində yaradılmış Etilen-Polietilen Zavodu SOCAR-ın flaqmanı olan müəssisədir.

Qeyd edim ki, "EP-300" qurğusunun inşasına 1981-ci ildə başlanılmışdı. O dövrdə bu istehsalat kompleksinin əhəmiyyətini və perspektivini düzgün qiymətləndirən Ulu Öndər Heydər Əliyevin qətiyyəti və prinsipiallığı sayəsində qurğunun Sumqayıtda tikintisinə nail olundu.

Ulu Öndər Heydər Əliyev 1998-ci ildə Yaponiyaya səfəri zamanı müstəqil Azərbaycanın tarixində ilk dəfə buxar-generator kompleksinin alınmasına nail oldu ki, bu da ölkənin neft-kimya sənayesinin inkişafı tarixinə dahi rəhbərin ən böyük xidmətlərindən biri kimi yazıldı. Ümummilli Lider 1999-cu ildə bu kompleksin təməlqoyma mərasimində, 2001-ci ildə isə açılışında iştirak edib. Bu kompleks nəinki kimya sənayesini tənəzzüldən xilas etdi, hətta "Azərikimya"nın bu günü üçün etibarlı enerji təminatının yaradılmasında mühüm vasitə oldu.

Sovetlər birliyinin dağılmasından sonra kimya müəssisələrinin vəziyyəti sumqayıtlılara məlumdur. Uzun müddət istismarı dayandırılmış və ya köhnə texnologiyalarla işini davam edən bu müəssisələr şəhərin ekologiyasına mənfi təsir göstərirdi. Məhz Prezident İlham Əliyevin tapşırığı ilə belə müəssisələrin fəaliyyəti dayandırıldı. Qısa zaman müddətində fiziki köhnəlmiş həmin müəssisələr söküldü, torpaq sahələri təmizləndi. Bu gün isə həmin sahələrdə müasir standartlara, ən son texnologiyalara malik zavodlar, texnoparklar fəaliyyət göstərir.

"Azərikimya" İstehsalat Birliyinin Etilen-Polietilen Zavodu ölkəni polimer materiallarının istehsalında lazım olan əsas xammalla tam təmin edən müəssisədir. Zavodun əsas xammalı Bakı Neft Emalı Zavodundan alınan ilkin emal benzini və maye qazlarıdır. Ölkə iqtisadiyyatına verdiyi töhfələri nəzərə alaraq məhsuldarlığın yüksəldilməsi, avadanlıqların yenilənməsi, effektivliyinin artırılması məqsədilə müəssisədə yeni istehsal qurğularının tikintisi üçün 2017-2020-ci illərdə böyük layihə işləri yerinə yetirildi. Bu məqsədlə layihə üçün 508 milyon avro (1 mlrd. manat) investiya qoyuldu. Müəssisə pnevmatik idarəetmədən avtomatik idarəetməyə keçirildi. Hazırda müəssisədə gündəlik olaraq 2200 ton benzin və maye qazlar piroliz olunur. Bu pirolizdən alınan 1100-1200 ton etilen və propilen, həmçinin izopropil spirti daxili tələbatı tam ödəməklə yanaşı, polimerlərin və polietilen məmulatlarının istehsalı üçün Sumqayıtın digər müəssisələrinə verilir və dünya bazarına çıxarılır. Daxili bazarda ən böyük alıcımız "SOCAR Polimer" müəssisəsidir. Gündəlik olaraq Etilen-Polietilen Zavodu bu müəssisəni 250 ton etilen və 550 ton propilenlə, həmçinin hidrogen, buxar, dövrü su ilə təmin edir.

EP zavodunun ölkə iqtisadiyyatında rolunu dövlət başçısı cənab İlham Əliyev yüksək qiymətləndirmişdir. 2015-ci il oktyabrın 25-də cənab Prezidentin müəssisəmizə gəlişi biz kimyaçıların yaddaşında həmişəlik qalacaqdır. Dövlət başçısının müəssisə əməkçilərinin qarşısında çıxışı bizlər üçün həm ruh yüksəkliyi yaratmış, həm də yeni nailiyyətlərin qazanılmasına stimul vermişdir.

Sumqayıtın bugünkü şan-şöhrəti onu "Sabahın şəhəri" adlandıran Ulu Öndər Heydər Əliyevin və möhtərəm Prezident İlham Əliyevin diqqət və qayğısı nəticəsində mümkün olmuşdur. Və biz sumqayıtlılar bu qayğını daim hiss edirik.

*"Ulu Öndər hakimiyyətdə olduğu bütün dövrlərdə Sumqayıt şəhərinə xüsusi diqqət və qayğı göstərmişdir. Sovet dövründə Heydər Əliyev həm müxtəlif istehsalat sahələrinin geniş inkişafını təmin etmiş, eyni zamanda keçmiş ittifaq rəhbərliyinin Sumqayıtı yalnız istehsalat poliqonu kimi görmək fikirlərinə qarşı cəsarətlə çıxmış və şəhərimizdə sosial, mədəni obyektlərin geniş tikin-*



*tisinə dəstək olmuşdur". Bu barədə danışan* ***Sumqayıt Şəhər İcra Hakimiyyəti yanında İctimai Şuranın sədri Hümbət QULİYEV*** *bildirdi ki, Sumqayıtda zavod və fabriklərlə yanaşı Mədəniyyət mərkəzlərinin, məktəblərin, uşaq bağçalarının, idman qurğularının yaradılmasını şəxsən himayə etmişdir.*

- Hakimiyyətə ikinci gəlişində də Ulu Öndər Sumqayıtın inkişafına kompleks yanaşma prinsipinə sadiq qalmışdır. Bu cəhətdən çox simvolikdir ki, 1993-cü il dekabrın 18-də müstəqil Azərbaycan Respublikasının Prezidenti kimi Sumqayıta ilk səfərində Ulu Öndər yeni quraşdırılmış Telefon Stansiyasının açılışını etmişdir.

Eyni zamanda Ulu Öndərin Sumqayıtın sənaye potensialının bərpası istiqamətində atdığı addımlar artıq uzun müddətdir ki, öz bəhrəsini verməyə başlamışdır. Heydər Əliyevin fikri belə idi: Sumqayıt yenidən sənaye mərkəzinə çevrilsin, mövcud və yeni kadr potensialına söykənərək burada müasir, həmçinin ekoloji tələblərə cavab verən sənaye parkları yaradılsın. Bu işlə paralel Heydər Əliyev Sumqayıtın insanların rahat yaşayacağı gözəl şəhərə çevrilməsini ümdə vəzifə olaraq önə çəkmişdi. Bunun üçün Ulu Öndər şəhərin müasir infrastrukturunun yenidən qurulmasını vacib məsələ kimi qarşıya qoymuşdu.

Xalqımızın Ümummilli Liderinin bu arzusunu onun siyasi varisi İlham Əliyev qətiyyətlə həyata keçirir. Bu gün Sumqayıt bütün göstəriciləri ilə yanaşı, öz abadlığı ilə də nümunəyə çevrilib. Son illərdə şəhərimizin yeni ünvanları artıb, çoxlu sayda inzibati və yaşayış binası tikilib, yeni bulvar salınıb. Sumqayıtlılar məmnundurlar ki, şəhərimizin siması gözəlləşib və o, rahat yaşayış məskəninə çevrilib.

Fəxr hissi ilə əlavə edə bilərəm ki, dövlət proqramları çərçivəsində həyata keçirilən tədbirlərin nəticəsi olaraq ölkənin makroiqtisadi göstəricilərində Sumqayıtın xüsusi çəkisi yüksəlib. Eyni zamanda şəhər infrastrukturunun yenilənməsi istiqamətində çox əhəmiyyətli işlər görülüb. Məmnunluq hissi ilə vurğulayıram ki, Sumqayıt nəinki Azərbaycanın, hətta Qafqazın ən böyük sənaye mərkəzinə çevrilib.

Sumqayıt müasir, mütərəqqi layihələrlə yenidən qurulur. Qürurla hər birimiz deyə bilərik ki, bugünkü Sumqayıtda elm, təhsil, səhiyyə, mədəniyyət, idman sahələri uğurla inkişaf edir və şəhərimiz Ulu Öndərin arzuladığı məkana çevrilib.

Şəhərimizə indiyə kimi çox adlar verilib: inşaatçılar, metallurqlar, kimyaçılar, gənclər və sairə. Sumqayıt həm də ziyalılar, yaradıcı və yüksək intellektli insanlar şəhəridir. Bütövlükdə isə Sumqayıt Azərbaycanın yüksəlişinin mükəmməl təcəssümüdür.

*Konfransa yekun vuran* ***Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir FƏRƏCOV*** *dedi ki, çıxışlarda Ulu Öndər Heydər Əliyevin Sumqayıtın inkişafındakı yeri və rolu, Prezident İlham Əliyevin inkişaf siyasətinin Sumqayıta verdiyi töhfələr ətrafında əsas məqamlardan söz açıldı:*

- Belə konfransların keçirilməsi, ilk növbədə, bizim hər birimizin Heydər Əliyevin əziz xatirəsinə olan dərin ehtiramımızın göstəricisidir. Ulu Öndərin ideyaları, siyasi irsi dünən Azərbaycana layiqincə xidmət etmiş, bu gün Azərbaycanın inkişafını təmin edir və gələcəkdə də Azərbaycanın yüksəlişinə yol açacaq. Belə tədbirlərin keçirilməsi eyni zamanda Heydər Əliyevin irsinin, ideyalarının təbliği, gələcək nəsillərə çatdırılması nöqteyi-nəzərdən mühüm əhəmiyyət kəsb edir. Məmnunluqla qeyd etmək istərdim ki, biz bu səpkili tədbirləri mütəmadi olaraq keçiririk.

Geridə qoyduğumuz 2022-ci il kimi 2023-cü il də Azərbaycanın tarixində növbəti uğurlu mərhələ olacaq. Möhtərəm Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə bu il ərzində də hər bir sahədə yeni inkişaf göstəricilərinin, daha möhtəşəm yüksəliş nümunələrinin şahidi olacağıq. O cümlədən 2023-cü il işğaldan azad olunmuş ərazilərimizin bərpası və keçmiş məcburi köçkünlərin doğma yurdlarına dönüşü istiqamətində də növbəti tarixi dövr kimi tarixə düşəcək.

Sumqayıtın inkişafı və quruculuğu davamlı və sürətlidir. Əminliklə qeyd etmək istəyirəm ki, "Heydər Əliyev İli"ndə növbəti möhtəşəm uğurlara imza atacağıq. Bu həm də bizim "Heydər Əliyev İli"nə layiqli töhfəmiz olacaq. Sumqayıtlılar hər zaman Heydər Əliyev ideyalarına sadiq olacaqlar. Əminliklə qeyd etmək istəyirəm ki, Sumqayıtda dövlət başçısının qarşıya qoyduğu bütün vəzifələr layiqincə yerinə yetiriləcək, şəhər ictimaiyyəti bu işə özünün böyük töhfələrini verəcək. Mən bu sahədə hər birinizə uğurlar arzu edirəm.

Qarşıdan Novruz bayramı gəlir, bu münasibətlə sizi təbrik edirəm.

Bununla da "Heydər Əliyev İli" çərçivəsində Milli Məclisin orqanı olan "Azərbaycan" qəzeti ilə birgə keçirdiyimiz konfrans başa çatır. Hər birinizə təşəkkür edirəm, sağ olun.

**"AZƏRBAYCAN"**

# X Qlobal Bakı Forumu

# X Qlobal Bakı Forumunun ikinci günündə dörd panel iclasında müzakirələr aparılıb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçirilən "Dünya bu gün: Çağırışlar və ümidlər" mövzusunda X Qlobal Bakı Forumunun ikinci günündə - martın 10-da dörd panel iclasında müzakirələr aparılıb.

AZƏRTAC xəbər verir ki, Bolqarıstanın sabiq Prezidenti **Rosen Plevneliyevin** moderatorluğu ilə keçirilən günün ilk panel iclası "Yeni qlobal səhiyyənin qurulması strukturu: sağlamlığın təbliği, təmin edilməsi, mühafizəsi, gücləndirilməsi və bu istiqamətdə fəaliyyət" mövzusuna həsr olunub.







İclasa videoçarx vasitəsilə qoşulan Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Baş direktoru Tedros Adhanom Gebreyesus koronavirus pandemiyasından sonra həyatın bərpa mərhələsində olduğunu deyib: "Son dövrlərdə ÜST-ün əsas məqsədi gələcək pandemiyalara qarşı daha da hazırlıqlı olmaqdır. COVID-19 bir daha göstərdi ki, sağlamlıq hər şeydən daha vacibdir. Biz bütün ölkələri təşviqi, təminatı, qorunmanı, səlahiyyətlənməni və icra (5P) planını nəzərə almağa çağırırıq. Səhiyyə sisteminin səviyyəsini artırmaq üçün ölkələr təchizatla təmin olunmalıdır".

Eyni zamanda ilkin tibbi yardımın vacibliyini vurğulayan Tedros Adhanom Gebreyesus diqqətə çatdırıb: "İlkin tibbi yardımın düzgün aparılması bir çox məsələdə həyatları xilas edə bilər. ÜST-ün ölkələr üçün koronavirusla bağlı 300-dən çox tövsiyəsi oldu və bu tövsiyələrin nəticəsində bu sahədə irəliləyişlər müşahidə edildi. Həmin dövrdə pandemiya üçün beynəlxalq səviyyədə fond yaradıldı. ÜST sağlamlıq naminə dövlətlərə kömək etməyə davam edəcək. Bu il ÜST-ün yaradılmasının 75-ci ildönümüdür. 75 il əvvəl dövlətlər belə bir birgə qərar qəbul ediblər ki, sağlamlıq bütün insanların hüququdur".

BMT-nin İnsanın İmmunçatışmazlığı Virusu/Qazanılmış İmmun Çatışmazlığı Sindromu üzrə Birgə Proqramının (UNAIDS) icraçı direktoru **Vinni Byanyima** koronavirus pandemiyası zamanı vaksinlərin bölüşdürülməsi prosesindən danışıb. Deyib ki, pandemiyanın elan olunduğu dövrdən bəri COVID-19 ilə bağlı bəzi şirkətlər milyardlarla gəlir əldə ediblər. Bu, qarşısı alına bilən xəstəlikdir, lakin vaksinlərin kasıb ölkələrə düzgün paylanılmaması səbəbindən bir çox insan həyatını itirdi. Vaksinlər kütləvi məhsullar kimi satılmalıdır.

Liderləri strukturla bağlı problemləri həll etməyə çağıran Vinni Byanyima qeyd edib ki, pandemiya iqtisadi cəhətdən geri qalan ölkələrdə xaos yaradıb. "BMT-də bu məsələ ilə bağlı danışıqlar keçirilməlidir və biz gələcək pandemiyalara hazırlıqlı olmalıyıq. Əgər müəyyən planlar tərtib olunmazsa, daha çox insan həyatını itirə bilər", - deyə V.Byanyima bildirib.

Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin baş direktorunun müavini **Nacat Muxtar** çıxışında qeyd edib ki, COVID-19 pandemiyası dünyanı bir sıra məsələlərdə on il geri atıb. Hazırda dövrümüzün ən böyük bəlalarından birinin də xərçəng xəstəliyi olduğunu deyən N.Muxtar dünyanın bir sıra ölkələrinin bu xəstəliyin müalicəsi üçün lazımi avadanlıqlarının olmadığını diqqətə çatdırıb. O, dünyada xəstəliklərə qarşı birgə səylərin artırılmasının vacibliyini vurğulayıb.

Monteneqronun sabiq Prezidenti **Filip Vuyanoviç** diqqətə çatdırıb ki, COVID-19 dönəmində bir çox insan vəziyyətin ciddiliyini nəzərə almadığından pandemiyanın fəsadları ağır oldu. Bəzi kasıb ölkələrdə gözləniləndən daha çox insan həyatını itirdi. Sabiq Prezident Şərqi Avropada vəziyyətin daha ağır olduğunu deyib, insanların öz həyatları haqqında daha çox düşünmələrinin vacibliyini qeyd edib. Pandemiyanın xüsusilə gənclərin həyatına mənfi təsir göstərdiyini vurğulayan F.Vuyanoviç bunun işsizliyə də gətirib çıxardığını deyib.

Azərbaycanın səhiyyə naziri **Teymur Musayev** çıxışında COVID-19 pandemiyasından sonra yenilənmiş qlobal sağlamlıq arxitekturasının qurulmasının son dərəcə aktual məsələyə çevrildiyini bildirib: "Əminəm ki, qlobal sağlamlığın gələcəyinin formalaşdırılması ilə bağlı bugünkü panel müzakirələri bəşəriyyət üçün mümkün sağlamlıq təhdidlərinə qarşı birgə səylərimizin gücləndirilməsinə töhfə verəcək".

Nazir qeyd edib ki, qlobal sağlamlıq üçün riskləri azaltmaq və davamlı sağlamlıq sistemlərinə nail olmaq üçün həm beynəlxalq, həm də milli səviyyədə adekvat tədbirlər həyata keçirilməlidir. "Sağlamlığın təşviqi milli səviyyədə sağlamlıqla bağlı dayanıqlı inkişaf məqsədlərinə nail olmaq və daha güclü səhiyyə sistemlərini qurmaq üçün mərkəzi yer tutur. Qlobal miqyasda gözlənilən ömür uzunluğu artır, buna görə də sağlamlıq mütəxəssisləri bütün həyat boyu sağlamlığına üstünlük verməlidirlər", - deyən nazir vurğulayıb ki, fərdi həyat tərzi ilə səhiyyə xərcləri arasında əlaqə olduğu nəzərə alınaraq, vətəndaşlar sağlam həyat tərzi proqramlarında fəal iştiraka və hökumətlərlə sağlamlıq məsuliyyətini bölüşməyə təşviq edilməlidir. Fərdlərin davranış dəyişikliyi daha yaxşı sağlamlıq nəticələrinə nail olmaq üçün işləyə bilər.

Bosniya və Herseqovinanın sabiq Baş naziri **Zlatko Laqumciya** diqqətə çatdırıb ki, Avropada səhiyyə sahəsi daha yaxşı inkişaf edib. Lakin Avropa ölkələrində ölümlərlə bağlı vəziyyət Azərbaycanla müqayisədə daha pisdir.

Hadassa Tibb Mərkəzinin baş direktoru **Yoram Veys** koronavirus pandemiyasının ölkələrə və dünya iqtisadiyyatına çox mənfi təsir etdiyini bildirib. "Tibb sahəsində yeni tədqiqatların aparılması vacibdir. Bu tədqiqatların aparılması təhsillə bilavasitə əlaqəlidir. Hazırda Hadassa Tibb Mərkəzində müxtəlif araşdırmalar aparılır. Kök hüceyrələr, xərçənglə mübarizə üsulları və digər sahələrdəki tədqiqatlarda irəliləyişlər var", - deyə baş direktor vurğulayıb.

Böyük Britaniyanın 2007-2010-cu illərdə Baş naziri, BMT-nin Qlobal Təhsil üzrə xüsusi nümayəndəsi, ÜST-ün Qlobal Səhiyyənin Maliyyələşdirilməsi üzrə səfiri **Qordon Braun** videoçarx vasitəsilə müzakirələrə qoşularaq, dünya ölkələrinin əvvəlki səhvlərindən dərs çıxarmalı olduğunu vurğulayıb: "Böyük təəssüf hissi ilə deyirəm ki, bəzi ölkələrdə 4 nəfərdən yalnız biri vaksinasiya edilir. Rusiya-Ukrayna müharibəsindən sonra bir çox tibbi ləvazimatlarla bağlı çatışmazlıq müşahidə olunur. Müharibənin davam etdiyi bir vaxtda səhiyyə sahəsinin inkişafı çətinləşir. Səhiyyə sisteminə maliyyə dəstəyinin artacağını düşünürəm. Lakin bu, kifayət deyil. Aşağı gəlirli ölkələrə təhsil və səhiyyə sahəsində kömək göstərilməlidir. Dünyada xüsusilə infeksion xəstəliklərlə bağlı vəziyyət öyrənilməli və təhlil edilməlidir.

Qordon Braun iqlim dəyişikliyinə də toxunub, bunun səhiyyəyə də təsir göstərdiyini vurğulayıb.

* * *

Forumun "Miqrasiya qlobal yoxsulluğun, bərabərsizliyin, iqlim böhranının və münaqişələrin simptomu kimi" mövzusunda keçirilən beşinci panel iclasına İsveç İnkişaf Naminə Əməkdaşlıq Agentliyinin sabiq baş direktoru, BMT-nin İKT üzrə işçi qrupunun üzvü, UNESCO-nun Kommunikasiyanın İnkişafı üzrə Hökumətlərarası Şurasının sabiq sədri, "Globethics.net" platformasının prezidenti **Valter Fust** moderatorluq edib.

Valter Fust bildirib ki, dünyada milyonlarla insan yaxşı yaşayış və təhsil almaq üçün öz vətənini tərk edərək başqa ölkələrə üz tutur. Münaqişə və müharibələr, çətin yaşayış şəraiti, iqlim dəyişikliyi miqrantların sayının getdikcə artmasına səbəb olur. Moderator miqrasiya məsələsinin dünyanın qlobal problemlərindən birinə çevrilməsindən və bu problemin həllində inteqrasiyanın rolundan danışıb. Qərbi Avropaya köç edənlərin sayının daha çox olduğunu diqqətə çatdıran Valter Fust son illərdə 200 min miqrantın öz ölkəsinə qayıtdığını deyib.

Latviyanın sabiq Baş naziri **Laymdota Strauyuma** miqrasiya problemi ilə bağlı ölkəsinin təcrübəsindən bəhs edərək bildirib ki, 1990-cı ildən sonra Latviyanı 600 min insan tərk edib. O, buna səbəb kimi sovet dövründə insanların üzləşdikləri problemləri, iqtisadi çətinlikləri göstərib. Qeyd edib ki, ölkəsi miqrasiya problemini yalnız 2021-ci ildə balanslaşdıra bilib. Lakin Ukraynadakı müharibə ilə əlaqədar Latviyaya xeyli sayda qaçqın gəlib.

Moldovanın sabiq Baş naziri **Çiril Qaburiçi** çıxış edərək bir çox ölkənin miqrasiyadan ciddi zərər gördüyünü vurğulayıb. O, Moldova əhalisinin 30 faizinin başqa ölkələrə köç etdiyini bildirib: "Həmin miqrantların çoxu bizim ölkəyə töhfə verə biləcək insanlar idi. Moldova son illərdə milyondan artıq qaçqın qəbul edib".

Vurğulanıb ki, miqrasiya problemini həll etmək üçün, əvvəla, onu doğuran səbəblər araşdırılmalıdır. Sabiq Baş nazir miqrasiya probleminin həlli üçün qlobal layihənin hazırlanması təklifi ilə çıxış edib.

Miqrasiyanın mürəkkəb fenomen olduğunu diqqətə çatdıran Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisi **Vüsal Hüseynov** məsələyə optimist nöqteyi-nəzərdən yanaşmanın vacibliyini qeyd edib. Bildirib ki, Ermənistanın hərbi təcavüzü nəticəsində bir milyondan çox soydaşımız öz doğma yurdlarını tərk edib. Azərbaycan ərazi bütövlüyünü bərpa etdikdən sonra onların doğma torpaqlarına qayıtmasını təmin etməyə başlayıb. Əsas məsələnin miqrasiyanı doğuran kök səbəblərin aradan qaldırılması olduğunu deyən V.Hüseynov Azərbaycanın miqrasiyanı inkişaf amili kimi də qəbul etdiyini vurğulayıb.

İqlim dəyişikliyi, yoxsulluq, münaqişələr nəticəsində miqrasiya edənlərin sayının artdığını qeyd edən Dövlət Miqrasiya Xidmətinin rəisi bu məsələnin qlobal gündəmi zəbt etdiyini bildirib. Qeyd edib ki, COVID-19 pandemiyası da miqrasiyada rəqəmlərin artmasına öz təsirini göstərib. O, miqrasiya probleminin həlli üçün qeyri-bərabərliyin aradan qaldırılmasının vacibliyini vurğulayıb. V.Hüseynov bu məsələdə həmrəyliyin və beynəlxalq sənədlərdən istifadənin əhəmiyyətini qeyd edib.

Kolumbiyanın sabiq xarici işlər naziri **Mariya Angela Holquin** Latın Amerikası ölkələrinə dəstək verilməsinin vacibliyini qeyd edib. Onun sözlərinə görə, miqrasiya probleminin həllində QHT-lərin fəaliyyətindən istifadə olunmalıdır. Xanım Holquin miqrasiya probleminə humanitar məsələ kimi baxılmasının vacibliyini qeyd edib, ölkəsinin üzləşdiyi çətinliklərdən və onlardan çıxış yollarından danışıb. Deyib ki, miqrasiya probleminə dərhal reaksiya vermək lazımdır.

Qlobal Bakı Forumunun təşkilinə və qonaqpərvərliyə görə Azərbaycana təşəkkür edən ICESCO-nun sabiq baş direktoru **Əbdüləziz bin Osman əl-Tüveycri** forumda dünyanı narahat edən problemlərin müzakirə olunduğunu diqqətə çatdırıb. Miqrasiya məsələsinə toxunan sabiq baş direktor bəzi ölkələrdə müharibələrə və iqtisadi baxımdan çətinliklərə görə əhalinin öz yurdlarını tərk etdiyini bildirib.

"Mən Afrikanın bir çox ölkəsində olmuşam. Afrikalılara qarşı göstərilən münasibət çox da yaxşı deyil. İnsanları yaxşı və ya pis olaraq ayırmamalıyıq. Onları rəngə, irqə, dinə görə bölmək qəbuledilməzdir", - deyə əl-Tüveycri vurğulayıb.

O, bu məsələnin həllində beynəlxalq əməkdaşlığın rolunu qeyd edib.

Ekvadorun sabiq Prezidenti **Rozaliya Arteaqa Serrano** bildirib ki, qaçqınların 50 faizi qadınlardır. Çünki onlar zorakılığa məruz qalırlar. İnsanların öz vətənlərini tərk etməmələri üçün sosial bərabərlik və iş imkanları olmalıdır. O, ölkəsində miqrasiya ilə bağlı ədalətli qanunların qəbul olunduğunu bildirib.

Müsəlman Ağsaqqallar Şurasının baş katibi **Muhəmməd Mahmud Abdelsalam** isə çıxışında dünya dövlətlərini miqrasiya probleminin həlli üçün irqçiliyə, ayrı-seçkiliyə son qoymağa çağırıb. Dünyanın üzləşdiyi çətinliklərin həlli yollarının müzakirəsi üçün X Qlobal Bakı Forumunda iştirakdan məmnunluğunu ifadə edən baş katib deyib ki, miqrasiya məsələlərində ərəb və Afrika ölkələri də unudulmamalıdır. "Miqrantlar ölkələrindən iqtisadi böhran, iqlim dəyişikliyi və digər səbəblərdən köçürlər. Bəzi miqrantlar köçüb getdikləri ölkələrə iqtisadi baxımdan böyük töhfələr verirlər. Miqrantlar arasında çox savadlı olan şəxslər də var. Bəzi ölkələr də var ki, onlar qaçqınları qorumaq istəmir. Biz bu problem qarşısında bir olmalı, beynəlxalq həmrəylik üçün çalışmalıyıq", - deyə o vurğulayıb.

* * *

X Qlobal Bakı Forumu çərçivəsində "Avrasiya zonasında yeni enerji və nəqliyyat dəhlizlərinin rolu" mövzusunda altıncı panel iclasında əvvəlcə mövzu ilə bağlı videoçarx nümayiş etdirilib.

Gürcüstanın Baş nazirinin sabiq müavini xanım **Eka Tkeşelaşvilinin** moderatorluq etdiyi iclasda Bolqarıstanın sabiq xarici işlər naziri xanım Ekaterina Zaharieva Rusiya-Ukrayna müharibəsinin Avropanın enerji təchizatında ciddi problemlər yaratdığını vurğulayıb. Bildirib ki, bu gərginliyi aradan qaldırmaq üçün xeyli vaxt lazımdır. Avropanın enerji təhlükəsizliyini təmin etməli olduğunu bildirən E.Zaharieva hazırda ölkəsinin qaz təchizatında Azərbaycanın mühüm yer tutduğunu qeyd edərək deyib: "Azərbaycan bu prosesdə əvəzsiz rol oynadı. Azərbaycan təkcə Bolqarıstan üçün deyil, eyni zamanda Avropa üçün təhlükəsiz və etibarlı tərəfdaşdır. Biz energetika sahəsində Azərbaycanı nümunə götürməliyik. Azərbaycan əməkdaşlıq üçün etibarlı ölkələrdən biridir".

Azərbaycanın energetika naziri **Pərviz Şahbazov** panel iclasda çıxış edərək ölkəmizin Avrasiyada müasir geosiyasi tələblərə uyğun yeni dəhlizlərin yaradılmasındakı rolundan və bu xüsusda Prezident İlham Əliyevin qitələrarası inteqrasiyanı daha da genişləndirəcək yeni təşəbbüslərindən və Forumun açılışında bir daha bəyan edilən strateji baxışlarından danışıb. Nazir bildirib ki, təhlükəsiz enerji təchizatına ehtiyac və etibarlı tərəfdaş kimi ölkəmizə artan maraq Azərbaycanın enerji infrastrukturu və enerji dəhlizlərini şaxələndirməsini təşviq edir. "Cənub qaz dəhlizi"nin 2027-ci ilədək genişləndirilməsi ilə yanaşı, Xəzər dənizini Avropa ilə birləşdirən "yaşıl enerji" dəhlizinin yaradılması gündəmdədir. Bütün bunlar, eləcə də enerji resurslarının nəqli ilə bağlı digər perspektivlər ölkəmizin şaxələndirilmiş enerji təchizatında və tərəfdaşlarımızın enerji təhlükəsizliyində strateji rolunu daha da gücləndirəcək.

Nazir Pərviz Şahbazov Qarabağ da daxil olmaqla ölkəmizdə bərpaolunan enerjinin istehsalı və ötürülməsi, Azərbaycandan elektrik enerjisinin Gürcüstan, Rumıniya, Macarıstan və digər ölkələrə nəqli, Xəzər regionunda əməkdaşlığın dərinləşdirilməsi məsələləri ilə bağlı da fikirlərini bölüşüb.

"Fortescue Metals" və "Fortescue Future Industries" şirkətlərinin Direktorlar Şurasının sədri xanım **Cin Baderşnayder** qeyd edib ki, Azərbaycan kiçik ölkə olmasına baxmayaraq, enerji təhlükəsizliyinə böyük töhfələr verir. C.Baderşnayder ölkəmizin bu sahədə böyük imkanlarının, o cümlədən ixrac üçün kifayət qədər potensialının olduğunu vurğulayaraq deyib: "Azərbaycan enerji təhlükəsizliyi sahəsində böyük uğurlar əldə edir və Avropada xüsusi hörmətə malikdir. Bu ölkədə külək enerjisi əldə edilir, hətta termal stansiyalar var. Azərbaycanın enerji sahəsində uğurlarının daha çox olacağına inanıram. Azərbaycan investisiya üçün əlverişli ölkələrdən biridir".

Rumıniya Baş nazirinin sabiq müavini xanım **Ana Birçal** Azərbaycanın enerji sahəsində mühüm rolundan söz açaraq, bu uğurların Prezident İlham Əliyev tərəfindən həyata keçirilən siyasət nəticəsində qazanıldığını deyib. Azərbaycan ilə Rumıniya arasında sıx əlaqələrin olduğunu vurğulayan Ana Birçal bildirib: "Azərbaycanın enerji dəstəyi olmasaydı, Rumıniya üçün bu qış mövsümü çox çətin keçərdi. Dəstəyə və köməyə görə Azərbaycana minnətdaram. Azərbaycanın bu dəstəyi, ümumiyyətlə, bölgə üçün çox önəmlidir".

Şuşa şəhərinə səfər etdiyini, orada genişmiqyaslı quruculuq və bərpa işlərinin şahidi olduğunu diqqətə çatdıran rumıniyalı qonaq qeyd edib: "Orada "yaşıl enerji"dən istifadə ediləcəyini öyrəndim. Bir çox ölkənin Azərbaycandan örnək alacağı sahələr var. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə bundan sonra da veriləcək dəstək bizim üçün çox vacibdir".

Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri **Rəşad Nəbiyev** çıxışında ölkəmizin mühüm nəqliyyat qovşağına çevrildiyini bildirib. Azərbaycanda nəqliyyat infrastrukturunun, xüsusilə dəmir yolu şəbəkəsinin inkişafına xüsusi diqqət yetirildiyini vurğulayan nazir ölkəmizin Gürcüstan və Qazaxıstan ilə bu sahədə sıx əməkdaşlıq etdiyini diqqətə çatdırıb. "İnanırıq ki, Zəngəzur dəhlizinin açılması ilə imkanlarımız daha da genişlənəcək. Bu, avropalı tərəfdaşlarımız üçün də sərfəli olacaq. Bundan təkcə bizim ölkəmiz deyil, bütövlükdə region dövlətləri faydalanacaq. Statistik rəqəmlərə baxsaq, tranzit yollarına tələbatın artdığını görürük və bu göstərici on il ərzində iki dəfə artacaq. Biz artan tələbata cavab vermək üçün tərəfdaşlarımızla birlikdə çox səmərəli şəkildə işləyirik", - deyə Rəşad Nəbiyev qeyd edib.

Tacikistanın nəqliyyat naziri **Azim İbrohim** ölkəsinin son dövrdə beynəlxalq əlaqələrini sürətlə inkişaf etdirdiyini vurğulayaraq bildirib: "Tacikistan ikitərəfli münasibətlərdən faydalanmaqdadır. İqtisadi əlaqələrin inkişafı üçün nəqliyyat sahəsi vacib rol oynayır. Hazırda ən vacib məsələlərdən biri də sənayedə ətraf mühitə dost olan nəqliyyat növlərinin inkişafıdır. Tacikistanda enerji layihələrindən istifadə sürətlə genişləndirilir və bu məsələyə hökumət tərəfindən ciddi nəzarət edilir".

Qırğızıstanın sabiq Baş naziri **Comart Otorbayev** çıxışında ikitərəfli və beynəlxalq səviyyədə əməkdaşlığın önəminə toxunaraq deyib: "Qarşıdakı dövrdə Çin, Mərkəzi Asiya və Avropa arasında ticarətin daha da inkişaf edəcəyi gözlənilir. 2011-ci ildə Çindən ilk qatar Almaniyaya hərəkət etdi. Yük qatarları hazırda da Çindən Avropa istiqamətində hərəkət edirlər. Bu daşımaların 97 faizi Rusiya və Belarus ərazisindən həyata keçirilir. Ötən il pandemiya ilə əlaqədar bu tranzit yollardan istifadə bir qədər zəifləsə də, tələbat olduğu kimi qalıb".

ATƏT-in fəaliyyətdə olan sədrinin uzunsürən münaqişələr üzrə xüsusi nümayəndəsi, Şanxay Əməkdaşlıq Təşkilatının sabiq baş katibi **Bolat Nurqaliyev** diqqətə çatdırıb ki, Qazaxıstanın enerji potensialında qaz xüsusi rol oynayır: "Trans-Xəzər nəqliyyat marşrutu çox əhəmiyyətlidir. Çin, Azərbaycan və Türkiyə bu sahədə vacib ölkələrdir. Aktau liman şəhəri kimi böyük potensiala malikdir. Biz bu şəhərdə logistik terminallar, sahildə müxtəlif zavodlar inşa etmək niyyətindəyik. Eyni zamanda ölkədə dəmir yolları şəbəkəsinin genişləndirilməsini planlaşdırırıq. Qazaxıstan və Azərbaycan arasında əməkdaşlıq yüksək səviyyədədir. Əməkdaşlığın bu yüksək səviyyəsi kommunikasiya sahəsini də əhatə edir".

Ruminiyanın xarici işlər naziri, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Daimi Beynəlxalq Katibliyinin (PERMİS) baş katibi **Lazar Komanesku** ölkəsinin Azərbaycan ilə iqtisadi əməkdaşlığı daha da dərinləşdirməsinə böyük önəm verdiyini vurğulayıb. Əməkdaşlığın inkişafında sağlam rəqabətin vacibliyini qeyd edən qonaq deyib: "İnkişafın təmin edilməsi üçün dövlətlər arasında ədalətli rəqabət həyata keçirilməlidir. Enerjinin nəqli sahəsində yeni layihələr hazırlanmalıdır. Azərbaycanın bu sahəyə göstərdiyi diqqət inkişafı təmin edəcək".

* * *

Forumun 7-ci panel iclası "Qlobal inkişaf və təhlükəsizlikdə Çinin rolu" mövzusuna həsr olunub.

Tədbirdə əvvəlcə mövzu ilə bağlı videoçarx nümayiş etdirilib.

Serbiyanın sabiq Prezidenti **Boris Tadiçin** moderatorluğu ilə keçirilən iclasda Çinin dünya iqtisadiyyatında artan rolu, ictimai inkişaf və təhlükəsizliyə təsirindən danışılıb. Boris Tadiç bildirib ki, Çində inkişafın səbəbi davamlı islahatların aparılmasıdır. Bu, Çinin gələcəyi deməkdir və dünyanın inkişafına stimul verir. Moderator dünyanın qarşılaşdığı problemlər fonunda Çinin təcrübəsini öyrənməyin önəmini vurğulayıb. O, Çinin "Bir kəmər, bir yol" layihəsinin əhəmiyyətini qeyd edib, bu layihənin bir çox ölkələrin inkişafına təsir göstərdiyini bildirib.

Qlobal Bakı Forumunda ilk dəfə iştirak etdiyini və bundan məmnunluq duyduğunu bildirən Çinin Avropa Məsələləri üzrə xüsusi nümayəndəsi, Çinin Almaniyada sabiq səfiri **Vu Honqbo** forumun mühüm beynəlxalq platforma olduğunu deyib, bu imkanı yaratdığına görə Azərbaycan rəhbərliyinə, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə təşəkkürünü ifadə edib.

Son üç ildə Çində və bütün dünyada böyük dəyişikliklərin baş verdiyini qeyd edən Vu Honqbo deyib: "Pandemiya, iqlim dəyişikliyi, münaqişələr dünyamıza baha başa gəldi. Hazırda planetimizdə qeyri-müəyyənlik və qeyri-sabitlik müşahidə olunur. Təhlükəsizlik təmin edilmədən heç bir inkişafdan söhbət gedə bilməz. Çinin təşəbbüslərindən biri də qlobal inkişafdır. Bu təşəbbüs bir neçə əsas sütun üzərində qurulub. Bunlardan inkişaf, innovasiya, harmoniyanı qeyd edə bilərəm".

Təhlükəsizlik və inkişafın bir-biri ilə sıx bağlı, ölkəsinin dayanıqlı inkişafın tərəfdarı olduğunu qeyd edən xüsusi nümayəndə Çinin sülh istədiyini və başqa ölkələrin ərazi bütövlüyünə hörmətlə yanaşdığını diqqətə çatdırıb.

Kamboca Milli Assambleyasının sədr müavini **Xuon Soudari** forumun və məhz panel müzakirələrin qlobal inkişafın və təhlükəsizliyin təmin edilməsinə töhfə verəcəyinə ümid bəslədiyini bildirib. Soyuq müharibələrə son qoyulmasının vacibliyini qeyd edən Xuon Soudari deyib: "Çin bu mövzuda dünyada ən fəal ölkələrdəndir. Digər ölkələrin ərazi bütövlüyünə hörmətlə yanaşan Çin hökuməti sülhün, sabitliyin bərqərar olması üçün təşəbbüs göstərir".

Macarıstanın sabiq Baş naziri **Peter Medyeşi** qeyd edib ki, 10 il bundan əvvəl analitiklər Çinin uğursuzluğa düçar olacağını desələr də, bu, baş vermədi. Çin son 35 ildə vacib aktora çevrilib. Bu ölkə COVID-19 pandemiyasından sonra özünü inkişaf etdirib və orada yoxsulluğun qarşısı alınıb. Çin eyni zamanda çox vacib tərəfdaşdır.

Azərbaycanda olmaqdan və Bakı Forumunda iştirakdan qürur və məmnunluq duyduğunu dilə gətirən Pakistanın sabiq Baş naziri **Şövkət Əziz** Qlobal Bakı Forumunun önəmini vurğulayıb. Bu tədbirin zamanında və məqamında keçirildiyini diqqətə çatdırıb.

İnkişaf üçün davamlı islahatların aparılmasının vacibliyini qeyd edən Şövkət Əziz Pakistanda müxtəlif layihələrin həyata keçirilməsi nəticəsində infrastrukturun xeyli inkişaf etdiyini deyib. Dünyanın siyasi və iqtisadi çətinliklərlə üzləşdiyini bildirən pakistanlı natiq deyib: "Münaqişələr, bir-birindən asılılıq müəyyən problemlər yaradır. Biz xalqlar arasında harmoniya yaratmalıyıq. Narahatlığı aradan qaldırmaq, müsbət dəyişikliyə getmək lazımdır. Biz Çinin təcrübəsindən istifadə edirik. Pakistan Böyük İpək yolu layihəsi nəticəsində xeyli inkişaf edib".

"Bir kəmər və bir yol" layihəsinin əhəmiyyətindən danışan Şövkət Əziz ölkəsinin bu layihədən faydalandığını vurğulayıb.

Şanxay Əməkdaşlıq Təşkilatının sabiq baş katibi, Tacikistanın sabiq xarici işlər naziri **Raşid Alimov** Çinlə Mərkəzi Asiya ölkələri arasında əlaqələrdən danışıb: "Çinin təhlükəsizlikdə rolu güzgü kimidir. Bu yol 10 illiklər ərzində əhatə olunub. Çin və Mərkəzi Asiya ölkələri inkişaf mərhələsindədir. Bu, çox yaxşıdır".

R.Alimov Çinin vacib ixrac mərkəzinə və Asiyanın birbaşa sərmayə mənbəyinə çevrildiyini qeyd edib.

Rumıniyanın sabiq Baş naziri **Petre Roman** Çinin son 40 ildə iqtisadiyyat sahəsində böyük sıçrayış etdiyini deyib. Bildirib ki, Çin ABŞ-dən sonra dünyanın ikinci ən böyük iqtisadiyyatına çevrilib. "Təhlükəsizlik məsələlərində qlobal reallıqlar var. Bununla yanaşı, dünyada böyük qlobal problemlər mövcuddur. Biz qlobal problemlərin həlli üçün davamlı olaraq bir araya gəlməli, həmrəylik göstərməliyik", - deyə Petre Roman bildirib.

Çıxışlardan sonra panel iclasları müzakirələrlə davam edib.

Qeyd edək ki, X Qlobal Bakı Forumuna bir çox ölkələrin, eləcə də nüfuzlu beynəlxalq təşkilatların nümayəndələri qatılıblar. Forumda 4 prezident, 2 baş nazir, 6 spiker və nazir, BMT-nin 5 qurumunun rəhbərlikləri, 25 sabiq prezident, 21 sabiq baş nazir, 23 ölkənin xarici işlər nazirlərinin müavinləri olmaqla, ümumilikdə 61 ölkədən 360 nümayəndə iştirak edir.

Azərbaycan Respublikası Prezidentinin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçirilən X Qlobal Bakı Forumuna martın 11-də yekun vurulacaq.

# X Qlobal Bakı Forumu




# İlham Əliyevin yeni təşəbbüslərinə qlobal dəstək

*Əvvəli 1-ci səh.*

Mərasimdə çıxış edən Prezident İlham Əliyev də öncə bu məsələyə toxunaraq mərkəzin fəaliyyətini qiymətləndirdi. Qlobal Bakı Forumunun aparıcı beynəlxalq forumlardan birinə çevrildiyini söyləyən İlham Əliyev vurğuladı ki, toplantı iştirakçılarının təmsilçilik səviyyəsi və intellektual potensialı aparıcı beynəlxalq konfranslara uyğundur. Əlbəttə ki, bu, forumun həmsədrlərinin, bütün idarə heyətinin düşünülmüş və səmərəli fəaliyyətinin təzahürüdür.

## Azərbaycan Qoşulmama Hərəkatının fəaliyyətinə dinamizm gətirib

Prezident çıxışında demək olar ki, çox mühüm məsələlərə toxunaraq Azərbaycanın son illərdəki nailiyyətlərini, o cümlədən əldə edilən uğurları, beynəlxalq təşkilatlarla yüksələn, inkişaf edən münasibətləri, həyata keçirilən qlobal layihələri və İkinci Qarabağ müharibəsindən sonra yaranmış reallıqları dəyərləndirdi.

İlk növbədə Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə həyata keçirdiyi siyasətlə bağlı məlumat verərək dedi ki, ölkəmiz Qoşulmama Hərəkatında 2019-cu ildə öz üzərinə götürdüyü və 120 dövlətin yekdil qərarı ilə daha bir il - 2023-cü llədək uzadılmış sədrliyini başa çatdırır: "Biz böyük ənənələrə sahib, lakin müəyyən dövr ərzində təəssüf ki, bir az passiv Qoşulmama Hərəkatını, - əgər belə demək olarsa, - canlandırmağa çalışdıq. Bu məqsədlə biz beynəlxalq tədbirlər və üç Zirvə toplantısı təşkil etdik. Biz COVID-19-a dair BMT Baş Assambleyasının Xüsusi Sessiyasının təşkilinin təşəbbüskarı olduq. Biz fəal çalışaraq pandemiya ilə mübarizə sahəsində məlumat bazasının yaradılmasına nail olduq ki, daha sonra o, Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən istifadə edildi. Biz Zirvə toplantılarından birini pandemiya ilə mübarizəyə həsr etdik. Biz pandemiyanın ilk aylarında peyvənd millətçiliyinə və peyvəndlərin qeyri-bərabər paylanılmasına etiraz səsimizi ucaltdıq. Biz COVID-19-dan sonrakı dövr məsələsinə diqqət yönəltdik. Bununla yanaşı, biz əksəriyyəti Qoşulmama Hərəkatına üzv olan 80-dən artıq ölkəyə maliyyə və humanitar yardım etdik. Biz koronavirusla mübarizəni dəstəkləmək üçün Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları həcmində birbaşa ianə etdik".

Azərbaycan eyni zamanda Qoşulmama Hərəkatının institusional inkişafını təmin etməyə çalışıb və bu məqsədlə təşkilatın 60 illik tarixində ilk dəfə İlham Əliyevin təşəbbüsü ilə Parlament Şəbəkəsi yaradılıb. Onun ilk iclası Bakıda təşkil edilib. Bundan əlavə, Hərəkatın Gənclər Şəbəkəsi təsis edilib və onun katibliyi Bakıda yerləşir. Prezident bəyan etdi ki, Azərbaycan bu ilin sonunda təsisata sədrliyi başa çatdıqdan sonra da səylərini davam etdirəcək. Çünki Azərbaycan bugünkü parçalanmış dünyada belə bir hərəkata böyük ehtiyacın olduğunu yaxşı anlayır.

İlham Əliyev bildirdi ki, hazırda dünya soyuq müharibənin bitməsindən sonra bu günədək baş vermiş bəlkə də ən ciddi Şərq-Qərb qarşıdurmasına şahidlik edir. Bu prosesə isə məhz Qoşulmama Hərəkatı mühüm töhfə verə bilər: "Qoşulmama Hərəkatı körpülərin salınmasında, münaqişələrin həllində yeni yanaşmaların formalaşdırılması və təşkilatın təməl prinsiplərinin - Bandunq Prinsiplərinin təmin edilməsində mühüm rol oynaya bilər və oynamalıdır. Həmin prinsiplər - sülh, əməkdaşlıq, ərazi bütövlüyünə və suverenliyə hörmət, habelə sərhədlərin toxunulmazlığından ibarətdir".

## Ermənistan müstəqil ölkə olmaq şansını itirib

İkinci Qarabağ müharibəsindən sonra yaranmış reallıqları da dəyərləndirən İlham Əliyev öncə işğalçı ilə işğala məruz qalan Azərbaycanın fərqini göstərdi: "Biz ermənilərdən fərqli olaraq hər hansı hərbi cinayət törətmədik. Biz ermənilərdən fərqli olaraq soyqırımı törətmədik".

Yəni Azərbaycan BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi və illərlə kağız üzərində qalan qətnaməsinin icrasını həyata keçirərək ərazi bütövlüyünü təmin edib. Yalnız döyüş meydanında qisas alıb.

Hazırda isə sülh üçün vaxt yetişib. 2020-ci ilin noyabrında müharibə bitdikdən dərhal sonra Azərbaycan sülh danışıqlarına başlamaq üçün təşəbbüs irəli sürüb və Ermənistanla sülh müqaviləsinin əsasını təşkil edəcək beş məşhur prinsipini təqdim edib. Azərbaycan ümid edir ki, vasitəçiliyə cəhd göstərən beynəlxalq iştirakçılar Ermənistanı şansı əldən buraxmamağa səsləyəcəklər. Çünki Ermənistan müstəqil ölkə olmaq şansını itirib: "Onlar tamamilə asılı olan, digər ölkənin və hazırda, ola bilsin, digər ölkələrin müstəmləkəsinə çevriliblər. Beləliklə, onlar bizə qarşı təcavüz səbəbindən, həqiqətən müstəqil olmaq, öz gələcəyini qurmaq şansını əldən buraxıblar.

Beləliklə, hazırda onlar üçün öz qonşuları ilə qonşu kimi davranmaq şansı yaranıb. Bir sözlə, biz sülh istəyirik. Biz hər hansı digər müharibəni istəmirik. Hesab edirik ki, sülhə nail olmaq olar. Ötən ilin oktyabrında Azərbaycan ilə Ermənistan arasında razılaşdırılmış məsələlər, xüsusən də, bir-birinin suverenliyinə və ərazi bütövlüyünə hörmət, əslində, onu göstərir ki, sülhə nail olmaqda maneə yoxdur".

## Azərbaycan Avropanın enerji xəritəsini dəyişib, indi növbə "yaşıl enerji"nin ixracına çatıb

Forumda panel müzakirələrdən biri enerji və daşımalar dəhlizlərinə, enerji keçidinə həsr olunub.

Prezident müzakirələrdən öncə bu məsələyə də toxunaraq qonaqları məlumatlandırıb. Azərbaycanla Avropa Komissiyasının Enerji Sahəsində Anlaşma Memorandumunu imzaladığını vurğulayan İlham Əliyev deyib ki, bu memorandum hazırda icra olunur və Azərbaycan Avropaya öz təbii qaz təchizatını və ümumi qaz ixracını xeyli artırıb. Əgər Azərbaycan 2019-cu ildə ümumən 19 milyard kubmetr qaz ixrac etmişdisə, bu il o, 24 milyard kubmetrdən artıq olacaq və onun ən azı yarısı Avropaya nəql ediləcək. Bu, hazırkı geosiyasi vəziyyəti nəzərə alaraq, Avropa istehlakçılarının təbii qaza çıxışının təmin edilməsində onlara birmənalı olaraq yardım edib və yardım etməkdə davam edəcək. Məhz buna görə də Avropa Komissiyası Azərbaycanı etibarlı tərəfdaş adlandırır.

İlham Əliyev ötən ilin dekabrında Buxarestdə Azərbaycan, Gürcüstan, Macarıstan, Rumıniyanın və Avropa Komissiyasının sədrinin iştirakı ilə "yaşıl enerji" və onun ötürülməsinə dair imzalanan sazişə də toxundu. Bu sazişə əsasən Azərbaycandan Avropaya dənizdən külək enerjisi stansiyalarından ötürmə xətti çəkiləcək. Həmin ötürmə xəttinin bir hissəsi Qara dənizin dibi ilə gedəcək. Hazırda bununla bağlı texniki əsaslandırma prosesi aparılır.

Ümumiyyətlə isə Azərbaycanın reallaşdırdığı layihələr əsasında Avropanın enerji xəritəsində mühüm dəyişiklik olacaq: "Biz Avropanın enerji xəritəsini neft və qaz boru kəmərlərinin inşası ilə artıq dəyişmişik, indi isə növbə "yaşıl enerji"ni təmin edəcək elektrik xətlərinindir".

İlham Əliyev IX Qlobal Bakı Forumunda indiyədək Azərbaycanın dünyanın bir neçə aparıcı enerji şirkətləri ilə müqavilə və anlaşma memorandumları imzaladığını da diqqətə çatdırdı. Bunun nəticəsində Azərbaycanda günəş və külək enerjisindən 25 meqavat həcmində "yaşıl enerji" əldə olunacağını söylədi.

Bu, əlbəttə ki, Azərbaycan adına böyük nailiyyətdir, yaxın zamanlarda Azərbaycanı beynəlxalq "yaşıl enerji" bazarında vacib təchizatçıya və oyunçuya çevirəcək. Bununla yanaşı, ölkəmiz yaşıl hidrogeni də ixrac etməyi planlaşdırır. Beynəlxalq Maliyyə Korporasiyası (IFC) Xəzər dənizində Azərbaycanın külək enerjisi potensialı ilə bağlı yekun dəyərləndirməni başa çatdırıb və onun 157 qiqavat olduğunu təsbit edib. Buraya quruda olan daha 40 qiqavat potensialı da əlavə etmək olar.

Azərbaycan Prezidenti deyir ki, bu, dünya enerjisinin və ölkəmizin gələcəyidir.

## Dünyanı narahat edən yeni çağırışların müzakirə edildiyi mühüm platforma

Martın 11-dək davam edəcək forumda yeni dünya nizamına təhdid yaradan amillərə, o cümlədən təhlükəsizlik məsələsinə və sülhün təmin olunması üçün perspektivlərə, bölünmüş dünyada dayanıqlılığın qurulmasına, onun qlobal sülhə təsirinə nəzər salınacaq. Dünyanı sarsıdan münaqişələrə, meqatəhdidlərə, o cümlədən iqlim, qida və nüvə təhlükəsizliyi məsələlərinə toxunulacaq, postpandemiya dövründə görüləcək işlərlə bağlı fikir mübadiləsi aparılacaq. Həmçinin qlobal yoxsulluğun, bərabərsizliyin, iqlim böhranının və münaqişələrin simptomu kimi miqrasiyanın qarşısının alınması üçün tədbirlər əsas müzakirə mövzularından olacaq. İştirakçılar Avropanın gələcəyi ilə bağlı təsəvvürlərini bölüşəcək, populizmin və ekstremizmin mənbəyini araşdıracaq, ona qarşı səmərəli mübarizə yollarını müəyyənləşdirəcəklər.

Göründüyü kimi, artıq onuncu dəfədir toplaşan Bakı Forumunda müzakirə edilən mövzular, ortaya çıxan nəticələr onun intellektual potensialının əhəmiyyətini artırır. Bu baxımdan Qlobal Bakı Forumu dünyanı narahat edən yeni çağırışların həlli yollarının tapılması ilə bağlı fikir mübadiləsinin aparılması baxımından çox mühüm platformaya çevrilib desək, yanılmarıq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Azərbaycan qlobal dialoq məkanına çevrilib

Prezident İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə martın 9-da "Dünya bu gün: Çağırışlar və ümidlər" mövzusunda başlayan X Qlobal Bakı Forumu bu gün yekunlaşacaq.





Qlobal foruma bir çox ölkələrin, eləcə də nüfuzlu beynəlxalq təşkilatların nümayəndələri qatılıblar. Forumun açılış mərasimində iştirak edən dövlətimizin başçısı bir çox vacib məsələlərə toxunaraq forumun əhəmiyyətindən söz açıb: "Bakı Qlobal Forumunun iştirakçılarının təmsilçilik səviyyəsi və intellektual potensialı aparıcı beynəlxalq konfranslara uyğundur. Əlbəttə ki, bu, həmsədrlərin, bütün idarə heyətinin düşünülmüş və səmərəli fəaliyyətinin təzahürüdür. Burada 60 ölkədən 350 nəfər iştirakçı var. Onların sırasında 50-dən artıq hazırkı və sabiq prezident və baş nazir var. Beləliklə, təxmin edə bilərik ki, müzakirələrin səviyyəsi kifayət qədər yüksək olacaq. Əlbəttə, ən dəyərlisi beynəlxalq münasibətlərlə bağlı yeni yanaşmalara dair tövsiyələrdir".

Forumun proqramı ilə tanış olduğunu deyən ölkə rəhbəri bildirib ki, o, hər zaman olduğu kimi kifayət qədər genişdir: "Proqram Yaxın Şərqi, Afrikanı və Qərbi Balkanları əhatə edir. Bununla yanaşı, bu gün dünya gündəliyinin aktual məsələləri də müzakirələr mövzusu sırasındadır".

## Həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması baxımından forum mühüm platforma olaraq qalacaq

Milli Məclisin deputatı, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva qəzetimizə açıqlamasında bildirib ki, Azərbaycan siyasi, iqtisadi və mədəni cəhətdən nəinki regional, hətta qlobal dialoq məkanına çevrilib.

Deputat qeyd edib ki, ötən dövr ərzində ölkəmizdə mötəbər beynəlxalq tədbirlərin keçirilməsi buna sübutdur. Onun sözlərinə görə, pandemiya ilə əlaqədar obyektiv səbəblərdən bir müddət kütləvi tədbirlərin keçirilməsi məhdudlaşdırılsa da, həyat artıq tədricən öz axarına qayıdır və Bakı şəhəri qlobal dialoq məkanı olaraq öz rolunu davam etdirir.

Hazırda paytaxtımızda X Bakı Qlobal Forumunun keçirildiyini deyən Sevinc Fətəliyeva xatırladıb ki, indiyədək keçirilən forumlarda yüzlərlə nüfuzlu xarici qonaq təmsil olunub: "Forumlarda Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvləri, dünyanın bir sıra tanınmış ictimai-siyasi xadimləri və dövlət rəsmiləri iştirak edirlər. Dünyanı narahat edən aktual problemlər ətrafında geniş müzakirələr aparılır, problemlərdən çıxış yolları üçün müxtəlif fikir və təkliflər səsləndirilir. "Dünya bu gün: Çağırışlar və ümidlər" mövzusuna həsr olunan X Qlobal Bakı Forumuna da bir çox ölkələrin, eləcə də nüfuzlu beynəlxalq təşkilatların nümayəndələri qatılıblar".

Sevinc Fətəliyeva qeyd edib ki, Prezident İlham Əliyev forumda dərin məzmunlu çıxış edərək mötəbər tədbirin əhəmiyyətini vurğulayıb. Birinci forumdan başlayaraq bütün forumlarda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi haqqında geniş danışılırdı. Artıq münaqişə başa çatıb. Dövlətimizin başçısı qarşıda dayanan hədəflər barədə və regionun gələcək inkişaf perspektivləri haqqında fikirlərini ifadə etdi. "Cənab Prezident Cənubi Qafqaz regionu üçün sülh imkanlarının yarandığını bəyan etdi. Ötən ilin oktyabrında Azərbaycan ilə Ermənistan arasında razılaşdırılmış məsələlər, xüsusən də bir-birinin suverenliyinə və ərazi bütövlüyünə hörmət, əslində, onu göstərir ki, sülhə nail olmaqda maneə yoxdur. Azərbaycandakı erməni azlığına gəldikdə, Azərbaycan çoxkonfessiyalı, çoxmillətli ölkədir. Ölkəmizin Qarabağ bölgəsində yaşayan ermənilərin həyatı işğal dövründən fərqli olaraq daha yaxşı olacaq", - deyə deputat əlavə edib.

Martın 11-dək davam edəcək forumda yeni dünya nizamına təhdid yaradan amillərə, o cümlədən təhlükəsizlik məsələsinə və sülhün təmin olunması üçün perspektivlərə, bölünmüş dünyada dayanıqlılığın qurulmasına, onun qlobal sülhə təsirinə nəzər salındığını deyən deputat qeyd edib ki, qarşıda duran çağırışların həlli yolları müzakirə olunur. İştirakçılar Avropanın gələcəyi ilə bağlı təsəvvürlərini də bölüşürlər.

S.Fətəliyeva hesab edir ki, bundan sonra Azərbaycanın perspektiv inkişafı və dünyada artan nüfuzu haqqında həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması baxımından Qlobal Bakı Forumu mühüm platforma olaraq qalacaq.

## Dünyanın ən aktual problemlərinin həll edildiyi ünvan

Milli Məclisin deputatı Kamilə Əliyeva deyib ki, Bakıda Prezident İlham Əliyevin himayəsi və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçirilən X Qlobal Forum dünya üçün əhəmiyyətli, nüfuzlu platformaya çevrilib.

Deputat qeyd edib ki, müzakirə ediləcək məsələlərin gündəliyi, 60 ölkədən 300-dən çox nümayəndənin iştirakı forumun yüksək səviyyəsinin sübutudur.

K.Əliyeva xatırladıb ki, forumda bir çox dövlətlərin keçmiş prezidentləri, beynəlxalq aləmdə böyük nüfuza malik siyasətçilər iştirak edirlər. Bakı Qlobal Forumu Münhen Təhlükəsizlik Konfransı və Davos İqtisadi Forumu kimi böyük nüfuza malikdir. Əminliklə demək olar ki, Bakı dünyanın ən aktual problemlərinin həll edildiyi məkana çevrilib. X Qlobal Forum dünyanı narahat edən qlobal problemlərin həllinə öz töhfəsini verir. Qərb-Şərq arasında yaranmış qarşıdurmaların qarşısının alınması istiqamətində forumda müzakirələr aparılıb. Mərkəzi, Şərqi Asiyada, Afrikada həlli çox mürəkkəb olan geosiyasi hadisələr hökm sürür.

Bakı X Qlobal Forumunun Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçirilməsinin xüsusi önəmi olduğunu vurğulayan deputat xatırladıb ki, bir neçə gün əvvəl İran rəsmilərindən biri iştirak etdiyi tədbirdə Nizami Gəncəvinin guya fars şairi olduğu və Gəncə şəhərinin İran imperiyasına daxil olduğu haqda cəfəng fikirlər səsləndirib: "Forumda iştirak edən cənab Prezident çıxışının əvvəlində Nizami Gəncəvinin Azərbaycan şairi olduğunu və Gəncədə yaşayıb, yaratdığını və burada dəfn olunduğunu, eləcə də Gəncənin qədim Azərbaycan şəhəri olduğunu söyləməsi həmin şəxslərə mesaj idi. Forumda iştirak edən ölkələrin nümayəndələri bir daha əmin oldular ki, Azərbaycan dünyada tam müstəqil xarici siyasət yürüdən, heç kimdən asılı olmayan bir dövlətdir".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# X Qlobal Bakı Forumu

*Ekmeleddin İHSANOĞLU:*

### "Qayıdış prosesində hər kəs Azərbaycanın yanında olmalıdır"



"Bakı Qlobal Forumunun islam dünyası üçün xüsusi yeri var. Burada önəmli insanlar bir sıra problemli məsələləri həll etmək üçün müzakirələr aparırlar".

Bunu AZƏRTAC-a İslam Əməkdaşlıq Təşkilatının sabiq Baş katibi Ekmeleddin İhsanoğlu deyib. Türkiyənin Azərbaycanın Qarabağ məsələsində mövqeyini daim dəstəklədiyini vurğulayan sabiq baş katib qeyd edib: "İnanırıq ki, yurd-yuvasından didərgin düşmüş insanlar tezlikdə öz evlərinə qayıdacaqlar. Fikrimcə, hər kəs bu məsələlərdə Azərbaycanın yanında olmalıdır, çünki gələcəkdə onlar Azərbaycanın köməyinə möhtac olacaqlar".

*Balat NURGALİYEV:*

### "Azərbaycanın dünyada baş verən problemlərə yanaşması diqqətdən qaçmır"



"Ümumiyyətlə, Qlobal Bakı Forumunun keçirilməsi vacibdir. Çünki forumda müzakirə edilən mövzular olduqca aktualdır".

Bunu AZƏRTAC-a müsahibəsində ATƏT-in fəaliyyətdə olan sədrinin uzunsürən münaqişələr üzrə xüsusi nümayəndəsi Balat Nurgaliyev deyib. B.Nurgaliyev qeyd edib ki, forumda aparılan müzakirələr mübahisəli məsələlərin həlli istiqamətində atılan ilk addımlardır. "Azərbaycanın dünyada baş verən problemlərə bu dərəcədə xoş niyyətlə yanaşması diqqətlərdən qaçmır. İqtisadiyyat, səhiyyə, ekologiya və digər sahələrdə mövcud problemlərin həlli yolları araşdırılmalıdır".

*Valter FUST:*

### "Miqrantların əksəriyyəti başqa ölkələrə pul qazanmaq üçün gedirlər"



"Münaqişə və müharibələr, çətin dolanışıq şəraiti, iqlim dəyişikliyi miqrasiya edənlərin sayını günü-gündən artırır. Miqrantların əksəriyyəti başqa ölkələrə pul qazanmaq üçün gedirlər. Son illərdə 200 min miqrant öz ölkəsinə qayıdıb. Təbii ki, köçən və geri qayıdanlar arasında çox kəskin fərq var. Statistikaya görə, 3 milyon miqrantın sənədi yoxdur".

AZƏRTAC xəbər verir ki, bu fikirləri "Globethics.net" platformasının prezidenti Valter Fust paytaxtımızda təşkil edilən X Qlobal Bakı Forumu çərçivəsində "Miqrasiya qlobal yoxsulluğun, bərabərsizliyin, iqlim böhranının və münaqişələrin simptomu kimi" mövzusunda martın 10-da keçirilən panel müzakirədə deyib. O bildirib ki, Qərbi Avropaya köç edənlərin sayı daha çoxdur. Onun sözlərinə görə, 96 milyon miqrantın 72 faizi Əfqanıstan, Suriya, Ukrayna və başqa ölkələrdən gələnlərdir. Miqrasiya məsələsinin dünyanın qlobal problemlərindən birinə çevrildiyini bildirən V.Fust bu problemin həllində inteqrasiyanın rolunu xüsusi qeyd edib.

## X Qlobal Bakı Forumu dünya mediasının diqqət mərkəzində

Azərbaycan paytaxtında ötən gün işə başlayan "Dünya bu gün: Çağırışlar və ümidlər" mövzusunda X Qlobal Bakı Forumu ilə bağlı müxtəlif ölkələrin aparıcı KİV-ində silsilə məqalələr dərc olunub.

AZƏRTAC xəbər verir ki, məqalələrdə Bakının onuncu dəfə təşkil etdiyi bu mötəbər tədbirə qatılan nüfuzlu siyasətçilərin, dövlət və hökumət başçılarının, sabiq prezidentlərin, beynəlxalq təşkilatların rəhbərlərinin dünya gündəminin ilk sıralarında yer alan mühüm məsələlər barədə müzakirələr apardıqları, müasir çağırışlarla bağlı həll yollarını araşdırdıqları qeyd olunub.

İtaliyanın "Nova" Agentliyində yayımlanan "Qlobal Bakı Forumu davam edir, Avropa və Asiya arasında problemlər və imkanlar" mövzusunda məqalədə Prezident Sercio Mattarellanın forum iştirakçılarına təbrik məktubu yolladığı qeyd olunub və məktubda yer alan fikirlərə yer verilib. İtaliya Prezidentinin məktubda Qlobal Bakı Forumunun anlaşma və sülh şəraitində birgəyaşayış dəyərlərini təbliğ etdiyini, məqsədin xalqlar və mədəniyyətlər arasında əməkdaşlıq və dialoqu stimullaşdırmaq olduğunu vurğuladığı bildirilib. Həmçinin qeyd edilib ki, Prezident Sercio Mattarella təbrik məktubunda Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin ildən-ilə xalqlar və mədəniyyətlər arasında əməkdaşlıq və dialoqu stimullaşdırmaq üçün xalqlar arasında qarşılıqlı anlaşma və dinc yanaşı yaşama dəyərlərini təbliğ etdiyini və bunu bir daha təsdiqlədiyini xüsusi vurğulayıb.

Bu ölkənin "Askanews.it" portalında dərc olunan "Qlobal Bakı Forumu anlaşma və sülh şəraitində birgəyaşayış dəyərlərini təbliğ edir" sərlövhəli məqalədə forumda mühüm mövzularda müzakirələrin aparılacağı bildirilib. Qeyd olunub ki, forumun birinci günündə NATO-nun dayanıqlılığı, iqlim dəyişiklikləri və qlobal istiləşmənin yaratdığı təhdidlər, dünyanın üzləşdiyi təhlükələr, o cümlədən nüvə və ərzaq təhlükəsizliyi, həmçinin daşımalar, enerji təhlükəsizliyinin təmin olunması və digər məsələlər də müzakirə olunacaq. Bununla yanaşı, forumun gündəliyində enerji dəhlizlərinə dair mövzuların da yer aldığı, mühüm enerji qovşağı və qaz təchizatçısı kimi önəmi getdikcə artan Azərbaycanın rolunun İtaliya üçün vacib önəm daşıdığı vurğulanıb.

Yazıda Prezident Sercio Mattarellanın təbrik məktubunda forumun olduqca mühüm mövzuya həsr edildiyini, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi tərəfindən həyata keçirilən tədbirlərin əməkdaşlıq və dialoqun, qarşılıqlı anlaşma və sülhün təşviqinə yönəldiyini bildirdiyi qeyd olunub.

Bosniya və Herseqovinanın aparıcı nəşrlərində də Qlobal Bakı Forumuna dair məqalələr yayımlanıb. Bu ölkənin "Slobodna Bosna", "Dnevni Avaz", "Federalna.ba", "Vijesti.ba", "Mostarski.ba", "Biznis.ba" və digər portallarında yer alan yazılarda bildirilib ki, Qlobal Bakı Forumu dialoq, əməkdaşlıq və həmrəyliyi təşviq etmək məqsədilə dünyanın müxtəlif ölkələrindən siyasi, biznes və akademik liderlərinin iştirakı ilə Azərbaycanın paytaxtı Bakıda keçirilən beynəlxalq tədbirdir. Azərbaycan Prezidentinin himayəsi ilə keçirilən foruma 60-dan çox ölkədən 400-ə yaxın iştirakçı qatılıb. Qlobal Bakı Forumu oxşar çağırışları və məqsədləri paylaşan, bəşəriyyəti narahat edən problemlərlə əlaqədar yeni yanaşma və həll yolları təqdim edən mühüm dialoq platformasıdır. Forum həm də Azərbaycanın regionda lider kimi potensialını göstərməsi, mədəniyyətini və tarixini təbliğ etməsi baxımından bir fürsətdir.

Yazılarda Prezident İlham Əliyevin Bakı Forumunun açılış mərasimindəki çıxışına xüsusi diqqət yetirilib. Dövlətimizin başçısının Avropa Komissiyası ilə Azərbaycan arasında enerji sahəsində Strateji Tərəfdaşlıq sazişinin imzalanması, ölkəmizin Avropaya təbii qaz tədarükünü artırdığı, qazın ümumi ixracını genişləndirməsi barədə fikirlərinə yer verilib. Bundan başqa, Prezident İlham Əliyevin çıxışında Azərbaycanın sədrliyi müddətində Qoşulmama Hərəkatının fəaliyyətinin canlandırılması, Azərbaycanın torpaqlarını işğaldan azad etməsi, əməkdaşlığın və qarşılıqlı anlaşmanın gücləndirilməsi məsələləri barədə fikirləri oxucuların diqqətinə çatdırılıb.




İspaniyanın "Europapress" və "ABC Internacional" portallarında yayımlanan məqalələrdə Prezident İlham Əliyevin Qlobal Bakı Forumunun açılışındakı çıxışında Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması və ölkəmizin Avropanın enerji təhlükəsizliyindəki rolu barədə fikirləri əksini tapıb. Məqalələrdə dövlətimizin başçısının sülh müqaviləsinin imzalanması və fürsəti əldən verməməsi barədə Ermənistana çağırış ünvanladığı qeyd olunub. "Azərbaycan Prezidenti İlham Əliyev bu cümə axşamı təsdiqlədi ki, davamlı gərginlik və daha kiçik miqyaslı qarşıdurmalara səhnə olan münaqişədən sonra Ermənistanla indi sülhün vaxtıdır və İrəvanı fürsəti əldən verməməyə çağırdı", - deyə yazılarda vurğulanıb. Həmçinin Prezident İlham Əliyevin çıxışında Azərbaycan dövlətinin 2020-ci ildə müharibənin başa çatmasından dərhal sonra Ermənistanla sülh müqaviləsinin əsasını təşkil edəcək məşhur beş prinsipi qarşı tərəfə təqdim etdiyini bildirdiyi qeyd olunub.

Bundan başqa, məqalədə dövlətimizin başçısının "Hazırda onlar üçün öz qonşuları ilə qonşu kimi davranmaq şansı yaranıb. Bir sözlə, biz sülh istəyirik. Biz hər hansı digər müharibəni istəmirik. Hesab edirik ki, sülhə nail olmaq olar. Ötən ilin oktyabrında Azərbaycan ilə Ermənistan arasında razılaşdırılmış məsələlər, xüsusən də, bir-birinin suverenliyinə və ərazi bütövlüyünə hörmət əslində onu göstərir ki, sülhə nail olmaqda maneə yoxdur" sözləri də oxucuların diqqətinə çatdırılıb.

Yazılarda Azərbaycan Prezidentinin münaqişənin tarixindən bəhs etdiyi, Ermənistanın azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti aparması və bir milyondan çox azərbaycanlının doğma torpaqlarından qovulması, İrəvanın vəziyyəti münaqişəni dondurmaq cəhdləri, münaqişənin nizamlanması səylərinin nəticəsiz qalması, Ermənistanın işğal dövründə ərazilərimizdə törətdiyi barbarlıq, urbisid, kultursid, ekosid əməlləri barədə məlumat verdiyi, ölkəmizdə azlıqların hüquqlarının Konstitusiyamız tərəfindən qorunması və Azərbaycanın Qarabağ bölgəsində yaşayan ermənilərin həyatının işğal dövründən daha yaxşı olacağını əminliklə ifadə etməsi xüsusi vurğulanıb.

İspan KİV-ində dərc olunan məqalələrdə Prezident İlham Əliyevin Azərbaycanın Avropaya təbii qaz ixracını artırması, "yaşıl enerji"nin ixracına başlaması barədə fikirləri də oxucuların diqqətinə çatdırılıb.

Moldovanın aparıcı nəşrləri də Qlobal Bakı Forumuna geniş diqqət ayırıb. Bu ölkənin nüfuzlu "Publika" nəşrində dərc olunan məqalədə foruma yüksəksəviyyəli dövlət və hökumət rəsmilərinin qatıldıqları bildirilib. Yazıda forumun iclaslarında iqlim, qida və nüvə təhlükəsizliyi, bölünmüş dünyada həmrəyliyin və əməkdaşlığın gücləndirilməsi, həmçinin səhiyyə, miqrasiya, münaqişələr və digər problemlər ətrafında müzakirələrin aparılacağı qeyd olunub. Məqalədə Moldovanın də bu tədbirdə fəal təmsil olunduğu vurğulanaraq bildirilib ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi qlobal problemlərin həlli yollarını araşdıran və bu barədə dünya ictimaiyyətini məlumatlandıran mühüm beynəlxalq mərkəzə çevrilib. Bunun nəticəsidir ki, mərkəzin təşkil etdiyi tədbirlərə maraq ildən-ilə artır.

Bu ölkənin "Noi.md" nəşrində yer alan xəbərdə Prezident İlham Əliyevin Forumun açılışındakı çıxışında Ermənistan ilə münasibətlərin normallaşdırılması istiqamətində Azərbaycan dövlətinin təşəbbüsləri barədə fikirlərindən söz açılıb.

"Jurnal.md" nəşri isə Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında oynadığı mühüm rola xüsusi diqqət yetirərək, Prezident İlham Əliyevin çıxışında ölkəmizin Avropaya qaz tədarükünü ildən-ilə artırması barədə sözlərinə geniş yer verib.

Xorvatiyanın "jutarnji.hr" portalında yayımlanan məqalədə dünya gündəmini narahat edən məsələlərin müzakirə olunduğu Qlobal Bakı Forumunda Xorvatiyanın sabiq prezidentləri Kolinda Qrabar-Kitaroviçin, İvo Yosipoviçin, Stepan Meşiçin və digər nüfuzlu şəxslərin iştirak etmələrinin bu ölkənin Bakının təşəbbüslərinə böyük önəm verməsinin göstəricisi olduğu vurğulanıb. Qeyd edilib ki, X Qlobal Bakı Forumu son dərəcə aktual mövzuya həsr olunub. Bu, dünyada artan gərginliklərin və problemlərin həlli yollarının araşdırılmasına Bakının böyük önəm verdiyini göstərir.

Məqalədə Azərbaycan Prezidentinin forumun açılışındakı çıxışına da xüsusi yer ayrılıb, dövlətimizin başçısının Ermənistan ilə Azərbaycan arasında sülh müqaviləsinin imzalanması, işğal dövründə ərazilərimizdə törədilən cinayətlər, Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə həyata keçirdiyi mühüm tədbirlər, ölkəmizin qazın və yaşıl enerjinin ixracını genişləndirməsi istiqamətində atdığı addımlar barədə ətraflı məlumat verilib.

X Qlobal Bakı Forumu barədə Misir mətbuatında da məqalələr yayımlanıb. Bu ölkənin "El Watan" və "Al-Ain" nəşrlərində Azərbaycanın 2013-cü ildən evsahibliyi etdiyi Qlobal Bakı forumlarında dinlər və sivilizasiyalararası dialoq, dünyada baş verən proseslər, etnik münaqişələr və digər qlobal problemlərin müzakirə olunduğu, onların həll yolları barədə fikir mübadiləsinin aparıldığı bildirilib. Vurğulanıb ki, builki forum da olduqca mühüm mövzuya həsr edilib. "Dünya bu gün: Çağırışlar və ümidlər" mövzusuna həsr olunan X Qlobal Bakı Forumunda 61 ölkədən 360-a yaxın nümayəndə, 4 prezident, 2 baş nazir, 6 spiker və nazir, BMT-nin 5 qurumunun rəhbərlikləri, 25 sabiq prezident, 21 sabiq baş nazir, 23 ölkənin xarici işlər nazirlərinin müavinləri olmaqla, ümumilikdə 61 ölkədən 360-dək nümayəndə iştirak edir.

Məqalələrdə məlumat verilib ki, bu mötəbər tədbirdə yeni dünya nizamına təhdid yaradan amillərə, o cümlədən təhlükəsizlik məsələsinə və sülhün təmin olunması üçün perspektivlərə, bölünmüş dünyada dayanıqlılığın qurulmasına, onun qlobal sülhə təsirinə nəzər salınacaq, qarşıda duran çağırışların həlli yolları müzakirə olunacaq, dünyanı sarsıdan münaqişələrə, meqatəhdidlərə, o cümlədən iqlim təhlükəsizliyi, qida təhlükəsizliyi və nüvə təhlükəsizliyi məsələlərinə toxunulacaq, postpandemiya dövründə görüləcək işlərlə bağlı fikir mübadiləsi aparılacaq.

Yazılarda Prezident İlham Əliyevin forumun açılış mərasimində çıxışına da geniş yer verilib, dövlətimizin başçısının fikirlərindən sitatlar gətirilib.

Türkiyə KİV-i də X Qlobal Bakı Forumunu, xüsusilə Prezident İlham Əliyevin çıxışında səsləndirdiyi fikirləri diqqət mərkəzində saxlayıb. Qardaş ölkənin Anadolu agentliyi, "TRT Avaz", "Hürriyet" qəzeti, "Sondakika.com" və digər KİV-ində yer alan xəbərlərdə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçirilən forumda 61 ölkədən 360 iştirakçının qatıldığı bildirilib.

Anadolu agentliyində yayımlanan məqalədə Prezident İlham Əliyevin Azərbaycan ilə Ermənistan arasında sülh müqaviləsinin imzalanması istiqamətində irəli sürdüyü təşəbbüslər, Ermənistanın bu mühüm fürsəti əldən verməməsi barədə dövlətimizin başçısının çağırışı, Ermənistanın işğal dövründə törətdiyi cinayət əməlləri barədə fikirlərinə geniş yer verilib.

"Hürriyet" qəzetində dərc olunan yazıda isə Azərbaycan Prezidentinin Avropanın enerji təhlükəsizliyinin təmin olunması istiqamətində atdığı addımlar, qazın ixracının genişləndirilməsi, "yaşıl enerji"nin ixracına başlanılması barədə fikirləri oxucuların diqqətinə çatdırılıb. Məqalədə dövlətimizin başçısının "Rusiya-Ukrayna müharibəsi başlayandan sonra biz qaz təchizatı və ya onun artırılması ilə bağlı 10-dan artıq Avropa ölkəsindən müraciət almışıq və onun üzərində işləyirik. Təsadüfi deyil ki, Avropa Komissiyası Azərbaycanı etibarlı tərəfdaş adlandırır. Bu, elə bir haldır ki, biz hər zaman etibarlı tərəfdaş olmuşuq" fikri xüsusi vurğulanıb.

Qeyd edək ki, bütün məqalələrdə Azərbaycan Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçirilən Qlobal Bakı Forumunun dünya ictimaiyyətini dərindən narahat edən məsələlərin həlli yollarını araşdıran və bu istiqamətdə müzakirələr apara bilən müstəqil beynəlxalq platformaya çevrildiyi qeyd olunub.

*Əl-TÜVEYCRİ:*

### "Azərbaycan Prezidenti dünyada baş verən problemlərin həllinə töhfə verir"



"Bakı Qlobal Forumu kifayət qədər mühüm əhəmiyyətə malik tədbirdir. Burada müxtəlif ölkələrdən olan önəmli insanlar dünyada baş verən problemləri aradan qaldırmaq üçün fikir mübadiləsi aparırlar".

Bunu AZƏRTAC-a ICESCO-nun sabiq baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycri deyib. O qeyd edib ki, forumda dünyanı ən çox narahat edən iqlim dəyişiklikləri, müharibə və münaqişələr mövzularında danışılır. "Mövzuların zənginliyi bu tədbirin dünya üçün əhəmiyyətini göstərir. Belə mötəbər tədbirin təşkilinə görə Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlığımı bildirirəm. Bu, onu göstərir ki, Azərbaycan Prezidenti dünyada baş verən problemlərin həllinə töhfə verməyə çalışır", - deyə sabiq baş direktor bildirib.

*Hakima El HAİTE:*

### "Bakı forumunda müzakirə olunan mövzuların əhatə dairəsi genişlənib"



"X Qlobal Bakı Forumunda planetin gələcəyi ilə bağlı insanları narahat edən problemlərin həlli istiqamətində müzakirələr aparılır".

Bunu AZƏRTAC-a "Liberal International" Təşkilatının prezidenti, Mərakeşin sabiq ətraf mühit naziri (2013-2017), Mərakeşin İqlim Dəyişikliyi üzrə xüsusi nümayəndəsi (2015-2017) Hakima El Haite deyib. "Dünya koronavirus pandemiyasından sonra yeni bir mərhələyə keçdi. Bu mərhələnin hər bir ölkə üçün səmərəli dövrə çevrilməsi öz əlimizdədir. Son dövrlər dünyada yaranan gərginliklər səbəbindən forumda müzakirə olunan mövzuların əhatə dairəsi genişlənib. Mən düşünürəm ki, həmin məsələlərin panellərdə müzakirə olunması problemlərin həlli istiqamətində atılan ilk addımlardır", - deyə "Liberal Internasional"ın prezidenti bildirib.

*Vu HONQBO:*

### "Azərbaycanla strateji baxımdan tarixi əlaqələrimiz var"



"İlk dəfədir ki, bu forumda iştirak edirəm. Azərbaycanın qonaqpərvərliyinə, zəngin mədəniyyətinə və tarixinə heyran qaldım".

AZƏRTAC xəbər verir ki, bunu X Qlobal Bakı Forumunda iştirak edən Çin Hökumətinin Avropa məsələləri üzrə xüsusi nümayəndəsi Vu Honqbo söyləyib. Çinin "Bir kəmər, bir yol" layihəsinin 100-dən çox ölkəni ətrafında birləşdirdiyini vurğulayan Vu Honqbo deyib: "Azərbaycanla strateji baxımdan uzunmüddətli, tarixi əlaqələrimiz var. İkitərəfli münasibətlərimiz yaxşı səviyyədədir, bu il diplomatik münasibətlərimizin 31-ci ilini qeyd edirik. Ötən 30 il ərzində biz Azərbaycanla yaxşı dost olmuşuq, əməkdaşlığımız, iqtisadi əlaqələrimiz inkişaf edib, Prezident İlham Əliyev ölkəmizə səfər edib". O bildirib ki, ötən il Şanxay konfransında liderlərimiz görüşüb və bu görüşdə tərəflər münasibətlərimizin inkişaf etdirilməsi ilə bağlı konsensus əldə ediblər. "Hər iki ölkə əməkdaşlıqla bağlı sahələri müəyyən edib ki, bura infrastruktur, transportasiya və sair daxildir. Azərbaycan strateji baxımdan vacib nöqtədə yerləşir", - deyə V.Honqbo diqqətə çatdırıb.

# ADA-nın İnkişaf və Diplomatiya İnstitutu ilə Rumıniya Diplomatik İnstitutu arasında memorandum imzalanıb





ADA Universitetinin İnkişaf və Diplomatiya İnstitutu ilə Rumıniya Diplomatik İnstitutu arasında birgə tədqiqat və diplomatik kadr hazırlığı sahəsində əməkdaşlığın qurulması və inkişaf etdirilməsi məqsədilə anlaşma memorandumu imzalanıb.

ADA Universitetindən AZƏRTAC-a bildirilib ki, anlaşma memorandumu çərçivəsində xarici siyasət və beynəlxalq münasibətlər üzrə diplomatların və mütəxəssislərin yetişdirilməsi və onların bacarıqlarının inkişafı üçün birgə tədqiqatlar həyata keçiriləcək. Tərəflər həmçinin gənc diplomatların biliklərinin artırılması məqsədilə tədris materiallarının mübadiləsini təmin edəcək və onların potensialının gücləndirilməsi üçün mübadilə proqramı təşkil edəcəklər.

Sənədə əsasən sözügedən qurumlar maraq sahələrini əhatə edən digər zəruri istiqamətlər üzrə əməkdaşlıq istiqamətində xarici dil kurslarının təşkili ilə bağlı məsləhətləşmələr aparacaq. Hər iki institutu təmsil edən ekspertlər konfrans və simpoziumlarda iştirak edəcək, qarşılıqlı maraq doğuran sahələrdə birgə layihələr həyata keçirəcəklər.

# Dünyada tək-tək ölkələr öz enerji təhlükəsizliyini tam təmin edə bilirlər

## Onlardan biri məhz Azərbaycandır

Yaşlı və orta nəsil o dövrü yaxşı xatırlayır. 1990-cı illərin əvvəllərində Azərbaycanın sosial-iqtisadi həyatındakı tənəzzül energetika sahəsində də özünü kəskin surətdə göstərirdi. Kəndlər, bəzən şəhərlər də işığı fasilələrlə alırdı. Enerji qıtlığından insanlar heç televiziya verilişlərinə müntəzəm baxa bilmirdilər.

Bunlar artıq keçmişin olaylarıdır. İndi Azərbaycan istehsal etdiyi elektrik enerjisi ilə həm öz tələbatını ödəyir, həm də onu bir neçə digər ölkəyə göndərir. Ümumiyyətlə, bu gün dünyada enerji təhlükəsizliyini daxili resursları hesabına tam təmin etmiş ölkələr tək-təkdir. Həmin azsaylı ölkələrdən biri də məhz Azərbaycandır. Əsrlərdən bəri neft diyarı kimi tanınan ölkəmiz qısa müddətdə qaz hasilatçısı və ixracatçısı kimi də geniş şöhrət tapdı. Elektrik enerjisi sahəsində önəmli layihələr həyata keçirildi.

Xüsusilə son dövrdə respublikada bütövlükdə elektroenergetika sahəsi böyük sürətlə inkişaf edib. Belə ki, son 20 il ərzində Azərbaycanda 34 elektrik stansiyası tikilib. Bu stansiyaların generasiya gücü təqribən 3400 meqavata bərabərdir. Qeyd edək ki, hazırda ümumi generasiya gücümüz 7200 meqavat təşkil edir. Deməli, bunun təxminən yarıya qədəri son iki onillikdə yaradılan enerjinin payına düşür. Bu il fevralın 13-də Bakıda "Gülüstan" sarayında müstəqillik dövrünün 1280 MVt gücündə ən böyük istilik-elektrik stansiyasının təməlqoyma mərasimində çıxış edərkən Prezident İlham Əliyev demişdir: "Əgər biz bunu etməsəydik, əgər bu məsələni prioritet seçməsəydik, bu gün bizim iqtisadi və sənaye inkişafı sual altında ola bilərdi. Bu gün biz öz enerji təhlükəsizliyimizi təmin edə bilməzdik. Yəni bütün işlər vaxtında aparıldı, ardıcıllıqla aparıldı. Bugünkü mərasim və 2025-ci ildə fəaliyyətə başlayacaq yeni stansiya bizim enerji potensialımızı daha da gücləndirəcək. Çünki buna həm Azərbaycanda, həm də Avropada ehtiyac var".

Təsadüfi deyil ki, işğaldan azad edilmiş torpaqlarda bərpa-yenidənqurma işlərinə də ilk növbədə elektroenergetika sahəsindən başlanıb. Həmin yerlərdə artıq 10-dan çox yarımstansiya inşa edilib, 10-dan çox su-elektrik stansiyası tikilib. Cəmi iki il ərzində Şərqi Zəngəzur bölgəsində 50 meqavatdan çox generasiya gücü yaradılıb. Cari ilin sonunadək bu rəqəm 200 meqavata çatacaq. Bütün stansiyalar ümumi şəbəkəyə qoşulub. Şərqi Zəngəzurun və Qarabağın böyük hidroenergetika potensialı imkan verəcək ki, həmin bölgələrdə 500 meqavata qədər generasiya gücləri yaradılsın.

Azərbaycanın bərpaolunan enerji növlərinin inkişafı üçün də böyük potensialı var. Odur ki, indi "yaşıl enerji" qarşısında da yaşıl işıq yanır. Ölkəmiz Avropanın mühüm elektrik enerjisi, əsasən də "yaşıl enerji" təchizatçısına çevrilməyi hədəfləyir. 2027-ci ilə qədər 3 qiqavat külək və 1 qiqavat günəş enerjisinin istehsal edilməsi nəzərdə tutulur. Bunun 80 faizi ixrac olunacaq.

Bu istiqamətdə mühüm işlər görülür. Belə ki, Azərbaycanda uzunmüddətli, dayanıqlı, ucuz və ekoloji cəhətdən təmiz enerji növlərinin istehsalı prosesinə xarici investorlar da maraq göstərirlər. Bu işə qoşulan şirkətlərin sayı getdikcə çoxalır.

Hələ keçən ilin yanvar ayında Səudiyyə Ərəbistanı Krallığının "ASWA Pover" şirkəti ilə inşa ediləcək 240 MVt gücündə "Xəzər-Abşeron" Külək-Elektrik Stansiyasının təməli qoyulub. Həmin ilin mart ayında isə Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti ilə "Qaradağ" Günəş-Elektrik Stansiyasının tikintisinə start verilib. Hazırda Azərbaycanda ən iri neft-qaz layihələrinin əməliyyatçısı olan bp şirkəti ilə Cəbrayıl rayonunda "Şəfəq" Günəş-Elektrik Stansiyasının tikintisinə dair danışıqlar davam edir.

Yeri gəlmişkən, Prezident İlham Əliyev işğaldan azad olunmuş ərazilərimizi - 10 min kvadratkilometr sahəni "yaşıl enerji" zonası elan edib. Buraya daxil olan bölgələr 7200 meqavat günəş və 2000 meqavat külək enerjisi potensialına malikdir. Daxili su ehtiyatlarımızın 25 faizi də həmin ərazilərdə formalaşır.

Dövlət başçısı bunları vurğulayaraq demişdir: "Hazırda iki stansiya inşa edilir - 470 meqavatlıq günəş və külək. Üçüncü stansiyanın inşası yaxın vaxtlarda başlayacaq, o da bizə təqribən 240 meqavat əlavə güc verəcək. Hazırda xarici investorlarla imzalanmış sənədlər əsasında 25 qiqavata qədər günəş və külək-elektrik enerjisi stansiyalarının inşası nəzərdə tutulur - böyük hissəsi Xəzər dənizində, bir neçəsi isə quru sahələrdə. Yəni bu, doğrudan da, çox böyük potensialdır və təkcə Xəzər dənizinin külək enerjisi potensialı 157 qiqavata bərabərdir".

Hədəflərimiz bu yaxınlarda Bakıda keçirilən Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşündə iştirakla əlaqədar ölkəmizdə səfərdə olan BMT Baş Assambleyasının 77-ci sessiyasının prezidenti Tsaba Körösi ilə Energetika Nazirliyində keçirilən görüşdə də vurğulanıb. Görüşdə BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının 26-cı Sessiyasında bəyan edilmiş Azərbaycanda 2050-ci ilə qədər istixana qazı emissiyalarının 40 faizədək azaldılması və işğaldan azad olunmuş ərazilərdə xalis sıfır emissiya zonasının yaradılması kimi yeni hədəflərə doğru atılan addımlar diqqətə çatdırılıb.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# *Moratinos:* "Azərbaycan beynəlxalq proseslərdə fəal, qabaqcıl rol oynayır"



Martın 10-da Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə ölkəmizdə səfərdə olan BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Anxel Moratinos ilə görüşüb.

QMİ-nin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Qafqaz Müsəlmanları İdarəsi ilə BMT-nin Sivilizasiyalar Alyansı arasında əlaqələrin yüksək səviyyəsindən məmnunluq ifadə olunub.

Migel Anxel Moratinos Azərbaycana hər səfərinin, burada görüşlərinin onun üçün xüsusi önəm kəsb etdiyini vurğulayıb. X Bakı Qlobal Forumunun qonağı olan ali nümayəndə Azərbaycanın evsahibliyi etdiyi bütün beynəlxalq tədbirlər kimi, budəfəki forumun da yüksək səviyyədə və aktual mövzu ətrafında keçirilməsini yüksək dəyərləndirib. Azərbaycan dövlətinin bu proseslərdə fəal, qabaqcıl rol oynadığını xüsusi vurğulayan Sivilizasiyalar Alyansının ali nümayəndəsi dövlətimizin başçısının bu istiqamətdə qlobal səylərinin böyük əhəmiyyət kəsb etdiyini xüsusi vurğulayıb.

Dinlərarası dialoqun dünya miqyasında önəm və əhəmiyyətindən ətraflı danışan Moratinos müasir dönəmdə bunun xüsusi aktuallıq və zərurət xarakteri daşıdığını ifadə edib. O, bu baxımdan QMİ sədrinin dünya miqyasında dinlərarası dialoq və əməkdaşlıq müstəvisində tanınmış dini lider kimi dəyərli xidmətlərinin olduğunu vurğulayıb. Azərbaycanın dini liderinin sülhyaratma yönündə onilliklər ərzində davam etmiş fəaliyyətinə toxunan ali nümayəndə bu səylərin aktuallığını qoruyub saxladığına diqqət çəkib.

Söhbət zamanı həmçinin Azərbaycanın BMT Sivilizasiyalar Alyansı ilə dinlərarası dialoq və əməkdaşlıq müstəvisində gələcək işbirliyi layihələri müzakirə olunub. Bildirilib ki, Azərbaycan dövlətinin mədəniyyətlər və sivilizasiyalar arasında dialoq və əməkdaşlıq mühitinin inkişafına real və dəyərli töhfələr verən dövlət kimi dünya birliyi üçün mühüm tərəfdaş ölkədir və bu əlaqələrin davamlı inkişafı və dərinləşməsi prioritetdir.

# Azərbaycanla Serbiya demoqrafiya sahəsində qabaqcıl təcrübələrin mübadiləsini həyata keçirəcək

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində ölkəmizdə səfərdə olan Serbiyanın ailə rifahı və demoqrafiya naziri xanım Dariya Kisiçin başçılıq etdiyi nümayəndə heyəti ilə görüş olub.

Əmək və əhalinin sosial müdafiəsi naziri, Azərbaycanla Serbiya arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın ölkəmiz tərəfindən həmsədri Sahil Babayev Azərbaycan və Serbiyanın dövlət başçılarının səyləri nəticəsində iki ölkənin əlaqələrinin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini bildirib.

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, keçən il Azərbaycan və Serbiyanın ticarət dövriyyəsində 17,9 faiz artım olduğu, ötən dövrdə imzalanan əməkdaşlıq sənədlərinin əlaqələrin yüksələn xətlə inkişafında əhəmiyyəti qeyd olunub. Ölkəmizdə son illər aparılan sosial islahatlar, beynəlxalq səviyyədə yüksək dəyərləndirilən DOST təcrübəsi, sosial xidmətlərin avtomatlaşdırılması sahəsində əldə olunan nailiyyətlər barədə məlumat verilib.



Azərbaycanda demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində aparılan dövlət siyasəti və əsas demoqrafik meyillərdən bəhs olunub. Ölkəmizdəki müsbət demoqrafik vəziyyət, əhalinin sabit artım tempinin mövcud olduğu və əhali proqnozlarının hazırlanması sahəsində aparılan işlər diqqətə çatdırılıb.

Xanım D.Kisiç Azərbaycana səfərinin xoş təəssüratlarını ifadə edib. Serbiyanın Azərbaycanla dost münasibətini və əlaqələri daim genişləndirmək əzmində olduğunu vurğulayıb. Görüşdə Azərbaycanın Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Serbiyanın Ailə Rifahı və Demoqrafiya Nazirliyi arasında əməkdaşlıq üçün hüquqi bazanın genişləndirilməsinin vacibliyi qeyd olunub.

Demoqrafiya sahəsində əlaqələrin dərinləşdirilməsi, bu sahədə qabaqcıl təcrübələrin mübadiləsi və nazirliklər arasında əməkdaşlıq sənədinin imzalanması məsələləri müzakirə edilib.

# Kanada mətbuatı Azərbaycan və İranda qadın hüquqlarını müqayisə edib

Kanadanın nüfuzlu "Thej.ca" yəhudi media platformasında "Azərbaycan qadınlarının vəziyyəti İran qadınlarının acınacaqlı vəziyyətini işıq illəri ilə qabaqlayır" sərlövhəli məqalə dərc olunub.

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a verilən məlumata görə, tanınmış israilli politoloq və jurnalist, Dona Qrasiya Diplomatiya Mərkəzinin təsisçisi və baş direktoru Reyçel Avrahamın qələmə aldığı məqalədə bildirilib ki, İranda 8 Mart - Beynəlxalq Qadınlar Gününə alternativ olaraq İslam peyğəmbərinin qızı Fatimənin doğum gününə təsadüf edən yanvarın 13-nü qeyd edirlər. Belə ki, Tehran mollalarının nəzərində dindar və itaətkar qadın bütün qadınlara örnək olmalıdır. Bununla belə, İslam tarixində özünəməxsus yeri olan şəxs kimi Fatimənin də ehtiramla yad edildiyi Azərbaycanda 8 Martın Beynəlxalq Qadınlar Günü kimi qeyd edilməsi uzunmüddətli ənənədir. Çünki Azərbaycan qadın hüquqlarına gəldikdə, İranı işıq illəri ilə qabaqlayır.

Eyni zamanda qeyd olunub ki, İran İslam Respublikasında 22 yaşlı Məhsa Əmini və saysız-hesabsız digər qızların hicabı düzgün geyinmədikləri üçün öldürülməsi bu ölkədə kütləvi etiraz hərəkatına səbəb olduğu halda, Azərbaycanda qadınlar geyim seçimində tam sərbəstdirlər. Habelə İran parlamentinin cəmi altı faizinin qadınlardan ibarət olması sözügedən ölkənin siyasi gələcəyində qadınları söz sahibi olmaqdan məhrum etdiyi halda, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti və Azərbaycan Milli Məclisinin Sədri zərif cinsin nümayəndələridir. Ümumilikdə Azərbaycan parlamentinin 18 faizini qadınlar təşkil edir ki, bu rəqəm qonşu İranla müqayisədə üç dəfə böyükdür.

Məqalədə diqqətə çatdırılıb ki, keçən ilin dekabrında İran BMT-nin Qadınlar Komissiyasından 29 səs çoxluğu ilə kənarlaşdırılıb. Bu, BMT-nin 10-14 yaş arası qızların nikaha daxil olması, məişət zorakılığından zəif qorunma və qadınlar üçün hüquqi muxtariyyətin olmaması səbəbindən iranlı qadın və qızlara "ikinci dərəcəli vətəndaş kimi" münasibət göstərildiyinin qeyd olunduğu hesabatın dərc olunmasından sonra baş verib.

Qeyd edilib ki, çoxarvadlılığın, habelə sərbəst hərəkət, nikah və mülkiyyət hüquqlarında qadınlara münasibətdə diskriminasiyanın qanuniləşdirildiyi İrandan fərqli olaraq, Azərbaycanda poliqamiya qanunla qadağan edilib, sözügedən digər məsələlərdə ölkəmizdə zərif cinsin nümayəndələri 1918-ci ildən etibarən kişilərlə bərabər hüquqlardan faydalanırlar. Müəllif bu mənada Azərbaycanın qadın hüquqları baxımından İranı işıq illəri ilə qabaqladığını bir daha vurğulayıb.

Məqalənin sonunda İran qadınlarının Tehrandakı molla rejiminin zülmündən qurtulacağına ümid bəslədiyini bildirən israilli politoloq Cənubi Azərbaycanın istiqlala qovuşacağına və bu qəddar, barbar rejimin insanlığa qarşı törətdiyi cinayətlərə görə ədalət mühakiməsi qarşısında cavab verəcəyinə dərin inamını ifadə edib.

# NATO-nun nümayəndə heyəti "N" saylı hərbi hissəni ziyarət edib





Ölkəmizdə rəsmi səfərdə olan NATO-nun Quru Qoşunları Komandanlığının qərargah rəisi general-leytenant Mustafa Oğuzun rəhbərlik etdiyi nümayəndə heyəti "N" saylı hərbi hissəni ziyarət edib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin hərbi hissənin ərazisindəki abidəsi ziyarət edilib, önünə gül dəstələri qoyulub.

Qonaqlara hərbi hissənin tarixi, əsas fəaliyyət istiqaməti, eləcə də NATO-Azərbaycan əlaqələri haqqında brifinq təqdim olunub, ikitərəfli əməkdaşlığın inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

Sonra hərbi hissənin silahlanmasında olan döyüş vasitələri ilə tanış olan nümayəndə heyətinə onların taktiki-texniki göstəriciləri haqqında ətraflı məlumat verilib. Sonda qarşılıqlı hədiyyələr təqdim olunub, xatirə şəkli çəkdirilib.

# İrəvan təşvişdədir:

## Paşinyan Ermənistanı yeni müharibəyə aparır

Son günlər Ermənistanda iqtidar və müxalifətin biri-birinə qarşı hücumlarının daha radikal xarakter alması müşahidə edilir. Müharibədki məğlubiyyətdən sonra Ermənistanda keçmiş hakimiyyətin nümayəndələri baş nazirə qarşı şiddətli hücum başladıblar.

Onlar Paşinyanı hakimiyyətdə olduğu son beş il ərzində Qarabağa dair "nəsə gizli plan qurmaqda" günahlandırır və yekunda təslim olma aktını imzaladığına görə satqın, xain damğası vururlar. Son vaxtlar isə sülh müqaviləsinin imzalanmasının gündəmdə olduğu bir zamanda baş nazirin Ermənistanı yeni müharibəyə aparacağına dair fikirlər səsləndirirlər.

Ermənistan müdafiə nazirinin keçmiş müavini Artak Zakaryan diqqətçəkən açıqlamalar verib. O, yeni genişmiqyaslı müharibəyə hazırlığın getdiyini iddia edib. Bildirib ki, əgər erməni xalqı payıza qədər Nikolu hakimiyyətdən uzaqlaşdıra bilməsə və ya istəməsə, 2024-cü ildə yeni genişmiqyaslı müharibə çağırışını qəbul etməli olacaq.

Zakaryanın fikrincə, həyat artıq erməni xalqına sübut edib ki, müharibələrin səbəbi Qarabağ və Zəngəzur, Cermux və ya Sotk mədənləri ilə bağlı amillər deyil, məhz Nikoldur. İndi bu sadə həqiqəti yalnız cahillər başa düşmürlər: "Məğlubiyyət və təslimçilik simvoluna çevrilən Nikol artıq qulağına qədər danışıqlar bataqlığına batıb. Hansı ki, burada onun heç bir dayağı yoxdur. Serj Sarkisyanın da düzgün təsvir etdiyi kimi, Nikol hazırda danışıqlar aparmır. O, müxtəlif təsir mərkəzlərinin təzyiqi altındadır, mübahisəli və çox vaxt təlaşlı siyasət yürütməyə məcburdur. Nəticədə baş nazir Qarabağ ermənilərinin və Ermənistanın minimal maraqlarını güdərək, bütün mümkün istiqamətlərdən boyun qaçırdı. Sülh proqramı ilə bağlı zaman isə tükənir. Sülhə nail olmaq üçün məhdud resurslar da tükənir".

O deyib ki, artıq Nikolun düşüncəsiz "diplomatik" manevrləri və "siyasi" tvitləri də yoxdur. Onlar erməni xalqının ziyanına olub və indi də belədir: "Hətta 2021-ci ilin yayında Ermənistanın Qarabağ və ölkəmizin təhlükəsizliyi, davamlı sülh ilə bağlı danışıqlar mövqeləri indikindən daha əlverişli idi. Həmin ildə Nikolu yenidən seçən Ermənistan layiqli sülh əldə etmək imkanından məhrum oldu. Üstəlik, bu adamın sayəsində İrəvan yeganə strateji müttəfiqini, digər beynəlxalq tərəfdaşlarını və dəstəkçilərini itirir. Əvəzində Azərbaycan onu dəstəkləyən ölkələrin dairəsini genişləndirir".

Xatırladaq ki, martın 1-də Ermənistan xarici işlər nazirinin keçmiş müavini Artak Apitonyan da yeni müharibə anonsu vermişdi.

"4rd.am" saytı isə yazır ki, Nikol Paşinyan hakimiyyəti günbəgün öz mövqelərini və sosial dayaqlarını itirməyə başlayıb. Bildirilib ki, anti-Rusiya siyasəti hakimiyyətin mövqelərini düşünüləndən daha sürətlə sıradan çıxaracaq. Məlumata görə, Rusiya Paşinyana ciddi sürprizlər etməyi planlaşdırır. Nəşr yazır ki, bu sürprizin hansı format və növdə olacağını öyrənə bilməyiblər, çünki proses hələ müzakirə mərhələsindədir və buna ciddi hazırlıq işləri davam edir.

Nikol Paşinyan anti-Rusiya mövqeli şəxsdir. Məsələ ondadır ki, bu şəxsin bütün fəaliyyəti müddətində antirus mövqeyi əsas xətt kimi keçib. O, dəfələrlə ölkənin Rusiyadan həddən ziyadə asılılığını qabardıb. Pik nöqtə isə onun rəhbərlik etdiyi blokun Ermənistanın Avrasiya İqtisadi İttifaqından və Gömrük İttifaqından çıxması barədə hazırladığı qanun layihəsi olmuşdur. Elə bunu nəzərə alan qüvvələr onu hakimiyyətə gətirmişdilər. İndi isə anti-Rusiya mövqeyi sərgiləməsi fonunda Rusiyameyilli qüvvələr onu hakimiyyətdən uzaqlaşdırmaq üçün bütün vasitələrə əl atırlar.

Görünən odur ki, Ermənistanda daxili siyasi vəziyyət tədricən mürəkkəbləşməyə doğru gedir. Bununla da ölkə sonu görünməyən daxili siyasi böhrana yuvarlanır.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Vətəndaş cəmiyyəti nümayəndələri və ictimai fəallar ekoloji cinayətə və qanunsuz istismara etirazlarını davam etdirirlər

## Ceyhun Bayramovun BMT Baş katibinə ünvanladığı məktub Təhlükəsizlik Şurasının və Baş Assambleyanın sənədi kimi yayılıb

Xarici işlər naziri Ceyhun Bayramovun Beynəlxalq Ədalət Məhkəməsinin İrqi Ayrı-Seçkiliyin Bütün Formalarının Ləğv Edilməsi haqqında beynəlxalq Konvensiyanın tətbiqi ilə bağlı məhkəmə işləri üzrə 2023-cü il 22 fevral tarixli qərarı ilə bağlı BMT Baş katibinə 27 fevral tarixində ünvanladığı məktub Təhlükəsizlik Şurasının və Baş Assambleyanın sənədi kimi yayılıb.




Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, məktubda Beynəlxalq Ədalət Məhkəməsinin qərarları şərh olunur və Ermənistanın əvvəlki qərar üzrə pozuntuları diqqətə çatdırılır.

Bir qrup azərbaycanlı ekofəalın Xankəndi-Laçın yolunda keçirdiyi etiraz aksiyalarının, guya, "Azərbaycan hökuməti tərəfindən təşkil olunduğu" və "Azərbaycanın təbii qazın və sair kommunal xidmətlərin (məsələn, elektrik enerjisi və internet) verilməsinə mane olduğu" barədə Ermənistanın iki əsas iddiasının məhkəmə tərəfindən rədd edilməsi faktı məktubda diqqətə çatdırılır.

Beynəlxalq Ədalət Məhkəməsinin, guya, Ermənistanın vəsatətini təmin etdiyi barədə əsassız iddia ilə bağlı məktubda vurğulanır ki, məhkəmənin müvəqqəti tələbi Ermənistanın tələbi ilə eyni deyil və məhkəmənin qənaəti budur ki, Azərbaycan Laçın yolunda "fasiləsiz hərəkəti təmin etmək..." deyil, yalnız "öz ixtiyarında olan bütün tədbirləri görməlidir". Məhkəmə eyni zamanda Ermənistanın yolboyu hərəkətin "sərbəst" olması və "bütün" şəxslər, yük və nəqliyyat vasitələri üçün təmin olunması ilə bağlı iddiasını da qəbul etməyib. Bununla da Laçın yolu ilə hərəkətin heç bir nəzarət olmadan həyata keçirilməsinin qeyri-məqbul olduğu barədə Azərbaycanın mövqeyi dolayısı yolla məhkəmənin qərarında nəzərə alınıb.

Bu qərar bir daha sübut edib ki, Azərbaycan hökuməti vətəndaş cəmiyyəti nümayəndələrinin Laçın yolunda etiraz aksiyası ilə bağlı heç bir məsuliyyət daşımır və onların legitim etiraz hüquqlarının qarşısının alınmasına məcbur edilə bilməz. Bununla yanaşı, məhkəmə Ermənistanın yoldan "azad istifadə" etmə tələbini dəyişdirməklə, əslində, Laçın yolundan hərbi və iqtisadi məqsədlər üçün sui-istifadə edilməsinə qarşı olduğunu diqqətə çatdırıb.

Məktubda Laçın yolundan sui-istifadə halları diqqətə çatdırılır və Azərbaycanın səlahiyyətləri çərçivəsində yoldan istifadənin təhlükəsizliyinə zəmanət verdiyi, nə Azərbaycan hökumətinin, nə də etirazçıların yolda hərəkətə maneçilik törətmədikləri vurğulanır. Məktubda həmçinin Beynəlxalq Qırmızı Xaç Komitəsinin və Rusiya sülhməramlı kontingentinin avtomobillərinin keçidi barədə məlumat təqdim olunur, 3000-dən çox avtomobilin yoldan istifadəsinin "blokada" və "gərgin humanitar" vəziyyət barədə iddiaların əsassız olduğunu sübut etdiyi bildirilir.

Laçın yolundan istifadənin qanuni və şəffaf olması, yoldan sui-istifadə hallarına yol verilməməsi, bu səylərin tərkib hissəsi kimi, Laçın yolunun başlanğıcında sərhəd nəzarət-keçid məntəqəsi yaradılması təklifi məktubda xüsusi olaraq vurğulanır. Ermənistanın bu təklifdən heç bir əsas gətirmədən imtina etməsinin Ermənistanın Laçın yolunda şəffaflıqda maraqlı olmadığını və sui-istifadə hallarını davam etdirmək niyyətinin göstəricisi olduğu diqqətə çatdırılır.

Azərbaycan Respublikası xarici işlər nazirinin BMT Baş katibinə məktubunda Ermənistanın Beynəlxalq Ədalət Məhkəməsinin 2021-ci il 7 dekabr tarixli qərarını hələ də yerinə yetirmədiyi xatırlanır. Belə ki, Ermənistanın məhkəmənin qərarına zidd olaraq ərazisində Azərbaycana qarşı etnik zəmində nifrət və ayrı-seçkilik aşılanmasının qarşısını almadığı, VoMA və POGA kimi hərbiləşmiş qruplaşmaları ləğv etmədiyi məktubda qeyd olunur.

## Aksiya iştirakçıları ekoloji cinayətlərə son qoyulmasını tələb edirlər

Qarabağ iqtisadi rayonunda faydalı qazıntı yataqlarının qanunsuz istismarına qarşı Xankəndi-Laçın yolunda keçirilən etiraz aksiyası üç aya yaxındır ki, davam edir.




Havanın qarlı və şaxtalı olmasına baxmayaraq, aksiya iştirakçıları yüksək fəallıq nümayiş etdirirlər. Təhlükəsizlik qaydalarına əməl olunan toplanış yerində bu günədək heç bir insident baş verməyib. Həmişə olduğu kimi, etirazçılar səhəri Azərbaycan Dövlət Himninin səsləndirilməsi ilə açırlar. Onlar haqlı etirazlarını yüksək əhvali-ruhiyyə ilə davam etdirirlər.

Ekofəallar yolun hər iki tərəfində, hərəkətə maneə törətmədən üzərində Azərbaycan, rus və ingilis dillərində yazılmış plakatlar qaldırıb, şüarlar səsləndirirlər. Aksiya iştirakçılarının tələbləri ilk gündən olduğu kimi dəyişməz olaraq qalır. Etirazçılar dünya ictimaiyyətini ekologiyanı qorumağa çağırırlar. Belə ki, ekofəallar və könüllülər "Azərbaycan oyaqdır, sərvətinə dayaqdır!", "Azərbaycan vahiddir, sərvətinə sahibdir!", "Ekoloji cinayətə son!", "Stop ekoterror!", "Bereqite prirodu!" şüarlarını səsləndirirlər.

Bu günlərdə Azərbaycan Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə Bakıda keçirilən və uğurla başa çatan X Qlobal Bakı Forumunun iştirakçısı Səudiyyə Ərəbistanının Kral Faysal İslam Araşdırmalar Mərkəzinin İdarə Heyətinin sədri Şahzadə Türki Al Faysal Al Said mətbuata açıqlamasında Laçın-Xankəndi yolunun Şuşa ərazisindən keçən hissəsində təşkil olunmuş ekoaksiyaya münasibət bildirərək deyib: "Təbii ehtiyatlar Allahın insanlara bəxş etdiyi nemətdir. Əgər insanlar bu təbii neməti qorumurlarsa, onlardan faydalanmaq imkanını itirəcəklər. Əgər hər hansı faydalı qazıntı yatağında qeyri-qanuni istismar aparılırsa, bu, dərhal dayandırılmalıdır. Bununla bağlı etirazların keçirilməsi bu məsələyə diqqət cəlb olunmasına və həmin qeyri-qanuni işlərin dayandırılmasına kömək edə bilər".

Şahzadə Türki Al Faysal Al Said daha sonra qürurla bildirib ki, 30 illik işğaldan azad edilmiş Şuşada törədilmiş dağıntılardan sonra yenidənqurma işlərinin rahat şəkildə həyata keçirilməsi üçün şəhər sülh, əmin-amanlıq içərisində yaşamağa layiqdir və yaşamalıdır.

Təəccüb doğuran odur ki, dünyanın tərəqqipərvər dövlətləri, əmin-amanlıq arzulu insanları Ermənistanı sülhə, sabitliyə səsləsələr də, onlar terrordan, işğalçılıq siyasətindən, ekoloji cinayətdən əl çəkmək istəmirlər. 44 günlük Vətən müharibəsində biabırcasına məğlubiyyətə uğrayan Ermənistanın işğalçı ordusu, habelə Ermənistan hakimiyyəti 2020-ci il noyabrın 8-də imzalanan sülh sazişini pozmağa cəhd göstərir. Gizli yollarla Qarabağa silah-sursat, döyüş texnikası gətirməkdə davam edirlər.

Ümumiyyətlə, müstəqillik qazanan dövrdən beynəlxalq hüququn norma və prinsiplərinə zidd olaraq Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinə qarşı hərbi təcavüz və kütləvi qırğınlar törədən, şəhərləri və yüzlərlə kəndi viran qoyan, azərbaycanlılara qarşı etnik təmizləmə həyata keçirən, yüz minlərlə əhalini öz doğma torpaqlarından zorla çıxaran Ermənistanın Azərbaycanın, guya, bölgənin erməni sakinlərinə qarşı "etnik təmizləmə" həyata keçirməyə hazırlaşdığı iddiası absurddur.

Ermənistanın Xarici İşlər Nazirliyi bütün dünyaya yalandan çatdırmaq istəyir ki, guya, Azərbaycan ərazilərində Ermənistan Silahlı Qüvvələri mövcud deyil. Bəs sərhəd bölgələrində, elə Xocalının, Xankəndinin içində terror törədən, sadə erməni əhalisinin azərbaycanlılarla birgəyaşayış istəklərinə mane olanlar kimlərdir? Xatırladırıq ki, Ermənistan nəinki indi, 30 ilə yaxın işğal dövründə belə Azərbaycan ərazilərini işğal etmədiklərini sübut etməyə çalışırdı.

Bununla yanaşı, Ermənistanın siyasi rəhbərliyinin erməni silahlı qüvvələrinin Azərbaycan ərazisindən çıxarılmadığını etiraf etdiyi də məlumdur. Habelə qüvvələrin 2022-ci ilin sentyabr ayında çıxarılacağı bəyan edilsə də, bunun hələ də baş vermədiyi bəllidir. Azərbaycan ərazisindən hansı qüvvələrin çıxarılması barədə öhdəliyə gəldikdə isə, bir daha xatırladırıq ki, 10 noyabr 2020-ci il Bəyanatının 4-cü bəndinə əsasən, məhz bütün erməni silahlı qüvvələrinin Azərbaycan ərazisindən çıxarılması nəzərdə tutulur və bu məsələdə manipulyasiyalar yolverilməzdir.

Ermənistanın Azərbaycana qarşı qeyri-qanuni əməllərinin qarşısının alınması məqsədilə Laçın yolunun girişində sərhəd-nəzarət keçid məntəqəsi yaradılması zamanın tələbi və Azərbaycanın daxili işidir. Heç şübhəsiz ki, Azərbaycan bundan sonra da öz milli maraqlarının və təhlükəsizliyinin müdafiəsi məqsədilə bütün lazımi tədbirləri görməyə davam edəcək.

Xatırladaq ki, Azərbaycanın Qarabağda yaşayan sadə erməni əhali ilə heç bir problemi yoxdur. Bu barədə Prezident İlham Əliyev dəfələrlə bəyanat verib. Rəsmi Bakı Xankəndidəki ermənilərin təhlükəsizliyini təmin etməyə hər an hazırdır. Hətta dövlət başçısının tapşırığı ilə Azərbaycan Respublikasının Qarabağ bölgəsində yaşayan erməni sakinlərlə təmaslar üzrə məsul şəxs qismində müəyyən edilmiş millət vəkili Rasim Məmmədov martın 1-də erməni sakinlərin təmsilçiləri ilə görüşüb. Beynəlxalq hüquqa və respublikamızın Konstitusiyasına əsasən sakinlərin Azərbaycana reinteqrasiyası üzrə məlumat verilib.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

## *Laçın-Xankəndi yolu:*
## Ekoaksiya 90 gündür davam edir



Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarının dayandırılmasını, "Qızılbulaq" və "Dəmirli" yataqlarında monitorinqin keçirilməsinə icazə verilməsini tələb edən azərbaycanlı könüllü gənclər və ekoloqlar tərəfindən Laçın-Xankəndi yolunun Şuşa ərazisindən keçən hissəsində təşkil olunan etiraz aksiyası 90 gündür davam edir.

AZƏRTAC xəbər verir ki, havanın soyuq olmasına baxmayaraq, hazırda aksiya iştirakçılarının Laçın-Xankəndi yolunda fəallığı müşahidə olunur. İştirakçılar səhər saatlarında Azərbaycanın Dövlət Himnini səsləndiriblər.

Qeyd edək ki, aksiya iştirakçıları Qarabağda faydalı qazıntı yataqlarının qanunsuz istismarının dayandırılması ilə bağlı Azərbaycan, rus və ingilis dillərində mütəmadi olaraq plakatlar qaldırır, "Azərbaycan oyaqdır, sərvətinə dayaqdır!", "Ekoloji cinayətə son!" və sair şüarlar səsləndirirlər. Aksiya iştirakçıları tələbləri yerinə yetirilməyənədək etirazlarını davam etdirəcəklərini bildirirlər.

Xatırladaq ki, ötən il dekabrın 3-də və 7-də Rusiya sülhməramlı kontingentinin komandanlığı ilə aparılmış müzakirələrin nəticəsi olaraq Azərbaycanın İqtisadiyyat, Ekologiya və Təbii Sərvətlər nazirlikləri, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin mütəxəssislərindən ibarət heyət Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarı, bundan irəli gələn ekoloji və digər fəsadlarla bağlı ilkin monitorinq aparmalı idi. Lakin sülhməramlıların hərəkətsizliyi ucbatından monitorinq baş tutmayıb. Buna etiraz olaraq azərbaycanlı ekofəallar Şuşa ərazisindən keçən Laçın-Xankəndi yolunda dekabrın 12-dən dinc aksiyaya başlayıblar.

## Ermənistan sonuncu faciəni yaşaya bilər

Ermənistan hökuməti müxtəlif bəhanələrlə üçtərəfli Bəyanatın şərtlərini yerinə yetirməkdən imtina edir. Azərbaycanın tirəli sürdüyü sülh təklifini imzalamır. Danışıqlar prossesini müxtəlif bəhanələrlə pozur. Vaxt udmaq üçün "erməni oyunu" oynayır. Azərbaycanın qəbul etməyəcəyi "sülh gündəliyi"ni masaya çıxarmağa cəhd edir.

Üçtərəfli Bəyanatın şərtlərinə zidd olaraq Ermənistan ordusunun qalıqlarını Qarabağdan çıxarmır. Eyni zamanda Qarabağa silah-sursat daşıyır. Sərhədlərin delimitasiya və demarkasiyasını əngəlləyir. Məsələ burasındadır ki, Ermənistanın etdikləri bununla bitmir. Rəsmi İrəvan qəsdən regionda gərginlik yaratmaqla, təxribat törətməklə siyasi gündəmi "zəbt etməyə" çalışır. Elə bu məqsədlə də real təhlükəni bildiyi halda nümayişkaranə surətdə təxribatlara əl atır, sərhəd pozuculuğu edir. Öz çirkin niyyətlərini reallaşdırmaq üçün yüksəkrütbəli hərbçilərini belə qurban verməkdən çəkinmir. Ermənistanın hərbi-siyasi dairələrinin istəyi də budur ki, Qarabağ probleminin həll olunmadığı görüntüsü yaratsın, "hər an müharibə ola bilər" fikrini formalaşdırsın və diqqəti özlərinə cəlb etsinlər. Eyni zamanda məğlub Ermənistanın məqsədi Qarabağ probleminin həllini beynəlxalq müstəviyə çıxararaq sülh prosesini illərlə uzadıb yenidən güc toplamaqdır.

Ermənistanın sülh istəmədiyi, daha çox vaxt udmağa, revanş götürməyə çalışdığı açıq-aydın görünməkdədir. Düşmən ölkəyə bu gün rəhbərlik edənlər yaxşı başa düşürlər ki, Ermənistanın eks-prezidenti Serj Sarkisyanın təbrincə desək, "dərəyə yuvarlanmış Ermənistan ordusu" ilə bu gün müharibə etmək mümkün deyil. Ona görə çalışırlar ki, Qarabağ beynəlxalq güclərin savaş meydanına çevrilsin. Əslinə qalsa bu ideyanı Qərbdən gəlmə də hesab etmək olar. Qərb dövlətləri, xüsusilə Fransa Qarabağ kartından istifadə etməklə Cənubi Qafqazdakı proseslərə müdaxilə etməyə çalışır. Rusiyada da yaxşı başa düşürlər ki, Qərbin müdaxiləsi onun Qafqazda hərbi-siyasi məğlubiyyəti deməkdir. Görünən budur ki, Cənubi Qafqazda hərbi-siyasi gərginlik yenidən ən yüksək həddə çatıb.

Təbii ki, Cənubi Qafqaz uğrunda mübarizədə ABŞ də iştirak edir. Lakin Ağ Evin məsələyə münasibəti hələlik daha mötədil və konstruktiv görünür. ABŞ Dövlət Departamentinin Cənubi Qafqaz üzrə baş müşaviri Lui Bono ölkəmizə səfəri zamanı bildirdi ki, Azərbaycan Prezidenti İlham Əliyevin Minsk qrupu ilə bağlı mövqeyindən məlumatlıdır. Yəni amerikalı diplomat demək istəyir ki, ABŞ Azərbaycan liderinin "Minsk qrupu fəaliyyətini dayandırıb" tezisinə həssas yanaşır və buna qarşı çıxmır.

Maraqlıdır ki, Prezident İlham Əliyevlə görüşdə ABŞ Dövlət Departamentinin Cənubi Qafqaz üzrə baş müşaviri L.Bono daha bir önəmli məqama toxunub. Amerikalı diplomat ABŞ-nin Laçın yolu ətrafında yaranmış vəziyyətlə bağlı Azərbaycanın təhlükəsizlik maraqlarını başa düşdüyünü qeyd edib.

Xatırladaq ki, Münhen görüşü zamanı Azərbaycan Prezidenti İlham Əliyev Laçın yolunda nəzarət-buraxılış məntəqəsinin yaradılmasının zəruriliyini vurğulayıb. İstər Qərb dövlətləri, istərsə də ABŞ siyasi dairələri dövlətimizin başçısının beynəlxalq hüquq normalarına uyğun olan bu təklifini normal qarşılayıblar. Artıq Ağ Evdən verilən mesajlar deməyə əsas verir ki, ABŞ rəsmi Bakının bu niyyətinə qarşı deyil. Ermənistanın Azərbaycanın xoş niyyətindən istifadə edərək onlara humanitar məqsədlər üçün verilmiş Laçın yolundan hərbi məqsədlərlə istifadə etməsi, eləcə də üçtərəfli Bəyanatda göstərilməyən yollarla Qarabağa hərbi silah-sursat daşıması və martın 5-də Azərbaycan Ordusu tərəfindən bu təxribatın qarşısının qətiyyətlə alınması deməyə əsas verir ki, yaxın zamanlarda Laçın yolunda Azərbaycanın Konstitusiyasına və beynəlxalq qanunlara uyğun olaraq Ermənistanla sərhəddə nəzarət-buraxılış məntəqəsi yaradılacaq.

Ermənistan özünün qazdığı quyuya düşüb. Ermənistanın məqsədi Laçın yolunun bağlanması görüntüsünü yaradıb Azərbaycana təzyiq etmək idi. Laçın yolunda sərhəd nəzarət-buraxılış məntəqəsinin yaradılması haqqında Azərbaycan Prezidentinin Münhendə verdiyi təklif Ermənistanın əlindən bu bəhanəsini də almış oldu.

Görünən budur ki, Azərbaycan Ordusu ərazilərimizə tam nəzarət edir. Martın 5-də baş verən insident deməyə əsas verir ki, bundan sonra da sərhədlərimizi pozanların, torpaqlarımıza pis niyyətlə ayaq basanların qarşısı qətiyyətlə alınacaq. Qarabağda ermənilərin yaşamasının yeganə yolu Azərbaycan qanunlarına əməl etməkdir. Yox, əgər Ermənistan rəhbərliyi yenidən ağlını itirib müharibə etmək niyyətinə düşərsə, bu onun sonuncu faciəsi olar.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

## Avtomobillər maneəsiz keçib



Rusiya sülhməramlılarına məxsus avtomobillər Laçın-Xankəndi yolunda dinc aksiya keçirilən ərazidən maneəsiz hərəkət edirlər.

Xankəndidən Laçın istiqamətinə doğru hərəkət edən Rusiya sülhməramlılarına məxsus üç təminat və beş minik avtomobilinin aksiya ərazisindən maneəsiz keçidinə şərait yaradılıb.

* * *

Xankəndidən Laçın istiqamətinə doğru hərəkət edən Rusiya sülhməramlılarına məxsus 29 təminat-təchizat və üç minik avtomobilinin aksiya ərazisindən maneəsiz keçidinə şərait yaradılıb. Bundan əlavə, sülhməramlıların bir minik avtomobili də Xankəndiyə gedib.

* * *

Ekoaksiyanın iştirakçıları martın 10-da Beynəlxalq Qırmızı Xaç Komitəsinə (BQXK) məxsus avtomobillərin Xankəndidən Laçın istiqamətinə maneəsiz keçidinə şərait yaradıblar.

Xankəndidən Laçın istiqamətinə doğru hərəkət edən BQXK-yə məxsus səkkiz minik və bir yük avtomobilinin aksiya keçirilən ərazidən sərbəst hərəkəti təmin olunub.

Bu bir daha onu göstərir ki, aksiya iştirakçıları humanitar məqsədlərlə istifadə olunan avtomobillərin hərəkətinə heç bir maneə törətmirlər. Ermənistan mətbuatında yayılan və etirazçıların, guya, Xankəndi-Laçın yolunu bağladıqları və təminat avtomobillərini buraxmadıqları ilə bağlı xəbərlər qarşı tərəfin növbəti dezinformasiyasıdır.

***AZƏRTAC***



# REGİONLAR

## Almaniyanın Azərbaycandakı səfiri Gəncə Dövlət Universitetində olmuşdur

**Almaniya Federativ Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Ralf Horlemann Gəncəyə səfəri çərçivəsində Gəncə Dövlət Universitetində olmuşdur.**



Səfirlə keçirilən görüşdə universitetin rektoru, professor Yusif Yusibov respublikamızın qərb bölgəsində fəaliyyət göstərən ən qocaman ali təhsil ocağı haqqında ətraflı məlumat vermiş, universitetin beynəlxalq əlaqələrindən, eləcə də ali təhsil ocağının Alman Akademik Mübadilə Xidməti ilə (DAAD) əməkdaşlığından, bu sahədə əldə edilən uğurlardan danışmışdır.

Səfir Ralf Horlemann Gəncə Dövlət Universitetində alman dilinin tədris edilməsini və tələbələrin bu dilə olan marağını yüksək qiymətləndirərək universitet rəhbərliyinə təşəkkürünü bildirmiş və əlaqələrin bundan sonra da inkişaf etdirilməsi üçün dəstək verəcəyini diqqətə çatdırmışdır.

Sonra qonaq universitetin Xarici dillər fakültəsində alman şairi Yohan Volfqanq Höte adına auditoriya ilə yaxından tanış olmuş, burada fakültənin müəllimləri və alman dili müəllimliyi ixtisasında təhsil alan tələbələrlə görüşmüşdür.

Tələbələrin dil biliklərinin daha da inkişaf etdirilməsi üçün görülməsi vacib olan işlər barədə müzakirələr aparıldıqdan sonra səfir tələbələri maraqlandıran suallara cavab vermişdir.

***S.ƏLİYEV,***
***"Azərbaycan"***

## Kəndlinin çörəyi torpaqdan çıxır

### Əyilməsə, əli çatmaz



**Valideynlərimdən eşitmişdim ki, torpaq da canlıdır, qayğıkeşliyi sevir. Torpağa əyilən hər zaman ucalar. Mənim öz həyatım bu sözlərin nə qədər doğru olduğunu sübut edir.**

İlk vaxtlar fermer kimi fəaliyyətə başlayanda çətinliklərim çox oldu. Lakin qarşıma məqsəd qoydum və yorulmaq bilmədən çalışdım. Hazırda Tərtərin İsmayılbəyli kəndində 80 hektar sahədə toxumluq taxıl becərirəm. Nailiyyətlərimiz yüksəkdir. Təkcə ötən il hər hektardan 65 sentner birinci, 55 sentner 2-ci reproduksiyalı taxıl götürmüşük. Bu, orta rəqəmdir, halbuki ayrı-ayrı sahələrdə məhsuldarlıq daha yüksək olub.

Uğurlarımın səbəbi nədir sualına birmənalı belə cavab verərdim: "Dövlətimizin fermerlərə göstərdiyi qayğıkeşlik, yaratdığı şərait". Bu gün toxumluq taxıl becərən fermerlərə dövlət tərəfindən kvota ilə elit toxum verilir. Mən özüm əsasən "Qobustan" sortu seçirəm. Həm məhsuldardır, həm də becərilməsi zamanı problemlərlə rastlaşmırıq. Texnika sarıdan da çətinliklərimiz yoxdur. Dövlət aqrolizinq yolu ilə əldə etdiyimiz texnikanın qiymətinin müəyyən hissəsini özü ödəyir. Gübrələr isə pulsuz verilir. Üstəlik, becərdiyimiz məhsula görə subsidiyalar alırıq. Beləcə, bu dəstək hesabına həm rayonumuzun fermerlərini, həm də ətraf rayonlardan gələnləri yüksək məhsuldar toxumlarla təmin edirik. Və bununla hazırkı dönəmdə - dünyanın ciddi ərzaq qıtlığı ilə üz-üzə qaldığı bir vaxtda üzərimizə düşən vəzifənin məsuliyyətini anlayır və hər bir aqrotexniki tədbiri yüksək səviyyədə həyata keçirərək ölkəmizin taxıl ehtiyatlarının artırılmasına öz töhfəmizi verməyə çalışırıq.

Qeyd edim ki, təkrar əkindən istifadə etməyə başlamışıq. Ötən mövsüm biçindən dərhal sonra 40 sentner sahədə qarğıdalı əkdik və hər hektardan xeyli məhsul götürdük. Bu işdə müasir texnologiyadan və texnikadan istifadə etməklə təsərrüfatımızın gəlirlərini xeyli artıra bildik. Cari ildən təkrar əkini 50 hektarda aparmağı qərara almışıq.

Su məsələsinə gəldikdə, taxıl sahələrini əsasən subartezian quyularının vasitəsilə suvarırıq. 44 günlük Vətən müharibəsində əldə etdiyimiz qələbə nəticəsində hazırda Suqovuşandan arxlarımıza da su gəlir. Bu isə işlərimizi daha yüksək səviyyədə qurmağa kömək edir.

Taxılçılıqla yanaşı, baramaçılıqla da məşğul oluruq. 2016-cı ildə 12 hektar sahədə Çindən gətirilmiş çəkil tingləri əkib becərdik. 2017-ci ildə çinlilərin özləri tərəfindən keçirilən monitorinq zamanı işimiz bəyənildi və rayonumuz bu sahədə öndə oldu. Hazırda əlavə kümxana düzəldirik, çünki yaxşı yem bazamız var.

Rayon rəhbərliyindən də razıyıq. Onlar vaxtaşırı təsərrüfatımızda olur, işlərimizlə maraqlanır və lazımi dəstək verirlər. Tərtərə gələn xarici qonaqlar da iş təcrübəmizlə tanış olmaq üçün bizə müraciət edirlər.

***Mirzə CÜMŞÜDOV,***
***fermer***

*Made İn Azerbaijan*

## Şəmkirdəki istixanalarda yetişdirilən tərəvəzin ixracında problem yoxdur

**İxracyönümlü kənd təsərrüfatı məhsullarından olan pomidor və xiyar ölkəmizdə bu aylar əsasən istixanalarda becərilir. İstixana deyəndə isə yada ilk növbədə Şəmkir gəlir. Bu gün Şəmkirdə elə kənd, qəsəbə yoxdur ki, hektarlarla istixanaları olmasın. Hamısı da müasir.**



Şəmkirdə salınmış istixanalarda ekoloji cəhətdən təmiz, rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsulları yetişdirilərək həm daxili, həm də xarici bazarlara çıxarılır. Təkcə keçən il ümumi sahəsi 1030 hektar olan istixanalarda 301 min 978 ton tərəvəz məhsulları yetişdirilmişdir.

Rayonda müasir istixanalardan biri "AzAqro"MMC-dir. Tikintisinə 2013-cü ildə başlanan müəssisədə bir ildən sonra məhsul istehsalına başlanılmışdır. İspaniyadan gətirilmiş müasir texnologiyanın tətbiqi nəticəsində qurulan istixana üçün 3 hektar torpaq sahəsi ayrılmışdır. Məhsul istehsalında demək olar ki, əl əməyindən çox az istifadə olunur. Bütün proseslər, o cümlədən əkindən tutmuş becərməyə, suvarmaya, hava temperaturunun nizamlanmasına, hətta məhsulun ziyanvericilərdən qorunmasınadək bütün proseslər avtomatik idarə olunur. Hazırda burada 30 nəfər çalışır. İşçi heyətinin rəhbəri Nadir Məmmədzadə deyir ki, onlar üçün hər cür şərait yaradılmışdır. Soyunub-geyinmə və istirahət otaqları, hamam inşa edilmişdir. Hətta işçiləri gətirib aparmaq üçün iki avtobus da ayrılmışdır.

İstixana fəaliyyətə başlayandan burada çalışan İlkin Xəlilov, Səriyyə Quliyeva və Tünzalə Məmmədova da onlar üçün yaradılan şəraitdən razılıq etdilər. Dedilər ki, gündə bir dəfə pulsuz yeməklə təmin olunurlar. Aylıq əməkhaqları da pis deyil. 400 manatdan çox maaş alırlar.

Müəssisədə əsasən pomidor istehsal olunur. Yetişdirilən məhsulun bir hissəsi Rusiya bazarlarına ixrac edilir. Göndərilməsi mümkün olmayan pomidorun bir hissəsi isə 30 tonluq soyuducu anbarda saxlanılır. Hazırda istixanada məhsul yığılır. Yığılmış pomidor ixrac edilmək üçün çeşidlənib, xüsusi qutulara qablaşdırılır. Yeri gəlmişkən qeyd edək ki, istixanada istehsal olunan məhsulların xarici ölkələrə göndərilməsində heç bir problem yaşanmır. Bunun bir səbəbi də MMC-də yetişdirilən məhsulların ekoloji cəhətdən təmiz olmasıdır.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Naxçıvanlı alimin əsəri ABŞ-də nəşr edilmişdir

Elm və Təhsil Nazirliyi Naxçıvan Bioresurslar İnstitutunun "Meyvə, tərəvəz və üzümçülük" laboratoriyasının rəhbəri, aqrar elmlər doktoru, dosent Varis Quliyevin də həmmüəllif olduğu "Üzüm bitkisinin təkamülündə əlamətlərin mənşəyi və ikiqat əhliləşdirmə" adlı fundamental əsər ABŞ-nin "Üzüm bitkisinin genetikası, genom analizi və seleksiyası" adlı yüksək indeksli jurnalında dərc olunmuşdur.




Dünya miqyasında molekulyar genom analizi istiqamətində üzüm bitkisi üzrə tədqiqat aparan ayrı-ayrı ölkələrdən olan müəlliflərin kollektiv əsərində Naxçıvan bölgəsində 25-dən çox aborigen üzüm sortlarının molekulyar genom analizlərinin nəticələri də işıqlandırılmışdır. Həmin nəticələr V.Quliyevin rəhbərliyi ilə son illər aparılan elmi tədqiqatlar sayəsində aşkarlanmışdır.

Qeyd edək ki, bu, müəllifin xaricdə işıq üzü görən ilk elmi işi deyil. 2022-ci ildə Türkiyədə nüfuzlu "Üzümçülük üzrə tədqiqatlar" jurnalında Varis müəllimin həmmüəllif olduğu "Azərbaycanda bəzi üzüm sortlarının bioloji və morfoloji dəyişkənliklərinin öyrənilməsi" adlı əsər nəşr edilmişdir.

## Salyan Peşə Liseyi peşəsinə sadiqdir

### Liseydə 40-a yaxın gənc müxtəlif sahələr üzrə ixtisaslara yiyələnir

**Əvvəllər Salyanda iki peşə təhsili məktəbi fəaliyyət göstərirdi. 104 №-li texniki məktəb onlardan biri idi. Həmin təhsil ocağı keçən əsrin 50-ci illərində açılmışdı.**

Burada Salyan, Neftçala, Sabirabad, Biləsuvar və respublikanın digər rayonlarından olan gənclər təhsil alır, müxtəlif peşələrə yiyələnirdilər. Onların arasından adlı-sanlı kənd təsərrüfatı işçiləri, mexanizatorlar, sürücülər, ekskavatorçular, buldozerçilər, maşinistlər, elektriklər çıxmışdır.

Yaşlı nəslin nümayəndələrinin yaxşı yadındadır - həmin təhsil və peşə ocağında təhsil alanlara xüsusi geyimlər, yataqxana, pulsuz yemək, təqaüd verilirdi. O zamanlar SSRİ-nin müharibədən təzəcə çıxmasına baxmayaraq, həmin məktəblər ən yaxşı texnikalar və avadanlıqlarla təchiz edilmişdi. Həmin maşın və mexanizmlər köhnəlmiş olsa da, bu gün də qalmaqdadır.



1974-cü ildə Salyanda daha bir texniki peşə məktəbi - 76 saylı məktəb fəaliyyətə başladı. Burada da çoxlu sayda oğlan və qızlar müxtəlif peşələrə yiyələnirdilər. Sovetlər Birliyinin süqutundan bir neçə il sonra, daha dəqiq desək, 1996-cı ildə həmin məktəblər birləşdirilərək Salyan Peşə Liseyi yaradıldı. Təhsil ocağı hazırda keçmiş 76 saylı texniki peşə məktəbinin binasında yerləşir.

Vətən Müharibəsi Qəhrəmanı şəhid Sübhan Cəbrayılovun adını daşıyan liseydə bu gün 338 gənc təhsil alır və onların təlim-tərbiyəsi ilə 40-a yaxın müəllim-usta kollektivi məşğuldur. Liseydə 9 peşə - "Geniş profilli traktorçu-maşinist, təmirçi-çilingər, avtomobil sürücüsü", "Elektrik avadanlıqlarına xidmət və onların təmiri üzrə elekrtik montyoru", "Əməliyyatçı-mühasib", "Aqroservis mütəxəssisi", "Mebel ustası", "Əl elektrik qaynaqçısı", "Kompüter operatoru", "Heyvandarlıq mütəxəssisi", "Dərzi" ixtisasları üzrə 18 qrup fəaliyyət göstərir. Kurslar ixtisasdan asılı olaraq 6 aydan 3 ilə kimi zaman kəsiyini əhatə edir. Liseyin 63 hektar təlim-təcrübə sahəsi də var. Həmin sahə Çuxanlı kəndində yerləşir. Tələbələrin 55 nəfəri ödənişli, qalanları isə dövlət hesabına təhsil alırlar. Yaxşı oxuyanlara hər ay 80, qalan tələbələrə 66 manat təqaüd verilir.

"Bu günün şagirdi, tələbəsi sabahın ustasıdır" deyiblər. Çox çəkməyəcək, liseydə müxtəlif peşələrə yiyələnən gənc oğlan və qızlar əmək fəaliyyətinə başlayacaq, istehsalatın müxtəlif sahələrində çalışıb, nəyə qadir olduqlarını göstərəcəklər. Uğurlar olsun!



***Seyran CAVADOV,***
***"Azərbaycan"***

## Artıq ağalılar "yaşıl enerji"dən istifadə edirlər

**"İşğaldan azad edilmiş ərazilərdə enerji layihələrinin həyata keçirilməsi prioritet məsələlərdəndir. Regionun enerji ilə təmin edilməsi onun inkişafının əsasını yaradır".**

Bu sözləri Zəngilanda Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Prezidentin xüsusi nümayəndəsi Vahid Hacıyev deyib.

"Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında xəstəxana, məktəb, uşaq bağçası, yollar və digər infrastruktur layihələrinin icrası davam edir. Zəngilan Hava Limanı artıq fəaliyyət göstərir. Regionda "yaşıl enerji" zonasının yaradılması işi də davam edir. Cəbrayılda 240 meqavatlıq elektrik stansiyası istismara verilib ki, bu da regiona köçürülən əhalinin enerji ilə təmin olunmasında mühüm rol oynayır", - deyə Vahid Hacıyev bildirib.

Onun sözlərinə görə, Ağalı kəndinin 90 faizi artıq məskunlaşdırılıb: "Ağalı kəndində "yaşıl enerji"dən istifadə olunur. Burada tikilən evlərin üzərində günəş panelləri qurulub və kəndə köçürülən əhali ekoloji cəhətdən təmiz enerjidən istifadə edir".

## Şuşada tikilən yaşayış kompleksindəki işlər ilin sonunadək yekunlaşacaq



**"Şuşa şəhərinin Baş planına uyğun olaraq iki ilə yaxındır ki, irimiqyaslı işlər görülür. Bunlar əsasən, elektrik, su təchizatı, rabitə xətlərinin yenidən qurulması, sosial infrastrukturla əlaqəli işlərdir".**

Bu sözləri deyən Prezidentin Şuşa rayonu üzrə xüsusi nümayəndəsi Aydın Kərimov daha sonra bildirib ki, aparılan işlərin əsas məqsədi şuşalıların tez bir zamanda doğma yurdlarına geri qayıtmasıdır. Bunun üçün də bütün lazımi tədbirlər görülür: "Bununla bağlı ilk layihəyə start verilib. 23 binadan ibarət 450 mənzilli yaşayış kompleksi tikilir. Binalar 3, 4 və 5 mərtəbəlidir. Təxminən 8 hektar ərazidə işlər intensiv formada davam etdirilir. İl sonunadək bu layihənin bitməsi planlaşdırılır".

Prezidentin xüsusi nümayəndəsi onu da qeyd edib ki, tikinti Şuşanın tarixi və memarlıq üslubuna uyğun aparılır. Aydın Kərimov yaxın vaxtlarda yeni layihələrin də inşasına başlanılacağını vurğulayıb.

## Hacıqabul Sənaye Məhəlləsinə 25,3 milyon manat investisiya yatırılıb

**Hacıqabul Sənaye Məhəlləsində ümumi investisiya həcmi 51 milyon manatdan artıq olan 13 sahibkarlıq subyekti rezident kimi qeydiyyatdan keçib və bunlardan 8-i fəaliyyətə başlayıb.**

Bu barədə AZƏRTAC-a İqtisadi Zonaların İnkişafı Agentliyinin mətbuat katibi Elçin Kazımov deyib. O bildirib ki, Sənaye Məhəlləsinin rezidentləri minik avtomobillərinin, müxtəlif növ və ölçüdə polad şurupların, taxta məhsulların, plastik qabların, tikinti materiallarının, plastik taraların istehsalı və s. sahələr üzrə ixtisaslaşıb. Rezidentlər tərəfindən indiyədək dəyəri 44 milyon manata yaxın məhsul istehsal edilib. Bu günədək Sənaye Məhəlləsinə 25,3 milyon manat investisiya yatırılıb, mövcud layihələr üzrə əlavə olaraq 25,8 milyon manata yaxın investisiyanın yatırılması, 400-ə yaxın iş yerinin yaradılması nəzərdə tutulur.

Qeyd edək ki, Hacıqabul Sənaye Məhəlləsi Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 iyul tarixli sərəncamı ilə yaradılıb.

## Ağstafada keçirilən əmək yarmarkasında əhaliyə 115 iş yeri təklif olunub

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyinin Qazax-Tovuz Regional Məşğulluq filialı tərəfindən Ağstafada əmək yarmarkası keçirilib.**

10 müəssisə tərəfindən ümumilikdə 115 boş iş yeri çıxarılan yarmarkada vakansiyalar üzrə müraciət edən işsiz və işaxtaran şəxslərdən CV-lər qəbul edilərək nəzərdən keçirilib. Onların həmin vakansiyalar üzrə məşğulluqlarının təmin edilməsi üçün işlərə başlanılıb.

Yarmarkada vətəndaşlara agentliyin aktiv məşğulluq tədbirləri barədə də məlumat verilib və müraciət edən şəxslərin qeydiyyatı aparılıb.

***"Azərbaycan"***

# Heydər Əliyev Fondunun təşəbbüsü ilə keçiriləcək "Bakı Marafonu-2023"ə qeydiyyat başladı

Mayın 7-də Heydər Əliyev Fondunun təşəbbüsü ilə "Bakı Marafonu-2023" keçiriləcək. Marafonda iştirak üçün qeydiyyat martın 10-dan mayın 1-dək aparılacaq.




AZƏRTAC xəbər verir ki, yarışda 18 yaşdan yuxarı şəxslər iştirak edə bilərlər. Bunun üçün Bakı şəhərinin ticarət mərkəzlərindəki ("28 Mall", "Gənclik Mall", "Dəniz Mall") qeydiyyat məntəqələrinə və ya www.marathon.az saytına müraciət etmək olar. Qeydiyyat zamanı müvafiq anket formasını doldurmaq, şəxsiyyət vəsiqəsinin surətini (tələbələr eyni zamanda tələbə vəsiqəsinin surətini) təqdim etmək və müəyyən olunmuş vəsaiti ödəmək lazımdır. Yarışda iştirak etmək istəyən fiziki şəxslər üçün ödəniş məbləği 20 AZN-dir. Korporativ olaraq qoşulanlar isə info@marathon.az elektron poçt ünvanına yazaraq müraciət edə bilərlər. Korporativ müraciətlərdə (hər şirkətdən minimum 5 iştirakçı olmalıdır) hər iştirakçıya görə 100 AZN ödənilməlidir. Bakı Marafonunda tələbələrin iştirakı ilə bağlı vəsait Heydər Əliyev Fondu tərəfindən ödənildiyindən, onlar qeydiyyat zamanı ödəniş etməyəcəklər.

Bakı Marafonu idmanın inkişafına dəstək göstərmək, sağlam həyat tərzini təbliğ etmək məqsədi daşıyır. "Küləyə qalib gəl" şüarı altında keçiriləcək yarımarafon 21 kilometr məsafəni əhatə edir. Start və finiş nöqtələri Dövlət Bayrağı meydanında olacaq. Marafonun marşrutu: Dövlət Bayrağı meydanı - Dənizkənarı bulvar - Bakı Beynəlxalq Dəniz Vağzalı - Neftçilər prospekti - Bakı Ağ şəhər bulvarı - Xəqani Rüstəmov küçəsi - Bakı Ağ şəhər bulvarı, 8 Noyabr prospekti, Yusif Səfərov küçəsinin bir hissəsi - Afiyəddin Cəlilov və Üzeyir Hacıbəyli küçələrinin kəsişməsi, "Cavanşir" körpüsündən keçməklə Üzeyir Hacıbəyli küçəsi - Neftçilər prospekti (Hökumət evi, Muzey Mərkəzi, Kukla teatrı, Qız qalası, "Azneft" dairəsi), Bakı Funikulyoru, Bayıl dairəsi, Bibiheybət yolu (Su İdmanı Sarayı) və Dənizkənarı bulvar boyunca hərəkət edərək (Su İdmanı Sarayının arxası, Bakı Kristal Zalı) - Dövlət Bayrağı meydanı.

"Bakı Marafonu-2023"ün mükafatlandırılması iki kateqoriyada olacaq. Kişi və qadın kateqoriyalarının hər biri üzrə 1-ci yerin qalibi 3000 manat, 2-ci yerin qalibi 2000 manat, 3-cü yerin qalibi isə 1000 manat məbləğində mükafat və hədiyyələrlə, eləcə də medal və sertifikatlarla təltif olunacaq.

Qadın və kişi kateqoriyaları üzrə finiş xəttini ilk keçən tələbələr arasında "Gənc ol" ("Azercell"), eləcə də "Finiş xəttini ilk keçən ən yaşlı iştirakçı", "Finiş xəttini ilk keçən korporativ iştirakçı", "Ən kreativ kostyum" nominasiyalarında da mükafatların təqdimatı nəzərdə tutulur. Marafonun bütün iştirakçılarına və yarışın təşkilində dəstək göstərən könüllülərə sertifikatlar təqdim olunacaq. Finiş xəttini keçən ilk 2000 iştirakçı isə "Bakı Marafonu-2023"ün medalları ilə təltif ediləcək.

Marafon iştirakçıları, şəhər sakinləri və qonaqlar üçün Dövlət Bayrağı meydanında əyləncə zonası da yaradılacaq. Burada müxtəlif əyləncə proqramları, yarışlar, idman tədbirləri keçiriləcək.

"Bakı Marafonu-2023"ün eksklüziv tərəfdaşı "Azercell Telekom" şirkətidir. Marafon Elm və Təhsil Nazirliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, KOBİA, SOCAR, "Azərlotereya", Dənizkənarı Bulvar İdarəsi və "Regional İnkişaf" İctimai Birliyinin (RİİB) dəstəyi ilə təşkil olunur. Layihənin icrasını isə "Sport Marketing Group" (SMG) şirkəti həyata keçirəcək.

"Bakı Marafonu-2023" ilə bağlı yeniliklər, yarış ərəfəsində keçiriləcək məşqlər barədə ətraflı məlumatlar layihənin sosial şəbəkələrdəki səhifələrində (facebook.com/bakumarathon, instagram.com/bakumarathon), eləcə də www.marathon.az saytında təqdim ediləcək. Əlavə məlumat üçün telefon nömrəsi: (012) 310 13 31.

# Xalq yazıçısı Rüstəm İbrahimbəyovun Fəxri xiyabanda qəbirüstü abidəsinin açılışı olub

Görkəmli kinorejissor, dramaturq, Xalq yazıçısı Rüstəm İbrahimbəyovun Fəxri xiyabanda qəbirüstü abidəsinin açılışı olub.



AZƏRTAC xəbər verir ki, mərasimdə tanınmış mədəniyyət və incəsənət xadimləri, həmçinin mərhumun ailə üzvləri iştirak ediblər.

Azərbaycan Kinematoqrafçılar İttifaqının sədri, Xalq artisti Rasim Balayev deyib ki, Rüstəm kimi sənətkarlar eldən gedirlər. Onun ölümü ölkəmiz üçün böyük itki oldu: "Rüstəm öz savadı, intellekti, bacarığı ilə nəyinki ölkəmizdə, eləcə də dünyada tanınmış bir sənətkar idi. O, ölkəmizi yüksək səviyyədə təmsil edirdi. Onunla olduğum ölkələrdə böyük sənət adamlarının Rüstəm İbrahimbəyovun sözlərinə, fikirlərinə, çıxışlarına, dünyaya baxışına xüsusi həssaslıqla yanaşdıqlarının şahidi olmuşam. Bu məni çox qürurlandırıb, Azərbaycanın belə bir oğlu olduğundan böyük iftixar hissi keçirmişəm".

Rüstəm İbrahimbəyovun qəlblərdə daim yaşayacağını söyləyən Azərbaycan Kinematoqrafçılar İttifaqının sədri deyib ki, onun yazdığı ssenarilər, pyeslər, əsərlər, çəkdiyi filmləri var olduqca Rüstəm də xatırlanacaq və yaşayacaq: "Rüstəm böyük bir məktəb yaradıb. Bu məktəb uzun illər Azərbaycan kinosunda xidmət etmək istəyən professionallara bir vəsiqə olacaq. Çünki onun yazdıqlarından hələ kino ilə məşğul olanlar çox istifadə edəcəklər. Rüstəm İbrahimbəyov Azərbaycanı bütün dünyada tanıdıb".

Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar mərhum sənətkarın dünya şöhrətindən danışıb: "Rüstəm İbrahimbəyov fenomen idi. Onun çox dəyərli məsləhətləri var idi. O, çoxlu sənətkarlar yetişdirib. Rüstəm Azərbaycanı bütün xarici ölkələrdə vəsf edirdi. Onun əsərləri Avropada məşhur teatrlarda tamaşaya qoyulurdu. O, dünyaşöhrətli azərbaycanlı idi. Biz bununla fəxr edirik".

Xalq yazıçısı Çingiz Abdullayev Rüstəm İbrahimbəyovun yaradıcılığını əbədi sənət nümunəsi kimi qiymətləndirib: "Rüstəm 6 dəfə dövlət mükafatı alan yeganə sənətkardır. Təkcə bu, bizim üçün ən böyük fəxr olunası məqamdır".

Qəbirüstü abidənin müəllifi Aydın Zeynalov abidənin müəllifi olmaqdan məmnunluq duyduğunu vurğulayıb: "Bu işi mənə mərhum Rüstəm İbrahimbəyovun ailəsi həvalə edib. Bundan çox məmnunam. Biz abidənin eskizini də bərabər hazırladıq, bərabər işlədik".

Daha sonra qonaqlar Rüstəm İbrahimbəyov haqqında xatirələrini bölüşüb, həmçinin onun yaradıcılığı barədə fikirlər səsləndiriblər.

Xatırladaq ki, Rüstəm İbrahimbəyov ötən ilin bu günü Moskvada vəfat edib.





## OXUCULARIN NƏZƏRİNƏ!

**“AZƏRBAYCAN”** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *“Azərpoçt” MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *“Azərmətbuatyayımı” ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *“Qaya” firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *“Region Press” MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *“Səma-M” MMC* | *(012) 594-09-59* |
| *“Ziya” LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *“Pressinform” MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *“City press” MMC* | *(055) 819-09-26* |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*


# "Böyrək xəstəliklərinə multidissiplinar yanaşma" mövzusunda elmi konfrans

Martın 9-da Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi və Tədris Mərkəzinin, Mərkəzi Gömrük Hospitalının, Akademik M.Cavadzadə adına Respublika Kliniki Uroloji Xəstəxana PHŞ-nin və ictimai birliklərin birgə təşkilatçılığı, "EGİS Pharmaceuticals PLC" şirkətinin ölkə nümayəndəliyinin və "Medicus" MMC-nin dəstəyi ilə Ümumdünya Böyrək Gününə həsr edilmiş "Böyrək xəstəliklərinə multidissiplinar yanaşma" mövzusunda elmi konfrans öz işinə başlayıb.



Akademik M.Cavadzadə adına Respublika Klinik Uroloji Xəstəxana PHŞ-nin direktoru Fariz Babayev konfrans iştirakçılarına böyrək xəstəliyi ilə mübarizədə dünyada və ölkəmizdə həyata keçirilən tədbirlər barədə geniş məlumat verib. O, tədbirin Ümummilli Liderin 100 illiyi ilə bağlı keçirildiyini vurğulayaraq bildirib ki, Ulu Öndər insanların sağlamlığına böyük önəm verirdi və bu istiqamətdə mühüm qərarlar qəbul edirdi.

Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəis müavini İsmayıl Əfəndiyev Ümumdünya Böyrək Gününün tarixi barədə geniş məlumat verərək xroniki böyrək xəstəliyinin bütün dünyada sağlamlıq böhranı olduğunu qeyd edib. O, Mərkəzi Gömrük Hospitalında uroloji və nefroloji problemləri olan xəstələrə yüksək keyfiyyətli tibbi xidmətlər göstərildiyini vurğulayıb. İ.Əfəndiyev böyrək transplantasiyası sahəsində həm maddi-texniki baza, həm də kadr potensialı baxımından Mərkəzi Gömrük Hospitalının mühüm təcrübəyə malik olduğunu qeyd edib. Konfransda Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) icraçı direktorunun müavini Anar İsrafilov və "Azərbaycan Nefroloqlar Cəmiyyəti" İctimai Birliyinin sədri Cəbrayıl Cəbrayılov da çıxış edərək mövzunun aktuallığına dair fikirlərini bölüşüblər.

Konfrans elmi hissədə panellər ilə öz işini davam etdirib.

Panel müzakirələr və interaktiv sual-cavab sesiyaları vasitəsilə həyata keçirilən konfransda Mərkəzi Gömrük Hospitalının Efferent Terapiya şöbəsinin rəisi Mirmənsim Məmmədov, Kardiologiya şöbəsinin rəisi İlqar Tahiroğlu, mama-ginekoloq Gülnar Nuriyeva, Urologiya şöbəsinin rəisi Bəhruz Xalıqov, Uşaq cərrahiyyəsi şöbəsinin rəisi Vüsal Cəfərov və hospitalın uroloqu Samir Ağalarov müxtəlif mövzularda məruzələrlə çıxış ediblər.

Akademik M.Cavadzadə adına Respublika Kliniki Uroloji Xəstəxanasının tədbir zalında 100-ə yaxın müvafiq ixtisaslı həkimin iştirakı ilə həyata keçirilən elmi konfrans günün ikinci yarısı "Xroniki böyrək xəstəliyi: Səbəb hər zaman böyrək deyil!", "Xroniki böyrək xəstəliyinin uroloji səbəbləri" və "Böyrəkəvəzedici müalicələrdə müasir aspektlər" başlıqlı panellərlə öz işini davam etdirib.

***"Azərbaycan"***

# UNİCEF həyəcan təbili çalır

Son iki il ərzində Avropanın və Asiyanın bəzi ölkələrində uşaqların vəziyyəti pisləşir. Bu da intiharların artması, havanın keyfiyyətinin korlanması və əhali arasında bərabərsizliyin artması ilə özünü büruzə verir. Bu barədə BMT-nin Uşaq Fondunun (UNICEF) hesabatında deyilir.

Hesabatda bidirilir ki, bu problemlərin səbəbləri qlobal pandemiya, təbii fəlakətlər və münaqişələrdir. Bunlar isə öz növbəsində səhiyyə və təhsilə çıxışda bərabərsizliklərə səbəb olur.

Sənəddə deyildiyi kimi, regiondakı digər problem internat məktəblərində və sığınacaqlarda yaşayan uşaqların sayının dünyada ən yüksək göstəricisidir.

Eyni zamanda bu müəssisələrdə daha çox sağlamlıq imkanları məhdud və uğursuz ailələrdən olan qız və oğlanlar yerləşdirilib.

Təbabətə gəlincə ümumilikdə Avropa və Asiyanın bəzi ölkələri dünyada körpə və uşaq ölümlərinin ən aşağı göstəricilərinə malikdir. Lakin regionun bəzi dövlətlərində beş yaşa qədər uşaqların ölüm nisbəti dünya üzrə orta göstəricidən yüksəkdir. Halbuki bu ölümlərin yarıdan çoxu qarşısı alına bilinən və müalicə olunan xəstəliklərlə bağlıdır.

UNICEF-in vurğuladığı kimi, pandemiya həm də uşaqların emosional və psixi rifahına da təsir edib. Avropa və Asiyada intiharların sayının nəzərəçarpacaq dərəcədə artması bunların fəsadıdır.

Ukraynada çoxlu sayda ailənin əhəmiyyətli gəlir itkisinə səbəb olan iqtisadi böhran, eləcə də münaqişələrin yaratdığı enerji böhranı uşaqların və valideynlərin rifahını məhv edir. UNICEF-in bu yaxınlarda keçirdiyi sorğuda respondentlərin 80 faizi iqtisadi vəziyyətin pisləşdiyini bildirib, fondun təhlili isə yoxsulluq şəraitində yaşayan uşaqların nisbətinin təxminən iki dəfə artaraq 43 faizdən 82 faizə yüksəldiyini göstərib. Bundan əlavə, 1,5 milyon uşaq potensial uzunmüddətli nəticələri və fəsadları olan depressiya, narahatlıq, posttravmatik stres pozğunluğu və digər psixi sağlamlıq problemləri riski altındadır.



Yeni hesabatın müəllifləri yaranmış vəziyyəti nəzərə alaraq ölkələrin hökumətlərini yoxsulluq və təcrid riski altında olan uşaqlı ailələr üçün etibarlı sosial dəstək sistemləri qəbul etməyə çağırır.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# "Azərişıq" ASC-nin sədri vətəndaşların qəbulunu keçirib

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin vətəndaşların şəhər və rayonlarda qəbulunun keçirilməsinə dair tapşırığına uyğun olaraq, "Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov martın 10-da saat 10:00-da Hacıqabul şəhərində Hacıqabul və Şirvan rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbul Hacıqabul şəhəri, İsmət Qayıbov küçəsində yerləşən "Azərişıq" ASC-nin Hacıqabul Elektrik Şəbəkəsinin inzibati binasında keçirilib.

Qəbul mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumlarının rəhbərlərinin şəhər və rayonlarda vətəndaşları qəbulu cədvəlinə əsasən baş tutub. Qəbuldan əvvəl Ümummilli Lider Heydər Əliyevin Hacıqabul şəhərindəki abidəsi ziyarət olunaraq önünə gül dəstələri qoyulub və əziz xatirəsinə dərin ehtiram ifadə edilib.

Qəbul zamanı qurumun fəaliyyət istiqamətlərinə uyğun olan müvafiq müraciətlər cavablandırılıb, qaldırılan bəzi məsələlərin yerində həlli ilə bağlı tədbirlər görülüb, həlli araşdırma tələb edən məsələlərlə bağlı yazılı müraciət qeydə alınıb və aidiyyəti şöbələrin icraatına göndərilib.

Vətəndaşlar bölgələrdə qəbulla bağlı göstərdiyi diqqət və qayğıya görə Azərbaycan Prezidentinə minnətdarlıqlarını ifadə ediblər.

# Müdafiə Nazirliyinin hərbi qulluqçusunun ölməsi ilə bağlı Gəncə Hərbi Prokurorluğunda cinayət işi başlanılıb

Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin hərbi qulluqçusu, əsgər Məhərrəmov Elnur Ələsgər oğlunun odlu silahdan açılmış atəş nəticəsində yaralanması, təxliyə edilərkən yolda ölməsi barədə Gəncə Hərbi Prokurorluğuna məlumat daxil olub. Hərbi Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, fakt üzrə Gəncə Hərbi Prokurorluğunda Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanıb və hazırda təxirəsalınmaz zəruri istintaq hərəkətləri həyata keçirilir. İstintaq davam etdirilir və qanunvericiliyin tələblərinə uyğun olaraq bütün tədbirlər görüləcək.


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Memarlar İttifaqının İdarə Heyətinin üzvləri Azərbaycan Memarlar İttifaqının üzvü, professor

**İMRAN ƏZİM OĞLU MEHDİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, “Azərbaycan” nəşriyyatı, IV mərtəbə
contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1
“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan Nəşriyyatı” MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti
Tiraj 5184
Sifariş 630
Qiyməti 40 qəpik